**AZƏRBAYCAN RESPUBLİKASI**
**DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ**

**AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU**

**Mübariz Camalov**

# İSLAM İQTİSADİYYATI

*Dərslik*

***Azərbaycan Respublikası Təhsil nazirinin***
***19.08.2014-cü il 905 nömrəli***
***əmri ilə təsdiq edilmişdir.***

**Bakı - 2019**

**Baş redaktor:** i.f.d. C.V.Məmmədov
*Azərbaycan İlahiyyat İnstitutunun rektoru*

**Elmi redaktor:** Akademik V.M.Məmmədəliyev
*Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi*
*Ərəb filologiyası kafedrasının müdiri*

**Rəyçilər:** i.f.d. A.M.Şirinov
*Azərbaycan İlahiyyat İnstitutunun*
*Elm və innovasiyalar üzrə prorektoru*

i.f.d., dos. N.G.Abuzərov
*Azərbaycan İlahiyyat İnstitutunun müəllimi*

**Redaktorlar:** R.İ.Həsrətova,
E.Ə.Ağaoğlu

**Mübariz Camalov**
**İSLAM İQTİSADİYYATI**
Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2019, 160 səh.

"İslam iqtisadiyyatı" dərsliyi İslamın iqtisadi məsələlərə, xüsusilə müasir dövrdə aktual olan problemlərə münasibəti haqqındadır. Kitab ilahiyyat sahəsində təhsil alan tələbələr üçün nəzərdə tutulub.

**İSBN:** 978-9952-837-03-2

© M.Camalov, 2019
© Azərbaycan İlahiyyat İnstitutu, 2019

# MÜNDƏRİCAT

**ÖN SÖZ ......................................................................7**
**GİRİŞ ...........................................................................9**

**I FƏSİL**
**ÜMUMİ ANLAYIŞLAR**

**I. İSLAM İQTİSADİYYATININ ƏSAS PRİNSİPLƏRİ ..........................................................11**
A. İslamda çalışma və əməyin əhəmiyyəti ............................11
B. Halal qazanc.............................................................12
C. Ticarət əxlaqı ...........................................................17
Ç. Mal mübadiləsinin əsasları...........................................22
D. Ticarətdə qazanc həddi ...............................................24
E. Pul qazanmaq və zahidlik ............................................25

**II. MÜQAVİLƏ NƏZƏRİYYƏSİ. .....................................29**
**III. İSLAM ƏMLAK HÜQUQU (MÜLKİYYƏT).............34**
A. Mütəqəvvim mal və mütəqəvvim olmayan mal ...............36
B. Daşınan (mənqul) mal və daşınmaz (qeyri-mənqul) mal..37
C. Misli mal və qiyəmi mal .............................................37
Ç. Mülkiyyətin növləri.....................................................38
D. Mülkiyyətin əldə edilməsi ...........................................38
**IV. İŞÇİ VƏ İŞƏGÖTÜRƏNİN HÜQUQLARI .................40**
**V. QƏRZİ-HƏSƏN...........................................................44**

**II FƏSİL**
**MALİ İBADƏTLƏR**

**I. ZƏKAT46**
A. Zəkatın məqsədi və əhəmiyyəti ......................................48
B. Zəkatın fərz olmasının dəlilləri.......................................52

C. Zəkatın fərz olmasının şərtləri ....54
Ç. Zəkatın səhih olmasının şərtləri ....59
D. Zəkat veriləcək mallar. ....61
E. Zəkatın sərf yerləri. ....70
Ə. Zəkatı ödəmə zamanı və forması ....75

**II. XÜMS ....79**
A. Xümsün tərifi ....79
B. Xüms veriləcək mallar ....79
C. Xüms mükəlləfiyyəti və nisab ....80
Ç. Xümsün sərf yerləri. ....80
**III. Fitr sədəqəsi (fitrə) ....83**

## III FƏSİL
## MİRAS HÜQUQU

**Ümumi məlumat ....87**
**I. MİRAS HÜQUQUNUN MƏNBƏLƏRİ ....88**
**II. İSLAM MİRAS HÜQUQUNDA BƏZİ TERMİNLƏR ....92**
A. Miras – Tərəkə.. ....92
B. Muris (müvərris) ....92
C. Varis ....92
Ç. Həcb ....92
D. Hirman. ....92
E. Övl ....93
Ə. Rədd ....93

**III. MİRASIN ŞƏRTLƏRİ ....94**
A. Miras qoyanın vəfat etməsi ....94
B. Varisin həyatda olması ....94
C. Ölüm tarixinin bilinməsi ....95
Ç. Miras maneəsinin olmaması ....96

**IV. MİRAS HAQQI QAZANDIRAN SƏBƏBLƏR...........97**
A. Evlilik bağı.....................................................................97
B. Qan qohumluğu...............................................................97
C. Vəla..................................................................................97

**V. MİRAS ALMAĞA MANE OLAN HALLAR..............98**
A. Öldürmə (qətl).................................................................98
B. Din fərqi...........................................................................99
C. Ölkə fərqi.......................................................................100

**VI. MİRAS ÜZƏRİNDƏKİ HAQLAR VƏ BORCLAR.......................................................102**
A. Borclar. .........................................................................102
B. Cənazə xərcləri. ............................................................102
C. Vəsiyyətlərin yerinə yetirilməsi....................................102
Ç. Miras bölgüsü................................................................102

**VARİSLƏR VƏ PAYLARI .....................................103**
A. Hənəfi məzhəbinə görə miras bölgüsü...........................103
B. Cəfəri məzhəbinə görə miras bölgüsü. ..........................107

## IV FƏSİL
## MÜASİR MƏSƏLƏLƏR

**I. FAİZ VƏ İSLAM BANKÇILIĞI ...............................110**
**İslam Bankı.......................................................................115**
A. Müzarəbə.. .....................................................................116
B. Müşarəkə........................................................................117
C. Sələm. ............................................................................118
Ç. Satınalma tələbi ilə sələm müqaviləsi............................119
D. İcarə. .............................................................................119
E. Qazanc payı ilə faiz arasındakı fərqlər...........................120
**II. SIĞORTA .......................................................................122**

**V FƏSİL**
**ƏLAVƏLƏR**

**I. MEHR.............................................................125**
A. Ümumi məlumat. ...................................................125
B. Mehrin növləri ......................................................126
C. Mehrin ödənmə məsuliyyəti və xəlvət. ........................128

**II. NƏFƏQƏ ..........................................................130**

**III. İQTİSADİYYATA DAİR AYƏ VƏ HƏDİSLƏR......132**
A. Ayələr...................................................................132
B. Hədislər. ...............................................................135

**IV. İQTİSADİ TERMİNLƏR LÜĞƏTİ. .......................151**

**ƏDƏBİYYAT ........................................................155**

## ÖN SÖZ

Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) ali dini təhsil üzrə ixtisaslaşmış təhsil müəssisəsidir. İnstitut Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2018-ci il tarixli 3654 nömrəli Sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində təsis edilmişdir. İnstitutun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

Azərbaycan İlahiyyat İnstitutu yarandığı gündən etibarən, dini ədəbiyyatın nəşrinə xüsusi əhəmiyyət verir. Bu nəşrlərin sırasında dərsliklər də var. Xüsusilə qeyd etmək lazımdır ki, din təhsilində yerli mütəxəssislərin dərslik hazırlaması böyük əhəmiyyət kəsb edir. Bu sahədə İnstitutun tələbələri müasir tələblərə cavab verən, elmi standartlara uyğun doğru dini bilikləri əhatə edən ədəbiyyat əldə etmiş olurlar. Bu baxımdan, "İslam iqtisadiyyatı" dərsliyinin nəşri təqdirəlayiq haldır.

İslam dininin əsas mənbəyi olan Qurani-Kərimdə zəkat, xüms və sədəqə kimi ibadətlərlə yanaşı, miras, mehr, nəfəqə, alış-veriş, faiz kimi iqtisadi məsələlərlə bağlı çoxsaylı hökmlər mövcuddur. Həzrət Peyğəmbərin bir çox hədisində iqtisadi həyatla bağlı mühüm məqamlara toxunulmuşdur. Sonrakı dövrlərdə İslam alimləri bu hökmlərin əhatə dairəsini genişləndirərək, İslam iqtisadiyyatının formalaşmasına töhfə vermişlər.

Mübariz Camalovun "İslam iqtisadiyyatı" dərsliyi İslam hüququ fənninin tədrisi baxımından xüsusi əhəmiyyət daşıyır. Dərslik dörd fəsil və bir Əlavələr bölümündən ibarətdir. Birinci fəsildə İslam iqtisadiyyatının ümumi prinsiplərindən bəhs olunur. Burada halal qazancın yolları, mülkiyyət anlayışı və

müqavilə nəzəriyyəsindən danışılır. İkinci fəsil zəkat, xüms və sədəqə kimi ibadətlərə həsr olunub. Üçüncü fəsildə İslam hüququnda mühüm yer tutan miras məsələlərinə geniş yer verilir. Dördüncü fəsil İslam hüququnun müasir məsələlərini əhatə edir. Bu fəsildə İslam bank sistemi və sığorta haqqında faydalı məlumatlar yer alır. Nəhayət, Əlavələr bölümündə mehr və nəfəqə haqqında məlumat verildikdən sonra, İslam iqtisadiyyatı ilə bağlı ayə və hədislər qeyd edilir. Sonda isə İslam iqtisadiyyatı haqqında qısa terminlər lüğəti təqdim olunur. Əsərin sonunda istifadə edilmiş ədəbiyyat siyahısı təqdim edilir.

Dərslik elmi ardıcıllıq və obyektivlik əsasında hazırlanmışdır. "İslam iqtisadiyyatı" kitabı zəngin məlumatları və nəzəri bilikləri əhatə edir.

Dosent Mübariz Camalovun "İslam iqtisadiyyatı" dərsliyinin tələbələr, eləcə də geniş oxucu kütləsi üçün faydalı olacağına inanıram.

**i.f.d. Ceyhun Məmmədov**
***Azərbaycan İlahiyyat İnstitutunun rektoru***
*Bakı, 2019*

# GİRİŞ

İslam özünəməxsus din olmaqla yanaşı, insan həyatının bütün sahələrini əhatə edir, həmçinin iqtisadi sahədə də qanunlar müəyyənləşdirir. İslam iqtisadiyyatını doğru başa düşmək üçün onu öz dünyagörüşü əhatəsində qiymətləndirmək lazımdır. Əks halda, İslamın iqtisadiyyata dair prinsipləri ya köhnəlmiş sayılar, yaxud funksiyasını itirmiş qanunlar toplusu olaraq görünər.

İslamın ilk dövrlərindən etibarən, iqtisadi məsələlər müsəlmanların həyatında mühüm yer tutmuşdur. Mədinəyə hicrət edən müsəlmanların çoxu öz həyatını davam etdirmək üçün birbaşa ticarətə başlamış. Peyğəmbər də ticarəti tərifləmiş və qaydalarına riayət ediləcəyi təqdirdə, ticarətin halal qazanc yolu olduğunu vurğulamış, hətta namazdan sonra ikinci vacib əməl kimi, ticarətin müsəlmanların həyatında xüsusi yeri olduğunu vurğulamışdır. Bundan əlavə, Cümə namazına getməyi əmr edən ayə, eyni zamanda, namazdan sonra ruzi axtarmaq üçün gündəlik həyata geri dönməyi də əmr edir[1]. İslamın əməyə verdiyi bu dəyərlər dərhal öz təsirini göstərmiş və bu ilk ticari fəaliyyət ilə birlikdə İslamın iqtisadi sistemi də qurulmağa başlanmışdır. Bu sistemin əsasları, şübhə yoxdur ki, Quranın və Peyğəmbərin müəyyənləşdirdiyi iqtisadiyyat qanunlarından ibarət olmuşdur.

Bu kitabda İslam iqtisadiyyatının əsas məsələlərini əhatə etməyə çalışmışıq. Dərslikdə, həmçinin İslam dininin iqtisadi həyatla bağlı qanunları əhatə olunmuşdur. Hər bir müsəlmanın gündəlik həyatı nəzərə alınaraq, seçilən mövzularda sadə bir üslub və anlaşılan dilə üstünlük verilmişdir. Məsələlər izah olunarkən elmi təfsilatdan uzaq olmağa çalışdıq, həmçinin məsələlərin anlaşılmasını asanlaşdırmaq üçün nisbətən səthi yanaşma

---

[1] Cümə, 62/10.

yolunu seçdik. Qeyd edək ki, Quran ayələri və hədislər xaricində mənbə göstərmə mövzusunda da dərinliyə getmədik. İslam iqtisadiyyatında, eyni zamanda, ibadət mahiyyəti daşıyan "Zəkat", "Xüms" və "Sədəqə" başlıqlı yazıların əhatə etdiyi mövzuları təkrar-təkrar klassik mənbələrdən araşdıraraq yazılması zərurətinin olmadığını düşündük. Bu səpkidə qiymətli müəllimlərim – professorlar Saffet Köse və Rahmi Yaranın birgə hazırladıqları "İslam dininin əsasları" adlı əsərin əlaqəli fəsillərindən ixtisarla bəzi mövzuları əldə etdik. Məlumat üçün bildirim ki, professorlar Rahmi Yaran və Bilal Aybakanın "İslam hüququ" kitabındakı "Əşya hüququ" və "Borclar hüququ" fəsillərindən də eyni qaydada istifadə olunmuşdur. Müəlliflik hüquqlarını pozmamaq prizmasından yanaşaraq, bu mətnlərdən istifadə etdik və hətta bir çox yerdə mətni olduğu kimi sadələşdirərək oxuculara çatdırmağa çalışdıq. Əlbəttə bu, bizə müəlliflik hüquqlarını pozmaq haqqı vermir. Bu haqqın qismən də olsa qorunmasını təmin etmək üçün geniş ədəbiyyat siyahısı verərək, müəlliflərin hüquqlarını qorumaq yönündəki səylərimizi göstərməyə çalışdıq.

# I FƏSİL
# ÜMUMİ ANLAYIŞLAR

## I. İSLAM İQTİSADİYYATININ ƏSAS PRİNSİPLƏRİ

### A. İslamda çalışma və əməyin əhəmiyyəti

İslam dininin bəşəriyyətə təqdim etdiyi həyat nizamında həm dünya, həm də axirət həyatı eyni səviyyədə tutulur. İnsana hər iki dünyaya hazırlanması üçün imkan və qaydalar verilmişdir. Bu iki aləmdən birincisi olan dünya həyatı müvəqqəti qəbul edilmiş, lakin bu keçici həyatın əbədi olan axirət həyatı üçün hazırlıq mərhələsi olduğu da nəzərdən qaçırılmamışdır. Beləcə, əsl həyatın axirət həyatı olduğu və insanın bu dünyadakı hədəfinin də axirət olduğuna işarə edilmişdir. Bu həqiqət Quran ayəsi ilə belə açıqlanmışdır: "Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma. Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum-əqrəbaya xərcləməklə) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!"[2].

İslam dinində ruzi qazanmaq üçün çalışmaq vacib qəbul edilmişdir. Bir insanın ibadətlərini yerinə yetirməsi müsəlmanlıq vəzifəsi olduğu kimi, ruzi qazanmaq da insanlıq vəzifəsidir. Necə ki, İslam Peyğəmbəri "Ruzi üçün çalışıb halalından qazanmaq fərzdir"[3], buyurmuşdur. Qazancın ən xeyirlisi və hörmətə layiq olanı isə əl əməyi ilə əldə edilən qazancdır[4]. Burada digər sahələrdəki qazancın qiymətsiz olduğu deyil, əziyyət

---

[2] "əl-Qəsəs", 28/77.
[3] Kəşful-xəfa, II, 46.
[4] İbn Macə, Ticarat, I.

çəkilərək, alın təri ilə qazanılan malın üstünlüyü vurğulanır. Bir insanın özünün və ailəsinin ehtiyaclarını təmin etmək üçün halal qazanc yollarının hər birində çalışması hörmətəlayiqdir. Peyğəmbərin, hətta bir hədisində insanın qazanc arxasınca getməsi Allah yolunda cihad etmək və ya gündüzləri oruc tutub, gecələri də namaz qılmağa bərabər tutulmuşdur[5]. İnsan namaz, zəkat, oruc, həcc və bir çox ibadətlərini çalışaraq əldə edəcəyi qazanc vasitəsilə yerinə yetirə bilər. Çalışmayıb, başqalarına möhtac olan insan necə zəkat verə bilər? Kasıblara necə əl tuta bilər? Oruc tutduğu zaman süfrəsinə hansı nemətləri qoyar? Həcc ibadətini hansı imkanlarla yerinə yetirər? Məhz bu suallara müsbət cavab vermək üçün insan çalışmalıdır. Buna görə də dinimizdə səy göstərib, qazanc əldə etmək ibadətlər səviyyəsində tutulmuşdur. Bu məqsədlərlə çalışıb halalından qazanmaq nafilə ibadətlərdən daha fəzilətlidir. Nafilə ibadət insanın, sadəcə, özü üçün faydalı olduğu halda, qazanc əldə etməsi cəmiyyətin də xeyrinədir.

### B. Halal qazanc

İslamın çalışma və əməyə böyük əhəmiyyət verdiyi məlumdur. İslam qazancın halal yollar vasitəsilə əldə edilməsini də şərt kimi irəli sürür. "Qazanc olsun, haradan gəlirsə-gəlsin" düşüncəsi İslama tamamilə ziddir. Qazancın ibadət kimi qiymətli olmasının şərti isə halallıqdır. Əksinə, haram yollarla qazanc əldə etmək böyük günahdır. Peyğəmbərimiz buyurur ki, halal qazanc uğrunda yorulub-axşamlayan kəs günahları bağışlanmış olaraq yatar, Allah ondan razı olduğu halda isə sabahını açar. Göründüyü kimi, burada günahların bağışlanmasına vəsilə olan qazanc halal ruzidir. Müsəlman bu dünyanın bir sınaq yeri olduğunu bilən kəsdir. Bu sınaq dünyasında atılan hər addımın halal yolda olması lazımdır. Belə olmasa, əsl hədəf –

---

[5] Buxari, Nəfəqat, 1.

axirətə hazırlıq unudular və insan dünya həyatının dəbdəbəsinə qapılıb gedər.

Unutmaq olmaz ki, İslamın təbliğ etdiyi halal qazanc yolları çox genişdir. Bəzən insanlar əziyyət çəkmədən asan, zəhmətsiz yollarla zəngin olmaq arzusuna düşürlər. Belə olduğu halda, halal qazancın çətinliyi, halal dairədə yaşamağın mümkün olmadığı iddia edilər. Halbuki dinin sahibi olan Allah insandan gücünün çatmayacağı ağırlıqda iş tələb etməz. Şübhə yoxdur ki, halal qazanc yolu haram yoldan daha çətindir. Haram qazancda alın təri və əmək olmaz, az əməklə çox qazanc əldə edilər. İslam isə çəkilən əziyyət miqdarında qazanc əldə olunmasını buyurur.

Quranda halal və təmiz mal haqqında çox sayda əmr mövcuddur. Bir ayədə belə buyurulur: ***"Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin (təmiz və) halalından yeyin! Əgər Allaha ibadət edirsinizsə (bu nemətlərə görə), Ona şükür edin!"[6]. Başqa bir ayədə isə "Allahın sizə verdiyi ruzidən halal və təmiz olanını yeyin. İnandığınız Allahdan qorxun!"***[7] buyurularaq halal qazancdan yeməyin insan üçün zəruri olduğu vurğulanır.

Haram qazanc yemək insanın bütün həyatına öz təsirini göstərir. Allah haram qazancın natəmiz olduğunu bildirir. Peyğəmbərimiz də haram qazanc yeyən kəsin duasının qəbul edilməyəcəyini bildirərək, bu həqiqəti bir daha bizə çatdırır: ***"Bir kimsə (Allah üçün) uzun bir səfərə çıxmışdı. Saçları dağınıq, toz-torpağa bulanmış bir vəziyyətdə əllərini səmaya açaraq, "Ya Rəbbi", – deyərək dua etdi. Halbuki yediyi haram, içdiyi haram, geyindiyi haram, qısaca, özü haramla bəslənmiş olanın duası necə qəbul edilər?".*** Burada haram qazancın insanla-Allah arasına girərək, insanı ən çətin anlarında belə yalnız buraxdığını görə bilərik. Xalq arasında məşhur olan

---

[6] "Bəqərə", 2/172.
[7] "Maidə", 5/88.

bir məsələ görə, haram tikə yeyənin ibadəti qırx gün qəbul olunmaz. Bugünün tibb elmi də bədənə daxil olan bir qidanın bədəndən tamamilə çıxması üçün qırx gün vaxt lazım olduğunu bildirir. Bu, bizə göstərir ki, haram qazanc həqiqətən də insanın bədənində olduğu müddətdə onun həm maddi, həm də mənəvi varlığına öz təsirini göstərər.

Təfsirçi Elmalılı Məhəmməd Həmdi Yazır "İsmi-əzəm" duası "halal loğmadır" demişdir. Yəni ibadət və duaların qəbul olunması yeyilən loğmaların halallığı ilə yaxın əlaqəlidir. Halal tikə bədəndə qulluq enerjisini meydana gətirir. İnsanların Allaha qarşı üsyanının səbəbini haram loğmada axtarmaq lazımdır. Haram tikə ilə bəslənən bir bədənin ibadətə meyilli olması mümkün deyil. Haramla bəslənən bir bədən ibadətlərə deyil, şəhvətə meyil edər. Haramla bəslənənlər şəhvət taciridir.

Buna görə də müsəlmanlar qazandıqları malın halallığına diqqət yetirməlidirlər. Unutmaq olmaz ki, qazancımız insanlar arasında əl dəyişdirən maldan ibarətdir. Ticarətlə məşğul olan bir kəs satdığı maldan pul qazanarkən, malı satın alan insanın malını almış olur. Başqasının malını isə ancaq onun razı olacağı təqdirdə almaq halaldır. Deməli, haram yolla qazanılan hər malın üzərində başqa insanların haqqı var. Haram yolla mal qazanmaq, eyni zamanda, başqalarının haqqını da tapdamaqdır ki, bu hərəkət qulhaqqı meydana gətirir. Bu isə Allahın bağışlamadığı ağır günahlardan biridir. Mal-mülkün insanlar arasında halal yollarla paylaşmasını əmr edən ayədə belə deyilir: ***"Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin. Xalqın malının bir qismini (onun sizə haram olduğunu) bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu (malınızı) hakimlərə (rüşvət) verməyin!"***[8]**.** Bu ayədən aydın olur ki, başqasının malını haqsız yerə almaq haram buyurulduğu kimi, haqsız yolla başqasına mal vermək də haram sayılır.

---

[8] "Bəqərə", 2/188.

Buradan belə qənaətə gəlmək mümkündür ki, İslam çalışaraq qazanc əldə etməyə nə qədər böyük əhəmiyyət verirsə, əldə olunan qazancın halal yoldan olmasına da həmin dərəcədə qiymət verir. Yəni əsas məsələ pul qazanmaq deyil, halal qazanmaq olmalıdır. İbrahim Əthəm belə demişdir: ***"Mədələrinə girənlərin halal, yoxsa haram olduğunu araşdıranlar iman baxımından yüksələrlər. Qazancların halallığını düşünmədən dünya malı arxasınca qaçanlar isə əvvəl mədə fəsadına uğrayar, sonra da dinclikləri qaçar, mənəvi cəhətdən yüksələ bilməz, alçalarlar. Nə ibadətlərinin, nə də etdikləri yaxşılıqların zövqünü dada bilərlər".*** *Abdullah ibn Ömər* ***"Namaz qılmaqdan yay kimi, oruc tutmaqdan mismar kimi olsanız da, haram və şübhəli şeylərdən qaçınmasanız, Allah o ibadətləri qəbul etməz",*** – söyləmişdir.

İslam tarixində halal qazanca diqqət göstərənlərin həyatında bu məsələyə dair gözəl nümunələr görmək olar. Əbu Bəkr köləsinin gətirdiyi süddən içmiş və dərhal köləsinə üz tutaraq, "Bunu haradan aldın?" – deyə soruşmuş, kölə isə “Kəhanət etdim, yəni qeybdən bəzi xəbərlər verdim və qarşılığında da süd aldım”, – söyləmişdir. Bu cavabdan sonra Əbu Bəkr içdiyi südü mədəsindən çıxarmaq üçün barmağını boğazına salmış və içdiyi südü çıxarmağa çalışmış, sonra da "Allahım, mədəmdə qalıb damarlarıma qarışan qismindən Sənə sığınıram", – söyləmişdir.

Mövzunun daha yaxşı başa düşülməsi və bir mömin olaraq bu qadağalara yaxınlaşmamaq üçün bəzi haram qazanc yollarını qeyd etmək yerinə düşərdi:

*1. Faizdən əldə edilən qazanc.* Allah faizi qəti şəkildə haram buyurmuşdur. Bununla bağlı olan ayələrdən biri belədir: ***"Siz ey imana çatmış olanlar! Allaha qarşı məsuliyyətinizin şüurunda olun və əgər həqiqətən möminsinizsə, faizdən gələn qazancların hamısından imtina edin. Əgər belə etməsəniz, bilin ki, Allaha və elçisinə qarşı müharibə élan etmiş olarsınız".***

Peyğəmbərimiz də faizi insanı cəhənnəmə aparan böyük günahlardan biri saymışdır.

*2. Narkotika ticarətindən əldə edilən qazanc.* İslam hər cür narkotik maddəni müxtəlif hikmətlərə görə qadağan etmişdir. Qurani-Kərimdəki hökmlər çox açıq olaraq bu qadağanı ortaya qoyur: ***"Siz ey imana çatmış olanlar! Sərxoşluq verən şeylər, şans oyunları, bütpərəst hərəkətlər və gələcək haqqında kəhanət göstərmək şeytan işi iyrənc pisliklərdən başqa bir şey deyildir. O halda, onlardan uzaq durun ki, xoşbəxtliyə çatasınız".***

*3. Şans oyunlarından əldə edilən pullar.* "Maidə" surəsinin 90-cı ayəsində şans oyunlarının da qadağan edildiyini görürük. İslam əməyin ucaldıldığı və mənəvi dəyərlər əsasında qazanc əldə edildiyi bir cəmiyyət modelini nəzərdə tutur. Peyğəmbər, sadəcə, qumar oynamağı deyil, qumara qapı açan hərəkətləri də bağlamışdır: "Kim yoldaşına "Gəl qumar oynayaq" – desə, dərhal sədəqə versin".

*4. Fahişəlikdən, fahişəlik ticarətindən və fahişəliyə aparan yollardan əldə edilən pullar.* Quran fahişəlik etməyi qadağan buyurub. Fahişəliklə bağlı bütün işlərin də haram olduğunu "Zinaya yaxınlaşmayın, həqiqətən o, çirkin bir həyasızlıq və çox pis bir yoldur" ayəsindən anlayırıq. Bu ayədə, sadəcə, zina qadağan edilməmiş, ümumiyyətlə, ona yaxınlaşmaq da yasaq buyurulmuşdur. Zina ticarəti ilə məşğul olan insanlara kömək etmək, bu işlərlə qazanc əldə edən otellərdə işləmək bunun misallarıdır.

*5. Pul müqabilində qatillik etmək və dəstə meydana gətirərək quldurluqdan pul qazanmaq.* İslam insan öldürməyin hər növünü bu ayədə haram etmişdir: ***"Kim bir mömini qəsdən öldürsə, onun cəzası cəhənnəmdə əbədi qalmaq olacaq. Allah onu məhkum edəcək, lənətləyəcək və onun üçün qorxunc bir əzab hazırlayacaq".*** Zərurət olmadığı halda, ana rəhmindəki uşaqları abort etmək məqsədilə əldə edilən pullar da haram

qazancdır. Bu ayə mövzu ilə əlaqədar qadağanedici bir əmrdir: ***"Yoxsulluq qorxusu ilə uşaqlarınızı öldürməyin".***

*6. Çəki/tərəzi və ölçüdə hiylə edərək əldə olunan qazanclar.* Məkkədə başlayan ölçü və çəki/tərəzidəki hiyləgərlik qadağası Mədinədə də davam etmişdir. Quran bu hiyləgər qazanc sahiblərini ***"Əskik ölçüb çəkənlərin vay halına!"*** deyərək qınayır.

*7. Murdar heyvan satışından, donuz ticarətindən əldə edilən pullar.* Ayə belə buyurur: ***"O, sizə leşi, qanı, donuz ətini və üzərində Allahın adından başqa bir adın xatırlandığı şeyi qadağan etdi".***

*8. Falçılıq və kahinlik edərək qeybdən xəbər vermə nəticəsində əldə edilən qazanclar.* Peyğəmbərimiz falçılıq və kahinliklə məşğul olan insanların cəhənnəmlik olduqlarını bildirmişdir[9]. Cəhənnəmlik insanların əməlləri də haram olduğu üçün buradan əldə olunacaq qazanclar da haramdır.

*9. Rüşvət alıb-verməklə əldə edilən gəlirlər.* Peyğəmbərimiz rüşvət alanın da, verənin də cəhənnəmlik olduğunu bildirmişdir[10].

Nəticə olaraq demək olar ki, sağlam fərdlərdən ibarət olan sağlam bir cəmiyyət meydana gətirmək istəyən İslam halal qazanca böyük əhəmiyyət vermiş və hər cür haram qazanc yolunu qadağan etmişdir.

### C. Ticarət əxlaqı

İslam çalışma və əməyə böyük əhəmiyyət vermişdir. Ticarət bir çalışma növü olub, insanın yaşayışını təmin etməsi, mal-mülk qazanması üçün məşğul ola biləcəyi halal qazanc yollarından biridir. Başqa qazanc yollarında olduğu kimi, ticarətdə də diqqət yetiriləsi lazım olan qayda və qanunlar mövcuddur.

---

[9] Darimi, Buyu, 34, Buxari, İcarə, 20.
[10] İbn Macə, Ehkam, 2.

*1. Müştərini aldatmamaq*

Hər şeydən əvvəl, tacir dürüstlüyü və etibarlılığı ilə müştərisinə güvən verməlidir. Belələrini Peyğəmbərmiz tərifləmişdir: "Doğrusözlü və etibarlı tacir axirətdə peyğəmbərlər, siddiqlər və şəhidlərlə birlikdə olacaqdır (Tirimizi, Buyu', 4; İbn Macə, Ticarət, 1). Belə hərəkət edən tacir bu gözəl davranışının qarşılığını yalnız axirətdə deyil, bu dünyada da görər. Dürüstlük məsələsi müasir dövrün ən ciddi problemlərindən olub, hər kəsin ehtiyac duyduğu mövzudur. Dürüstlüyü və doğrusözlülüyü ilə müştərisinə güvən verən tacir həm qazancını halal yolla əldə etmiş, həm də ticarətində bərəkətin yolunu açmış sayılır. Bir satıcıdan məmnun surətdə ayrılan müştərinin ehtiyacı yarandığı zaman təkrar həmin satıcıya getmə ehtimalı olduqca yüksəkdir. Buna görə də müştəri məmnuniyyətinə əhəmiyyət verən və alış-verişdə dürüstlüyə diqqət edən kəslər doğruluğun əhəmiyyətinə inanan və onun faydasını görən şəxslərdir.

Bu, eyni zamanda, müştəri üçün də bir asanlıqdır. Evindən çıxdığı zaman heç düşünmədən gedib alış-veriş edə bilmək və aldadılmadığından əmin olmaq bugünümüzdə insanın ən çox ehtiyac duyduğu məsələdir. Əks halda, müştərinin qəflətindən və ya saflığından istifadə edərək, keyfiyyətsiz və ya qüsurlu malı keyfiyyətli və qüsursuz deyə ona satmaq İslam əxlaqına da, ticarət əxlaqına da ziddir.

Bu halda keyfiyyəti aşağı olan malı qiymətli malla bir tutmamalı, pisi yaxşıdan ayırmalı, malın qüsurunu söyləyərək müştəriyə satmalıdır. Bu səbəbdən, Peyğəmbər (s.ə.s.) ***"Alıcı və satıcı doğru söyləyib, hər şeyi açıqca ortaya qoysalar, alış-verişləri xeyirli və bərəkətli olar"*** (Buxari, Buyu, 19) buyurmaqla, hər iki tərəfin dürüst və səmimi davranmasını, bir-birlərinə güvənmələrini tövsiyə etmişdir. Diqqət yetirəcək cəhətlərdən biri də malın satıcı tərəfindən gərəyindən çox təriflənməməsidir.

*2. Malı həddindən çox tərifləməmək*

Bir malı satmağın və müştərini razı salmağın yollarından biri də onun keyfiyyətini və xüsusiyyətlərini alıcıya söyləməkdir. Bu zaman həddin aşılmaması, malı tərifləyərkən onda mövcud olmayan xüsusiyyətlərin deyilməməsi lazımdır. Malını gərəyindən çox tərifləyərək satan kimsənin yalandan qorunması olduqca çətindir. Əslində, yaxşı malın təriflənməyə ehtiyacı da yoxdur. Yaxşı mal özünü büruzə verir. Peyğəmbərimiz həqiqəti gizlədib, yalan danışaraq edilən alış-verişin bərəkətini Allahın yox edəcəyini söyləmişdir (Buxari, Buyu, 19,26).

Müasir dövrümüz reklamın vacib bir ticarət prinsipi olduğu da qəbul edilməlidir. Bir malı tanıtmaq üçün edilən reklamın zərəri olmadığı, lakin müştərini aldatmağa, onun o mal mövzusundakı məlumatsızlığından faydalanmağa yol verən reklam həm yalan sayılır, həm də müştəriyə haqsızlıq edilmiş olur. Peyğəmbər malına müştəri cəlb etmək üçün yalan yerə and içən satıcını qiyamət günündə üzünə Allahın baxmayıb, günahlarını bağışlamayacağı üç sinifdən biri olaraq xarakterizə etmişdir (Nəsai, Buyu, 5).

*3. Hiyləli ölçüb-çəkməmək*

Quranda doğru ölçüb-çəkməyin tez-tez vurğulanması («Ənam», 6/152; «Hud», 11/85; «İsra», 17/35) bir şeyi ölçərək aldıqlarında tam ölçməyən, verdiklərində isə ölçü və tərəzini öz mənfəətləri üçün istifadə edən kəslər haqqında Allahın “Vay onların halına” («Mütəffifin», 83/1-3) deyə buyurması və Peyğəmbərin də keçmiş millətlərin həlakına səbəb olan günahlardan birinin əskik olçüb-çəkmək olduğunu bəyan etməsi (Tirmizi, Buyu, 9) mövzunun əhəmiyyətini tam şəkildə ortaya qoyur. Buna görə də müsəlman tacir ölçüb-çəkdiyi zaman son dərəcə diqqətlə davranmalı və yenə Peyğəmbərin “Çək, bir az da əlavə et” (Əbu Davud, Buyu, 7) buyuruğunu əsas götürməlidir. Xüsusilə ölçü və çəkiyə diqqət yetirilmədiyində insanların

bir-birlərinə olan etibarı sarsılar və nəticədə, qul haqqı meydana gələr. Peyğəmbərin tövsiyəsindən aydın olduğu kimi, ölçü və çəkidə əsas olan kimsənin kimsəyə haqqının keçməməsinə diqqət yetirməkdir. Bilinməlidir ki, qul haqqına Allah belə müdaxilə etməməkdədir.

*4. Möhtəkirlik etməmək*

Möhtəkirlik insanların ehtiyac duyduğu ticari əşyanı saxlayaraq, qiymətlər yüksəlincə satması və bundan qazanc əldə etməsidir. Bunu edərkən öz mənfəətini düşünməsi xalqın zərər görməsinə gətirib çıxarar. Bunu edərkən ticari əşyanı saxlayıb süni qıtlıq meydana gətirənlər, tələb artımı ilə qiymətlər yüksəlincə, bu saxladıqlarını əlaltından daha yüksək qiymətə, yaxud bazarda yaranan yüksək qiymətə sataraq, istehlakçının əlindəki alış gücünü haqsız yerə ələ keçirərlər. Bu da istehlakçıya zərər vermək və zülm etmək mənasını verdiyi kimi, əxlaqi cəhətdən xoş olmayan davranış formasıdır. Buna görə də Peyğəmbər bir çox hədislərdə möhtəkirliklə məşğul olanı səhv edən, günahkar, azğın, Allahın himayəsindən uzaq, lənətlənmiş kimi sifətlərlə xarakterizə edərkən, birində də ihtikar edən kimsənin cüzam xəstəliyinə tutula biləcəyindən və ya iflasa uğrayacağından bəhs etmişdir (Müslim, Müsaqat, 129-130; Əbu Davud, Buyu, 40, 47; İbn Macə, Ticarət, 6).

Daha çox qida maddələrində tətbiq olunan möhtəkirlik insanların hüzurunu qaçırar, müəyyən bir təbəqənin mənfəəti naminə haqsız qazanca səbəb olan birbaşa insanlara zülm etmiş olar.

*5. Şübhədən qaçınmaq*

İnsanların dünya və axirət xoşbəxtliyini hədəfləyən, bunu həyata keçirmək üçün köklü tədbirlər gətirən və insanlara necə yaşamalarının lazım olduğunu göstərən İslam dininin "halal-haram" mövzusundakı əsaslarını diqqətlə araşdıran kəslərin bu barədə çətinliyə düşmələri mümkün deyil. İslamda nələrin halal və nələrin haram olduğu ilə əlaqədar ayə və hədislər açıq bir

şəkildə ortaya qoyulmuşdur. Halal ilə haram arasında olan bəzi şübhəli nəsnələr mövzusunda çətinlik ola bilər. Şübhəli olanları hər kəs eyni dərəcədə bilməyə bilər. Məhz bu həqiqətə işarə edən Peyğəmbərimiz belə buyurmuşdur: "Halal da, haram da açıq-aşkar müəyyəndir və bu ikisi arasında şübhəli olanlar vardır ki, insanların bir çoxu onları bilməz. Kim ki şübhəli şeylərdən çəkinsə, dinini və namusunu qorumuş olar. Kimsə də bu şübhəli şeylərə bulaşsa, onun vəziyyəti də sürüsünü bir qoruğun ətrafında otladan çobanın vəziyyətinə bənzər, Həmin sürünün hər an o qoruğa girmə ehtimalı vardır. Diqqət yetirin! Hər padşahın bir qoruğu vardır. Diqqət yetirin! Allahın qoruğu da Onun haram etdiyi şeylərdir. Yenə diqqət yetirin: bədəndə bir ət parçası vardır, o, yaxşı olduğu zaman bütün bədən yaxşı olar; o, pozulduğu zaman bütün bədən pozular. Diqqət yetirin: o ət parçası qəlbdir (Buxari, İman, 39; Müslim, Müsaqat, 107; Əbu Davud, Buyu', 3; İbn Macə, Fitən, 14; Darimi, Buyu, 1).

Hədisdən də aydın olduğu kimi, insanların bir çoxunun bilməyəcəyi və dində "şübhəli" deyə xarakterizə edilən bəzi xüsuslar, halal ilə haram arasında olmaqla birlikdə, harama daha yaxın görünüb, şübhəli nəsnələrlə çox məşğul olan kəslərin hər an harama bulaşması mümkündür. Buna görə də İslama görə, halal qazancda haramlara qarşı göstərilən diqqət, şübhəli şeylərə bulaşmama barəsində də göstərilməlidir. Şübhəli şeylər də nəticə etibarilə harama aparır.

Dinimiz İslam haram qazancın insanı dünya və axirətdə pərişan edəcəyi düşüncəsini inananların qəlbinə yerləşdirməklə, mənəvi bir özünüidarə sistemi qurmuşdur. Bu səbəbdən, dürüst və namuslu olmağı, ərdəmli olmağın təməli sayan bir mömin bu anlayışı inancından alır. Halal qazancın imtinaedilməz şərtlərindən biri çalışmaqdırsa, digəri də dürüst olmaqdır. Dürüstlük – Allaha imandan sonra gələn ən əhəmiyyətli bir əməl və insanlıq vəzifəsidir. Necə ki "Hud" surəsindəki "Əmr olun-

duğun kimi dürüst ol" ayəsi Peyğəmbərin şəxsində hər kəsə xitab edir.

**Ç. Mal mübadiləsinin əsasları**

İslam dini insanın canını müqəddəs saydığı kimi, malını da müqəddəs və toxunulmaz saymışdır. Buna görə də bir insan sahib olduğu mülkü onun razılığı olmadan əlindən ala bilməz. Qurani-Kərimdə bu həqiqət "Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin" ("əl-Bəqərə", 2/188) ayəsi ilə açıq dilə gətirilir; hətta Peyğəmbər "Malı uğrunda öldürülən şəhid-dir", – buyuraraq[11], başqalarının mal-mülkünə qarşı nə qədər etinalı yanaşmamızın lazım olduğunu bildirmişdir. Buradan aydın olur ki, haqsız olaraq başqasına aid malı əldə etmək haramdır. Bunun doğru yolu qarşılıqlı razılığa əsasən, ticarətlə, hədiyyə alaraq, miras və s. kimi halal yollardır. Bunlar İslamın halal qəbul etdiyi mal mübadiləsi üsullarıdır.

Malın halal yolla qazanılması üçün tərəflərin qarşılıqlı razılığı da bəzən yetərli olmur. Məsələn: mal mübadiləsində faizin qadağan olunması bunlardan biridir.

Məlum olduğu kimi, bütün səmavi dinlərlə birlikdə İslam dinində də faiz qadağan edilmişdir. Faiz qadağası ilə bağlı Qurani-Kərimin çox sərt tədbirlər yürütdüyünü görmək mümkündür. Belə ki, əlaqədar ayədə ***"Faiz yeyənlər (qiyamət günü) qəbirlərindən, ancaq Şeytan toxunmuş (cin vurmuş dəli) kimi qalxarlar. Bunların belə olmaları "Alış-veriş də faiz kimi bir şeydir!"*** – dedikləri üzündəndir. Halbuki Allah alış-verişi halal, faiz almağı isə haram (qadağan) etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (faizlər) onundur (ona bağışlanar). Onun işi Allaha aiddir (yenidən faizə) qayıdanlar cəhənnəmlikdirlər və

[11] Buxari, Məzalim, 33.

orada həmişəlik qalacaqlar!”, – buyurularaq faizin çox şiddətli bir şəkildə qadağan olunduğu irəli sürülür.

İslamda mal mübadiləsinə qoyulan qadağalardan biri də inhisarçılıqdır, yəni bir malı daha yüksək qiymətlə satmaq üçün anbarlarda saxlayaraq qiymətinin süni şəkildə artırılması və hiyləli qazanc əldə edilməsidir. Peyğəmbər inhisarçılıq haqqında belə buyurmuşdur: ***“Hər kim qida maddələrini qırx gecə saxlasa, Allah ondan, o da Allahdan uzaq olar”***[12].

İslamın ticarət hüququna gətirdiyi qaydalardan biri də qazanc miqdarı ilə bağlıdır. Əslində, Quran və Sünnədə mal sahibinin satış əsnasında nə qədər qazanc əldə edə biləcəyinə dair məhdudiyyət yoxdur. Burada diqqət ediləcək xüsus qarşı tərəfin aldadılmamasıdır. Aldatma isə İslam hüquqçularına görə iki növdür: qəbni-yəsir (az miqdarda aldatma), qəbni-fəhiş (çox miqdarda aldatma). Bunu bir misalla belə izah etmək mümkündür: əgər bazar qiyməti 10 manat olan bir mal 12 manata satılmışsa, burada az aldatma olduğu nəzərə alınır və bu satış doğrudur. Əgər həmin mal 15-20 manata satılmışsa, yəni həqiqi dəyərinin ikiqatına yaxın, yaxud daha yüksək qiymətə satılmışsa, burada çox miqdarda aldatma olduğu qəbul edilir və bu, qadağan olunan qazanc miqdarı hesab olunur.

Nəticə olaraq demək mümkündür ki, İslam iqtisadiyyatında qazanc həddi təyin olunmamışdır. Ayə və hədislərdə qazanc nisbəti ilə əlaqədar bir miqdar bildirilməmişdir. İslam hüquqçularının buradakı yanaşma tərzi aldatma nöqtəsindən çıxış etmə olmuşdur. Beləliklə, əslində, mal sahibi öz malını istədiyi qiymətə sata bilər, ancaq burada qarşı tərəfin aldadılmaması, yəni malın həqiqi bazar qiymətinin nə olduğu bildirilməlidir.

---

[12] Əhməd İbn Hənbəl, Müsnəd, II, 33.

**D. Ticarətdə qazanc həddi**

Bunda məqsəd satışa qoyulan malın üzərinə sərmayədən əlavə nə qədər miqdar əlavə olunaraq satılmasıdır. İslam iqtisadiyyatında mal sahibinin mülkü üzərindəki tam səlahiyyəti, ümumiyyətlə, satış qiymətinə müdaxiləyə imkan vermir. Bu, həddi aşan səviyyədə qiymət artımına imkan vermə mənasına gəlir. Malın normal qiymətindən çox baha satılması, təbii olaraq, müştərinin aldadılması mənasına gəlir. Buna İslam hüququnda "qəbni-fahiş" deyilir. Bu isə qadağan olunmuşdur. Belə ki, məsələn, 10 manat qiyməti olan bir mal 20 manata satılarsa, burada həddindən artıq qiymətə satış, yəni aldatma, fiqhi termin dilində isə qəbni-fahiş meydana gəlir. Bu məsələnin fiqh kitablarındakı geniş təfsilatına və ixtilaflara yer vermədən onu qeyd etmək olar ki, hər mal üçün müəyyən bir miqdarın aldatma ola biləcəyini demək mümkündür. Məsələn: heyvanlarda ondabir, daşınmaz əmlakda beşdəbir qiymət artımı aldatma hesab olunur.

Bununla birlikdə, fiqh ədəbiyyatında "qəbni-yəsir" adlandırılan və yuxarıda qeyd edilənlərdən daha aşağı miqdarda artıq qiymətə satmağı səhih qəbul etmişlər. Məsələn: normal qiyməti 10 manat olan bir mal 11 manata satılmışsa, bu satış doğrudur.

Bu mövzuda daha dəqiq izah Əbu Hənifədən rəvayət edilir. Onun fikrinə görə, ticarətdə qazanc hər zaman risk altındadır. İslamın heç bir risk daşımayan faizi qadağan etmə səbəblərindən biri də budur. Halbuki ticari bir mal öz qiyməti nisbətində risk daşıyır. Yəni bu malın növünə görə qırılma, yanma, xarab olma kimi riskləri vardır. Əbu Hənifə də bu risklərdən çıxış edərək, bir malın satışında öz qiyməti qədər qazanc miqdarı əlavə olunmasının caizliyini qəbul etmişdir.

Nəticə olaraq, demək mümkündür ki, İslam iqtisadiyyatında qazanc həddi təyin olunmamışdır. Ayə və hədislərdə qazanc nisbəti ilə əlaqədar bir rəqəm verilməmişdir. Bu mövzuda verilən nisbətlərin hamısı alimlərin ictihadlarıdır. Yəni İslam hü-

quqçuları öz dövrlərinin adət-ənənə və iqtisadi şərtlərinə görə fitva vermişlər.

**E. Pul qazanmaq və zahidlik**

"İqtisad" sözü münasib olma, balanslı olub hər cür həddi aşmadan çəkinmə və nəhayət, israfın ziddi mənasındadır. Kapitalist iqtisadiyyatının yayılması ilə birlikdə bu termin “məhsuldar istehsal” mənasında işlənmişdir. Bu mənada baxıldıqda, “iqtisad” anlayışı insan həyatının ən məhsuldar şəkildə qiymətləndirilməsi olaraq başa düşülə bilər. Yaradılışı etibarilə mədəni, yəni ictimai varlıq olan insan yaradılışın təbii nəticəsi olaraq, müəyyən cəmiyyətdə yaşayır. Bu cəmiyyət onun dünyasını meydana gətirir. İnsanın bütün hərəkətləri sözügedən cəmiyyət içində reallaşır. Bundan əlavə, bütün hərəkətlərində etdiklərinin doğruluğuna özünü inandırmaq istəyir. Məhz bu məqamda insanın inanma ehtiyacı iqtisadi həyatda din və əxlaqın birləşməsini təmin edir. Dinlərin və əxlaq sistemlərinin insan həyatına gətirdiyi mənəvi dəyərlər və ölçülər onun davranışlarını tam maddi hərəkətlər olmaqdan çıxarmışdır. Xüsusilə səmavi dinlərin gətirdiyi axirət inancı insan davranışlarına əbədilik mənasını da qatmışdır.

Müqəddəs Kitabımız Qurani-Kərim müsəlmanlara bir dünyagörüşü təqdim etmişdir. Bu dünyagörüşü, həmçinin İslamın iqtisadi həyata baxışını da formalaşdırır. Quranın nazil olduğu dövrdəki cəmiyyətin dünyagörüşü yalnız bu dünyanı hesaba alan bir anlayışdır. Quranın ilk nazil olan ayə və surələrində bu həyat anlayışının və dünyagörüşünün əsas arqumentlərini sarsıtmağa yönəldilmiş olması yerində və təbiidir. Quran dünyəviləşmiş bir cəmiyyətdən fərqli, hətta əks dünyagörüşünə malik cəmiyyət meydana gətirmək üçün əvvəl onların sahib olduqları dəyərləri tənqid etmişdir. Bir Allaha və axirətə inanmağı əsas prinsip olaraq götürmüşdür. Cahiliyyə cəmiyyətinin dünyagörüşündə yeri olmayan bu iki element Quranın meydana gətir-

mək istədiyi dünyagörüşünün əsası idi. Quranın təklif etdiyi dünyagörüşü axirət inancı üzərində qurulmuşdur. Qurana görə, dünya həyatı insanın seçərək deyil, zəruri olaraq gəldiyi sınaq yeridir və bu həyatı əbədi axirət həyatını qazanmaq üçün yaşaması lazımdır. "Dünya axirətin tarlasıdır", – anlayışı da bunu göstərir. Quranda bu barədə belə buyurulur: "Dünya həyatı bir oyundan və əyləncədən başqa bir şey deyildir. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?"[13]. "Mal-dövlət, oğul-uşaq bu dünyanın bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarilə daha xeyirlidir!"[14].

Bu və bu mahiyyətdə olan ayə və hədislərdə axirət vurğusu daha çoxdur, dünya həyatı isə alçaldılaraq, birbaşa tənqid olunaraq göstərilir. Bu yanaşma İslam dininin meydana gətirmək istədiyi universal dünyagörüşü deyil, ilk endiyi cəmiyyətin problemlərinin araşdırılmasının nəticəsidir. Yəni İslamın təklif etdiyi dünyagörüşündə axirətlə yanaşı, dünya həyatı da önəmli yer tutur. Zənginlik və kasıblıqla əlaqəli hədislərdən bunu daha aydın görmək mümkündür.

Hədis ədəbiyyatının zühd başlığı altında yer tutan rəvayətlərinə baxdıqda, "kasıb" həyat tərzinin daha üstün olduğu görünür. "Kasıblığın zənginlikdən üstün olmasından", "Kasıbların zənginlərdən əvvəl cənnətə girmələrinə" və bir sıra məzmunda hədis nəql edilmişdir. Aşağıda verilən hədislərdə İslamın kasıblığı təşviq edən və zənginliyi tənqid edən, səfil və fəqir bir həyatı üstün tutan dünyagörüşünə sahib olduğu dərhal məlum olur.

***"Kasıblıqla öyünürəm"*[15]*.***

---

13 "Ənam", 6/32.
14 "Kəhf", 18/64.
15 Beyhaqi, Əbu Bəkir Əhməd ibn əl-Hüseyn*, Kitabul-zühdil-kəbir,* Beyrut 1987, s. 102.

***"Ümmətin ən xeyirliləri kasıblardır. Onların cənnətə ən tez yerləşənləri də zəiflərdir"[16].***

***"Sizə əhli-Cənnəti xəbər verimmi? Onlar zəif və gücsüzlərdir"[17].***

***"Kasıb möminlər zənginlərdən yarım gün əvvəl Cənnətə girəcəklər. Bu, beş yüz ildir"[18].***

Bunabənzər rəvayətləri çoxaltmaq mümkündür. Bu rəvayətlərin mesajlarını kasıblara təsəlli etmək, onlarda zənginliyə və zənginlərə qarşı meydana gələ biləcək hirsi soyutmağa istiqamətli olduğunu düşünmək mümkündür. Hədislərdəki bu cür mesajlar müəyyən dövrün ictimai mühitindəki iqtisadi balansın olmamasından meydana gəlir.

Bununla yanaşı, "zühd hədisləri" deyilən hədislərin də müsəlman dünyagörüşünün formalaşmasında böyük rolu olmuşdur. Bu hədislərin də ümumi məzmunu dünya həyatını tənqid etmək, axirət üçün yaşamaq, hətta axirəti də tərk edərək, Allah rizası üçün yaşamaq və nəhayət, tərk etməni də tərk etməkdir. Aşağıda bu hədislərdən bəzi nümunələr verilmişdir:

***"Dünya Allahı zikr etmək, dost əldə etmək, alim olmaq və ya elm öyrənmək xaricində lənətlənmişdir"[19].***

***"Hər ümmətin bir fitnəsi vardır, ümmətimin fitnəsi də maldır"[20].***

***"Adəmoğlu üçün dünyada sığınacağı evdən, övrətini örtəcəyi paltardan, quru bir çörək və sudan başqa haqq yoxdur"[21].***

Bu məzmundakı hədislərin bir kitab həcmində olduğunu demək mümkündür. Zühd hədislərinin İslam iqtisadi həyatının təşəkkülündə böyük təsiri olmuşdur. Baxmayaraq ki, İslam

[16] Qəzali, Əbu Hamid, *İhyau ulumid-din,* Beyrut tsz., IV, 194.
[17] İbn Macə, Zühd, 3, (II, 1378, Nömrə: 4116).
[18] İbn Macə, Zühd, 6, ( II, 1380, Nömrə: 4122).
[19] Tirmizi, Zühd, 14, (IV, 561); İbn Macə, Zühd, 3, (II, 1378, Nömrə: 4113).
[20] Tirmizi, Zühd, 26, (IV, 569).
[21] Tirmizi, Zühd, 30, (IV, 571-72).

dininin dünyaya qarşı yanaşması müsbətdir, yuxarıda qeyd olunan tərzdəki hədislər bu anlayışı zədələmişdir. Bir çox tədqiqatçı bu məzmundakı hədislərin sonradan formalaşdığını qeyd etmişdir. Bu kitabın "İslamda çalışma və işin əhəmiyyəti" başlığında da qeyd olunduğu kimi, İslam dini passiv və tənbəl bir həyat tərzini mənimsəmir. Yenə də bəzi təsəvvüf cərəyanlarının təsiri ilə formalaşan cəmiyyətlərdə mal-mülk və çalışmadan uzaq duran bir fərd növü meydana çıxmışdır. Burada Quran və Sünnə işığından uzaqlaşmış, İslamın dünyagörüşünü yanlış formalaşdıran təsəvvüf cərəyanları nəzərdə tutulur. Onu da qeyd etmək lazımdır ki, belə bir dünyagörüşünü müdafiə edən təsəvvüf cərəyanlarının əsasını Quran ayələri deyil, çoxu zəif olan hədislər meydana gətirir.

Nəticə olaraq qeyd etmək mümkündür ki, İslam dininin dünyagörüşünə görə, şübhəsiz, əsas həyat axirətdir. İnsanlar bu dünyaya imtahan olunmaq və əbədi həyatda bu dünyadakı imtahanlarına uyğun həyat qazanmaq üçün göndərilmişlər. Buna görə də hər bir müsəlmanın əsas hədəfi əbədi həyatı qazanmaq olmalıdır.

Qeyd edək ki, bir həqiqət də mövcuddur – bu dünyanı qazanmağı bacarmayan insan əbədi həyatı qazanmaqda da çətinlik çəkər. Hər iki həyatın da qazanılması üçün çalışmaq lazımdır. Digər tərəfdən, Peyğəmbərimizin "Güclü mömin zəif mömindən xeyirlidir"; "Ölməyəcəyini düşünərək dünya üçün, sabah öləcəksən deyə, axirət üçün yaşa" məzmunlu hədisləri də dünya həyatının mühüm olduğunu vurğulayır.

## II. Müqavilə nəzəriyyəsi

Şəxslər arasında haqların dəyişməsini tənzimləyən hüququn əsas hissələrindən biri müqavilə nəzəriyyəsidir. İslam hüququnda müqavilə nəzəriyyəsi borclar hüququnun bir hissəsi kimi tədqiq edilir. Klassik fiqh mətnlərində müqavilə "əqd" sözü ilə ifadə edilir. Lüğətdə "əqd" ipin iki ucunu bir-birinə bağlamaq, düyün atmaq mənasına gəlir. "Əqd" termini ilk dövrlərdə həm tək, həm də ikitərəfli təsərrüfləri əhatə edəcək şəkildə istifadə edilmişdir. Son dövrlərdə "müqavilə" termini daha çox ikitərəfli təsərrüfləri ifadə edir. Buna görə termin olaraq müqavilə təklif ilə qəbulun hüquqi bir nəticə doğuracaq şəkildə bir-birinə bağlanması deməkdir.

Müqavilə nəzəriyyəsi üç əsas başlığı əhatə edir: müqavilənin quruluşu, müqavilənin hökmü və müqavilənin sona çatması.

Müqavilənin quruluşu müqavilənin ünsürləri və şərtlərini əhatə edir. Müqavilənin ünsürləri Qurucu iradə bəyanları, Tərəflər və Müqavilənin mövzusundan meydana gəlir. Müqavilənin şərtlərində isə iniqad, səhhət, nəfaz və lazımlılıq şərtləri tədqiq olunacaq.

Hənəfilərə görə, qurucu iradə bəyanları (təklif və qəbul) müqavilənin yeganə rüknü olduğu halda, cümhur tərəfləri və müqavilənin mövzusunu da rükn olaraq qəbul edir. Burada cümhuru əsas alaraq müqavilənin rüknlərini üç başlıq altında araşdıracağıq:

1. Qurucu iradə bəyanları.
2. Tərəflər.
3. Müqavilənin mövzusu.

Müqaviləni meydana gətirən qarşılıqlı iradə bəyanlarından birincisinə "təklif", ikincisinə isə "qəbul" deyilir. Təklif müqavilə bağlama təklifidir, qəbul isə bu təklifə verilən müsbət cavabdır. Təklif ilə qəbulun bir-birinə bağlanmasına isə "müqa-

vilə” deyilir. Təklif və qəbul söz, yazı, işarə və hərəkət (mübadilə) ilə mümkündür. Bəzən sükut da bəyan vasitəsi kimi qəbul edilir.

Tərəflərin işlətdiyi sözlər qiymətdə razılaşma və ya vəd məqsədli deyil, qəti müqavilə bağlama iradəsini bildirməlidir. Təklif və qəbulun müqavilə meydana gətirməsi üçün müəyyən formalarda olması lazımdır. Bunlardan biri olan feilin keçmiş zaman forması qətilik ifadə etdiyi üçün müqavilə bu forma ilə bağlanır və bununla bağlı heç kim ixtilaf etmir. Məsələn: "Satdım-aldım", "Kirayə verdim-kirayəyə götürdüm" kimi. Bununla birlikdə indiki, gələcək və geniş zamanlarda qətilik olmadığı üçün "Satıram", "Satacağam" və "Sataram" forması müqavilə üçün uyğun bilinmir.

Təklif və qəbul ismi cümlə ilə də ola bilər. "Bu saat 50 manata sənindir" şəklindəki bir ismi cümlə təklif sayılır. Qarşı tərəfin də "Qəbul etdim" deməsi ilə müqavilə bağlanmış olur. "Bu saatı 50 manata satarsanmı?" sualına qarşı tərəf "Bəli", – deyə cavab verərsə, bu "Bəli" qəbul deyil, təklif sayılır. Sualı soruşan adam da aldığı bu cavabdan sonra, "Mən də satın aldım", – deyərsə, müqavilə bağlanmış olur. "Bunu mənə 30 manata sat" şəklində əmr forması ilə edilən bir təklifə qarşı tərəf də "Satdım" dedikdə yenə müqavilə bağlana bilər.

Müqavilə bağlama iradəsi şifahi olaraq ifadə edilə biləcəyi kimi, yazılı olaraq da ifadə edilə bilər. Yazının sözdən çox fərqi yoxdur. Tərəflər hazırlanan mətni oxuyub imza ataraq müqavilə bağlaya bilər. Müasir dövrdə bəzi müqavilələr üçün yazılı olma şərti də var. Yazılı olma şərti olmadığı halda, tərəflər təklif və qəbul funksiyasını görən ifadələri yazı yolu ilə dilə gətirə bilər və bununla müqavilə bağlanar. Birlikdə olmayan tərəflərdən hansısa digərinə məktub göndərib, bu sənəddə hər hansı müqavilə bağlama tələbini yazılı olaraq çatdırdıqda, digəri buna yazılı olaraq cavab verdikdə, bu şəkildə müqavilə bağlanar. İnternet kimi müasir ünsiyyət vasitələri istifadə edilə-

rək, yazılı, yaxud şifahi olaraq təklif və qəbul ifadə edilə bilər və bununla müqavilə bağlana bilər.

Danışıq qabiliyyətini itirmiş olanların anlaşılan işarələri də iradə bəyanı sayılır. İşarə də yazı kimidir, lakin oxuma-yazma bilən lal insanların işarəsi yetərli görünməmişdir. İşarə kifayət qədər açıq deyil və bəzi hallarda fərqli ehtimallara açıqdır, halbuki yazı işarəyə nisbətən daha aydın xüsusiyyətdədir. Bu səbəbdən yazı bilən lalın işarəsinə etibar edilməz.

Söz və yazıdan istifadə etmədən tərəflərin qarşılıqlı əvəzləri birbaşa alıb-vermələri ilə də müqavilə bağlana bilər. Buna "mübadilə" deyilir. Məsələn: bir adamın rəfdəki qəzeti alıb, əvəzini satıcının önünə qoyub-getməsi halında mübadilə yolu ilə satış müqaviləsi bağlanmış olar. Şifahi alış təklifinə satıcının heç danışmadan malı qablaşdırıb təslim etməsi kimi müqavilənin bağlanmasına tərəflərdən biri sözlə, digəri hərəkətlə qoşulmuşsa, bu vəziyyəti maliki və hənbəlilər mübadilə olaraq xarakterizə etmişlər. Hənəfilər isə bunu mübadilə saymamışlar.

Qayda olaraq sükut nə təklif, nə də qəbul mənasına gəlir. Sükut bir bəyan deyil, istisna hallarda sükut iradə bəyanı kimi qəbul edilmişdir.

Müqavilənin ikinci ünsürü tərəflərdir. Burada, xüsusilə "tərəflər" deyilməsinə diqqət yetirilməlidir. Müqavilənin tərəflərindən biri, yaxud hər ikisi birdən çox adamdan meydana gələ bilər. Məsələn: beş nəfər birlikdə bir mülkü satın almaq istədiklərində, bu beş şəxs o müqavilənin yalnız bir tərəfini təşkil edir. Müqavilənin digər tərəfi də tək adam ola biləcəyi kimi, birdən çox adam da ola bilər. Buna görə, "tərəf" ilə "adam" terminlərini bir-birindən ayırmaq lazımdır.

Müqavilənin mövzusuna gəlincə bu, haqqında müqavilə bağlanan əşya və ya haqdır. Məsələn: satış müqaviləsinin mövzusu satılan malın mülkiyyətini müştəriyə, əvəzinin mülkiyyətini də satıcıya keçirməkdir. Müqavilənin mövzusunun aşağıdakı şərtləri var.

Müqavilənin mövzusu veriləcək bir maldan ibarətdirsə, o malın mövcud olması lazımdır. Belə bir vəziyyətdə mövcud olmayan bir şey müqaviləyə mövzu edilsə, müqavilə bağlanmaz, yəni batil olar. Müqavilə bağlandığı anda təslimi vacib bilinməyən bir mal müqavilə mövzusu olmuşsa, o əşyanın ifa əsnasında mövcud olması yetərli sayılmışdır.

Müqavilənin mövzusu bir işdən ibarət olarsa, onun da mümkün olması lazımdır. Qeyri-mümkün olan bir nəsnə müqavilə mövzusu olarsa, müqavilə batil sayılar. Qeyri-mümkünlük məntiqi, fiziki və hüquqi ola bilər.

Digər bir şərt müqavilə mövzusunun məlum olmasıdır. Müqavilə mövzusu təyin edilərək cəhalət aradan qaldırılmağa çalışılır. Cəhalət, yəni naməlumluq üç səviyyədə ola bilər: cins, növ və xüsusiyyət səviyyəsində. Bir şeyin cinsi təyin edilmədən müqavilə mövzusu olmuşsa, cins səviyyəsində cəhalətdir. Məsələn: "Mən sənə 10 manata bir şey satdım", – deyilməsi halında nəyin satıldığı müəyyən deyil. Bunu təyin etmək də mümkün deyil. Məhz buna "cəhalətul-cins" deyilir ki, bu səviyyədəki cəhalət müqavilənin batil olmasına gətirir. İkinci dərəcədəki naməlumluğa "cəhalətin-növ'" deyilir. Məsələn: "Mən sənə 10 min manata bir avtomobil satdım", – deyildikdə satılan malın cinsi, yəni avtomobil olduğu ifadə edilmiş, amma növü təyin olunmamışdır. Bu səviyyədəki cəhalət də müqavilənin quruluşuna maneə yaratdığından, müqavilə batil olar. Üçüncü səviyyədəki cəhalət isə xüsusiyyətlərlə əlaqədardır. Bu cür cəhalət müqavilənin quruluşuna deyil, səhhətinə təsir edir. Bu səbəbdən müqavilənin mövzusunun məlum olması deyildikdə, bunun bir dərəcəyə qədərki qismi iniqad şərti, bir dərəcədən sonrası isə səhhət şərti ilə əlaqədardır.

Müqavilə nəzəriyyəsinin əsas mövzularından biri də müxəyyərliklərdir. Müxəyyərlik "sərbəstlik" deməkdir. Bunun mənası bağlanmış bir müqaviləni ləğv etmə səlahiyyətidir. Bu sərbəstliklər şərt, təyin, görmə və qüsur olmaqla dörd cürdür. Müxəy-

yərliklərdən birincisi, şərt müxəyyərliyi bağlayıcı və fəsxi mümkün olan müqavilələrdə olur. Quruluş etibarilə qeyri-lazım olan müqavilənin hər bir halda fəsxi mümkündür. Şərt müxəyyərliyi deyildikdə, bir müqavilənin təyin olunmuş müddət ərzində tərəflərdən biri, yaxud hər ikisi tərəfindən ləğv edilməsi nəzərdə tutulur.

Təyin müxəyyərliyi isə bir neçə maldan yalnız biri, amma hansı olduğu təyin edilmədən satış müqaviləsi bağlandıqda, müştəri və ya üçüncü bir şəxsin sahib olduğu seçim haqqıdır. Təyin müxəyyərliyi şərt müxəyyərliyi ilə birlikdə də ola bilər.

Görmə müxəyyərliyi bir malı görmədən satın alan adamın malı gördükdə bəyənməməsi halında müqaviləyə bağlı qalıb-qalmamaqda sərbəst olması deməkdir. Nəhayət, bir malın dəyərini azaldan qüsur, yaxud nöqsana bağlı sərbəstliyə “qüsur sərbəstliyi” də deyilir. Məsələn: paltarın hər hansı bir yerinə ləkə düşməsi, bir cihazın qırıq, yaxud xarab olması bir qüsurdur.

## III. İslam əmlak hüququ (mülkiyyət)

"Mülkiyyət" əmlak hüququnun əsas terminlərindən biri olub, şəxsin əşyaya sahibliyini ifadə edir. Bu isə şəxsə sahib olduğu mal-mülkdən istifadə haqqı verir. Bu hüquq sahəsi insanların mal-mülk üzərində olan hakimiyyətini təyin edir. Buna görə də mülkiyyətə bağlı ən əhəmiyyətli üç məfhum əsas götürülür. Bunlar mal, mənfəət və haqq məfhumlarıdır.

İnsanın sahib olduğu bütün əşyalar, məsələn, ev, avtomobil, paltar, kitab maldır. Bir insanın sahibi olduğu maldan istifadə etmə haqqı satma, kirayə vermə, bağışlama formasında ola bilər.

İslam hüququna görə əldə olunması və istifadəsi mümkün olan hər şey maldır. Mal əldə olunarkən, həqiqətən, mülkiyyət altına alınmış ola biləcəyi kimi, hələ mülkiyyət altına alınmamış, amma alına biləcək vəziyyətdə də ola bilər. Məsələn: mülkiyyət altında olan ev, heyvan, pul kimi həqiqətən əldə edilmiş mallar birinci qrupa daxildir. Həqiqətən əldə edilməmiş və ondan faydalanılmayan, lakin əldə edilib, faydalanılması mümkün olan əşyalar isə ikinci qrupa aiddir. Bunlara fiqh ədəbiyyatında "mübah mallar" deyilir. Dənizlərdəki balıqlar, havadakı sahibsiz quşlar mübah mallardandır. Bunları ilk dəfə əldə edən onlara sahib olar.

Mənfəət bir maldan faydalanma, istifadə etmə deməkdir. Yuxarıda da qeyd edildiyi kimi, bir mal üzərində mülkiyyətdən danışmaq üçün onun maddi olması şərtdir. Bu mallardan istifadə isə maddi deyil, mənəvi bir dəyərdir. Bununla birlikdə mənfəəti maldan ayrı düşünmək olmaz.

Mənfəətlərin mal sayılıb-sayılmaması ilə əlaqədar ixtilafın fiqhdə bəzi nəticələri mövcuddur. Bunlardan ən əhəmiyyətlisi bir malı qəsb edən adamın o malın mənfəətini təzmin edib-etməyəcəyi ilə əlaqədardır. Hənəfilərə görə, yalnız mütəqəvvim mallar təzmin edilə bilər və mənfəətlər bir müqavilə mövzusu

olmadıqca, bu xüsusiyyətə sahib deyil. Başqa sözlə, qəsb etdiyi malı eyni ilə qaytaran adam ayrıca qəsb müddətində istifadə etdiyi, yaxud istifadə etməsə də, sahibinin istifadəsini önlədiyi mənfəətləri təzmin etməz. Digər məzhəblər isə mənfəəti mal qəbul edir və başqasına aid bir mala əl qoyan adamın o malı əlində tutduğu müddət ərzində kirayə ödəməsinin lazım olduğunu söyləyirlər. Hənəfilər də zamanla mənfəət haqqındakı təsəvvürlərində digər məzhəblərin anlayışına yaxınlaşmışlar. Bu dəyişikliklərə uyğun olaraq, qəsb etdikləri təqdirdə vəqf mallarının, yetim mallarının və gəlir əldə etmək məqsədi ilə hazırlanmış malların mənfəətlərinin təzmin edilməsi fikri irəli sürülmüşdür. Məcəllə başlanğıcda Hənəfi məzhəbinin bu müstəsna hökmlərinə görə təşkil edilsə də, dəyişiklik aparılarkən bu da yetərli sayılmamış, əlaqədar maddə "Mənfəətlər əyan kimi mütəqəvvimdir. Buna görə, bir kimsə digərinin daşınan və daşınmaz bir malını istifadə etsə və ya istifadə edilməsinə mane olsa, bənzər ödənişini verməsi lazımdır" şəklini almışdır. Son dövr bəzi İslam hüquqçuları  mənfəətləri mal sayan fikrini daha uyğun gördüklərini ifadə edirlər.

“Haqq” müxtəlif mənalara sahib olan bir sözdür. Bu müxtəlif mənaların müştərək nöqtəsi "var olma, sabit olma”dır. Buradan çıxış edərək, haqq "mövcud və sabit olan"dır demək mümkündür. İslam hüquqçuları bu sözü çox müxtəlif mövzularda işlədirlər. Allah haqqı, qul haqqı, ana-ata haqqı, mücərrəd haqq, qeyri-mücərrəd və ya mütəakkid haqq, mülkiyyət haqqı, intifa haqqı, vəlayət haqqı, kiçiyə baxma (hidanə) haqqı, yoldan keçmə haqqı (haqul-murur), müxəyyərlik haqqı bu istifadələrdən bəziləridir. “Haqq” ümumi mənası ilə yanaşı, mülkiyyət təsnifində mal və mənfəətin xaricində qalan qisimi ifadə etmək üçün də işlədilir. Yəni, insanlar malların əslinə, mənfəətinə və haqlarına sahib ola bilərlər. Hənəfilərin əksəriyyətinə görə, haqlar mal hesab edilmədiyi üçün satılmaz. İrtifaq haqları və mal ilə əlaqədar digər bəzi haqlar bu hökmün xaricindədir.

Bunların əlaqəli olduqları maldan müstəqil olaraq satılmaları caiz deyilsə də, o mallara tabe olaraq satılması caizdir. Bununla yanaşı, əlaqəli olduqları maldan müstəqil şəkildə mal qarşılığında, yaxud əvəzsiz olaraq tərk edilmələri də mümkündür. Yəni, bu haqların sahibi sahib olduğu haqqı hər hansı bir əvəz almadan tərk etsə, bu hərəkət hüquqi baxımdan etibarlı qəbul edilir. Digər məzhəblər isə mallarla əlaqəli olan bu haqları da mal qəbul edir və buna görə də onlara görə, haqların satılması caizdir.[22]

**Malın növləri**

Mal fərqli baxımlardan növlərə ayrıla bilər. Mal hüquqi baxımdan dəyərli olması və qorunmasına görə mütəqəvvim və qeyri-mütəqəvvim, mövqeyinə və olduğu yerdəki sabitliyinə görə daşınan və daşınmaz, parçalarının bir-birinə bənzəməsinə görə isə qiyəmi və misli şəklində hissələrə ayrılır. Bu hissələrə aid hökmlərin fərqli olması belə bir təsnifə səbəb olmuşdur.

**A. Mütəqəvvim mal və mütəqəvvim olmayan mal**

Mütəqəvvim “qiyməti olan” deməkdir. Fiqhdə mütəqəvvim mal deyiləndə, bir tərəfdən, tələf olduqda tələf edənin təzmin etməsini tələb edən bir qiymətə sahib mal nəzərdə tutulur. Belə bir mal hüquq sisteminin (fiqh ifadəsi ilə “şariin”) ona verdiyi himayə haqqından ötrü təzmin edilir. Malların böyük əksəriyyəti mütəqəvvim mal növündəndir.

Bir malın mütəqəvvim olması üçün həqiqətən əldə edilməsi və ondan mütləq faydalanmanın caiz olması lazımdır. Buradakı "həqiqətən əldə edilmə"dən məqsəd mübah malların əldə olunmasıdır. Buna görə, heç kimin mülkiyyətində olmayıb,

[22] Karaman Hayreddin, Mukayeseli İslam Hukuku, s. 432; Aydın Mehmet Akif və b, İslam hüququ, s. 145-149; əl-Ərəbi Məhəmməd Abdullah, əl-Mulkiyyətul-xassa və hududuha fil-İslam, s. 18-22.

hüquqi baxımdan ilk dəfə ələ keçirib əldə edəcək olanın mülkiyyətinə girəcək olan mallar mütəqəvvim deyil. Bunlara "mübah mal" deyilir. Bir malın mütəqəvvim olmasının ikinci şərti normal və sərbəst mühitdə ondan istifadə edilməsinin caizliyidir. Yuxarıdakı cümlədə keçən "mütləq faydalanmanın caiz olması"nda məqsəd budur.

**B. Daşınan (mənqul) mal və daşınmaz (qeyri-mənqul) mal**

Yerindən daşınması və nəql edilməsi mümkün olan mallar daşınan, yerindən daşınması və nəql edilməsi mümkün olmayan mallar da daşınmazdır. Bəzi məzhəblərə görə, bir malın daşınan sayılması üçün daşına bilməsi kifayətdir. Daşıma əsnasında şəkil və formasının dəyişməsi buna təsir etməz. Bu mənada, daşınmaz mal yalnız ərazilərdir. Ərazi xaricindəki bütün mallar daşınandır.

**C. Misli mal və qiyəmi mal**

Misli mal aralarında əhəmiyyətli bir fərq olmadan bənzəri satışda olan maldır. Qiyəmi mal da bazarda bənzəri heç olmayan, yaxud fərqli qiymətdə olan maldır. Qiyəmi malı misli olmayan malların müştərək adı da saya bilərik.

Misli "misl" (bənzər) sözünün mənsubiyyət formasıdır. İslam hüququnda, ümumiyyətlə, alış-verişdə ağırlıq və ya həcm ölçü vahidləri əsas götürülən mallar misli qəbul edilir. Say hesabı ilə satılan və saylar arasında əhəmiyyətli bir fərq olmayan mallar da bunlardandır. Fiqh kitablarında ağırlıq ölçü vahidi ilə satılan mallara "vəzni", həcm ölçü vahidi ilə satılan mallara "keyli", say hesabı ilə satılan və biri-digərindən çox fərqli olmayan mallara "ədədiyyi-mütəqarib" deyilir. Ağırlıq ölçü vahidi ilə alınıb-satılan qızıl, gümüş, dəmir kimi mallar vəzni, tənəkə, yaxud litr kimi həcmölçü vahidləri ilə alınıb-satılan mallar da keylidir. Buğda, arpa kimi taxıl məhsullarının

tarixdə həcm (keyl) vahidi ilə alınıb-satılması onların keyli sinfində qəbul edilməsinə səbəb olmuşdur. Bu vəziyyətin zamanla dəyişib, onların ağırlıq vahidləri ilə alınıb-satılmasının bu keyli xüsusiyyətlərini dəyişdirib-dəyişdirməyəcəyi mübahisəli bir mövzudur. Yumurta kimi say hesabı ilə alınıb-satılan mallar da ədədiyyi-mütəqarib sinfindəndir. Uzunluq ölçü vahidi ilə alınıb-satılan toxuma məhsulları bugünkü kimi sənaye məhsulu olmadıqlarına görə, qiymətləri fərqli olduğu üçün köhnə kitablarımızda misli mal sayılmamışdır. İndiki vaxtda onların bu xüsusiyyətlərindəki dəyişməni nəzərə almaq lazımdır.[23]

**Ç. Mülkiyyətin növləri**

Mülkiyyət müxtəlif cəhətlərdən təsnif oluna bilər – sahibi əsas götürülərək, mülkiyyətin xüsusiliyi və s. Mövzu baxımından mülkiyyət eyn, mənfəət və deyn mülkiyyəti olaraq üç yerə ayrılır. Eyn mülkiyyəti əşyanın əslinə sahib olmasını bildirir. Mənfəət mülkiyyəti bir əşyadan istifadə haqqının bir şəxsə aid olduğunu ifadə edir. Deyn mülkiyyəti isə bir şəxsin başqasında olan alacağının adıdır.

**D. Mülkiyyətin əldə edilməsi**

Kiminsə mülkiyyətində olmayan mübah malları əldə etməyə İslam hüququnda "ihraz" deyilir. İhraz mülkiyyəti meydana gətirən bir səbəbdir. Mövcud olmayan bir mülkiyyət bununla yaranır. İhraz yalnız mübah mallara aid olub, başqasının mülkiyyətində olan daşınan, yaxud daşınmaz mallar üzərində təsirli olmaz.

Mülkiyyətin əldə edilməsi ilə bağlı ən mühüm məsələlərdən biri mədən mülkiyyətinin ihrazla qazanılıb-qazanılmayacağı, qazanılacaqsa, hansı əsaslara görə olacağı mövzusudur. Buradakı "mədən" sözü yer altındakı neft, qaz, qızıl kimi bütün

---

[23] Karaman, Mukayeseli İslam hukuku, s. 431-436.

mütəqəvvim malları əhatə edir. Torpaqda basdırılmış vəziyyətdə olan, qızıl, gümüş, mis kimi qiymətli maddələrdən hazırlanmış olan əşyalara isə "xəzinə" adı verilir.

Mədən mülkiyyətinin ihraz ilə qazanılmasının mümkün olmadığını iddia edən fəqihlərə görə, mədənlər bütün müsəlmanların ortaq mülküdür və onlarla bağlı qərar vermə səlahiyyəti dövlətə aiddir. Mədəni mülkiyyət baxımından olduğu əraziyə tabe hesab edən fəqihlərə görə isə, mülkiyyət altında olmayan mübah ərazidəki mədən o əraziyə tabe olaraq mübah mal sayılır və bərk də olsa, maye də olsa, onu tapanın olur.

Xəzinələr bir vaxtlar torpağa basdırılmış qızıl, gümüş və ya digər mədənlərdən hazırlanmış qiymətli pul, yaxud əşyalardır. İslam hüquqçuları bunları o torpaqlardakı müsəlman hakimiyyətindən əvvəlki dövrə aid olanlar və sonrakı dövrə aid olanlar adlandıraraq, iki qrupa ayırırlar. Birincilərə cahiliyyə dövrü, ikincilərə isə islami dövr xəzinəsi deyilir. Hansı dövrə aid olduğu təsbit edilə bilməyənlərin bu iki qrupdan birinə daxil olunacağı haqqında da fərqli görüşlər mövcuddur. Ümumiyyətlə, islami dövrə aid xəzinələr sahibi bilinməyən mal (lüqata) hökmündə qəbul edilir və ona lüqata ilə əlaqədar hökmlər tətbiq olunur. Cahiliyyə dövrünə aid xəzinələr isə bir cür qənimət sayılır və qənimət mallarında olduğu kimi beşdəbir (xüms) müsəlmanları təmsil mənasında dövlətə verilir. Cəfəri məzhəbinə görə, bunlara xüms ilə əlaqədar hökmlər tətbiq olunur. Qalan beşdədördün kimə aid olacağı mövzusuna gəldikdə bəzilərinə görə, xəzinənin tapıldığı ərazinin xüsusi mülk olub-olmaması, xüsusi mülk isə fəthdənsonrakı ilk sahibinin bilinib-bilinməməsi ilə əhəmiyyət qazanır. Bəzi alimlərə görə, bu, nəzərə alınmadan xəzinəni tapan onun beşdədördünə sahib olur.

## IV. İşçi və işəgötürənin hüquqları

Qurani-Kərimdə öz işində və ya başqalarının işində çalışmaq, yaxud axirət üçün yaxşı işlər görüb hazırlaşmaq mənasında çox sayda ayə var. Həzrət Peyğəmbərin hədislərində də bu barədə xeyli hökm tapmaq mümkündür. Məsələn: Qurani-Kərimdə iş və əməklə bağlı çoxsaylı ayələrdən bəzilərini qeyd edək:

“Onların meyvələrindən və öz əlləri ilə becərdiklərindən (yaxud becərmədiklərindən) yesinlər” (“Yasin”, 35). “İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar!” (“ən-Nəcm”, 39). “İman gətirib yaxşı əməllər edənlərə gəldikdə isə Biz (o cür) yaxşı işlər görənlərin mükafatını zay etmərik!” (“əl-Kəhf”, 30).

Həzrət Peyğəmbər də belə buyurmuşdur: “İşçinin haqqını alın təri qurumadan verin” (İbn Macə, Ruhun, 4), “İşçi çalışdıran kimsə işçisinə nə qədər ödəyəcəyini əvvəlcədən bildirsin” (Nəsai, Eyman vən-Nuzur, 44).

Ayə və hədislərdən də göründüyü kimi, İslam dinində iş və əməyə qiymət verilmişdir. Burada işin hər iki tərəfini təmsil edənin, yəni işçi və işəgötürənin məsuliyyəti unudulmamalıdır. Əgər işçinin alın təri qurumadan əməyinin qarşılığını almaq haqqı varsa, işəgötürənin də işçidən işin keyfiyyətini tələb etmə haqqı vardır. Buna görə də İslam alimləri iş müqaviləsinin şərtləri haqqında diqqətli tədqiqatlar aparmış, tərəflərin zərər çəkməməsi və anlaşılmazlığa düşməməsi üçün lazımi tədbirləri görmüşlər. Belə ki, hər hansı bir iş müqaviləsinin İslama uyğun olması üçün aşağıdakı şərtlərə cavab verməlidir:

*1. Görüləcək işin dəqiq təyin olunması.*

İş müqaviləsinin səhih olması üçün işçinin görəcəyi işin mahiyyəti əvvəlcədən tam və açıq olaraq təyin edilməlidir. Burada işin növünün və iş müddətinin birlikdə təyin olunması şərtdir. Beləliklə, işçi görəcəyi işi və qazancını, işəgötürən də məqsədinin hansı formada meydana çıxacağını öyrənmiş olacaq.

Bununla birlikdə bəzi alimlər işin müddət və miqdarının eyni anda təyin olunmasına etiraz etmişlər. Belə ki, ürfə görə, bir çox işin nə qədər müddətə görülə biləcəyi müəyyənləşdirilə bilsə də, bir çox hallarda bunu əvvəlcədən təyin etmək mümkün olmaya bilər. Belə olduğu halda, sadəcə, iş müddətinin müqaviləyə daxil edilməsi yetərlidir. Digər qrup alimlərinə görə isə işin miqdar və müddətinin eyni anda təyin edilməsi səhihdir. Burada məqsəd işin bir an əvvəl bitirilməsidir.

*2. Ödənişin dəqiq təyin olunması.*

İş müqaviləsinin səhih olması üçün ödənişin də əvvəlcədən təyin edilməsi lazımdır. İslam hüquqçularının əksəriyyətinə görə, satış müqaviləsində tətbiq olunan hökmlər əməyin əvəzi olan işçi maaşlarında da tətbiq edilə bilər. Buna dair hədisdə belə buyurulur: "Kim bir işçini işlətsə, ona verəcəyi əvəzi bildirsin" (Nəsai, Eyman vən-Nəzair, 44).

Ödəniş nağd pul, ölçü, çəki və yaxud say ilə alınıb-satılan mallardan olsa, bunun cins, növü, miqdar və vəsfini təyin etmək lazımdır. Ödənişdə anlaşılmazlığa gətirib-çıxaracaq hər hansı qaranlıq nöqtə olmamalıdır, əks halda, müqavilə etibarsız olar.

*3. İşçi çalışdırmağın halal olduğunu göstərən dəlillər.*

Qurani-Kərimdə işçi çalışdırmaqla bağlı bir çox hadisəyə toxunulur. Bunlardan biri Həzrət Musanın çobanlığıdır. Mövzu ilə əlaqədar ayədə belə buyurulur: ***"(Musa) Mədyən kənarındakı bir quyuya çatanda onun başında (heyvanlarını sulayan) bir dəstə adam və onlardan başqa (qoyunlarını özgə heyvanlara qarışmasın deyə) geri çəkən iki qadın (qız) görüb dedi: "Sizə nə olub (dərdiniz nədir)?". Onlar "Çobanlar (heyvanlarını) sulayıb getməmiş biz (qoyunlarımıza) su vermirik. Atamız da ixtiyar bir qocadır (buna görə qoyunları sulamağa biz gətiririk)", – deyə cavab verdilər. (Musa) onlar üçün (yaxınlıqdakı başqa bir quyudan su çəkib qoyunlarını) suladı, sonra da kölgəyə çəkilib dedi: "Ey Rəbbim! Mən Sənin mənə nazil edəcəyin xeyirə möhtacam!" (Musa yeddi gün idi ki, çöldəki***

***otlardan başqa yeməyə bir şey tapmırdı. Buna görə də Allahdan yemək üçün bir ruzi dilədi). Sonra (o iki qadından, qızdan) biri utana-utana (Musanın) yanına gəlib dedi: "Atam qoyunlarımızı sulamağının haqqını verməkdən ötrü səni çağırır!" (Musa gördüyü işin müqabilində heç bir muzd, mükafat almamaq üçün ürəyində and içdi). (Musa qocanın) yanına gəldikdə başına gələnləri (Fironla olan əhvalatı) ona söylədi. O kişi (Şüeyb Peyğəmbər) dedi: "Qorxma, artıq zalım tayfanın əlindən qurtarmısan!". (O iki qızın) biri dedi: "Atacan! Onu muzdla (çoban) tut, çünki bu güclü, etibarlı adam (indiyə qədər) muzdla tutduqlarının ən yaxşısıdır!". (Şüeyb) dedi: "Səkkiz il mənə xidmət etmək (qoyunlarımı otarmaq) şərti ilə qızlarımın birini sənə ərə verərəm. Əgər sən (həmin müddəti) tamamlayıb on ilə çatdırsan, bu, artıq sənin tərəfindən (olan bir lütfdür). Mən (on il müddətinə şərt kəsməklə) sənə əziyyət vermək istəmirəm. İnşallah, mənim saleh (əhdə vəfa edən) kəslərdən olduğumu görəcəksən!". (Musa) dedi: "Bu (dediyin) mənimlə sənin aranda (olan bir təahhüddür, onu pozmaq olmaz). Bu iki müddətdən hansını yerinə yetirməkdən mənə qarşı heç bir zor ola bilməz (İstəsəm səkkiz, istəsəm on il xidmət edərəm. Bundan artıq işləməyimi tələb etməyə haqqın yoxdur). Allah da dediyimizə şahiddir (vəkildir)!". Musa (onillik xidmət) müddətini başa vurub ailəsi ilə birlikdə (Misirə tərəf) yola çıxdığı zaman" ("Qəsəs", 23-29).***

Başqa bir ayədə isə ***"İnsan üçün ancaq əməyinin qarşılığı vardır"*** ("ən-Nəcm", 39) buyurulur. Bu ayələr çalışıb əmək sərf edərək, qazanc əldə etməyin halal olduğunu göstərir.

Həzrət Peyğəmbərin işçi çalışdırma və əmək mövzusunda müxtəlif hədisləri var. O (s.a.s.), keçmiş qövmlərdən bir hadisəni nəql etdiyi hədisində belə buyurur:

***"Bir gün üç nəfər səyahət edərkən yolda fırtınaya tutulub bir mağaraya sığınırlar. Fırtınanın gətirdiyi böyük bir qaya parçası mağaranın ağzını bağladığı üçün mağarada qapalı***

***qalarlar. Öz aralarında danışaraq, "Allah qatında ən qiymətli olduğunu düşündükləri əməllərini dilə gətirərək, qurtuluş üçün dua etməyə" qərar verirlər. İlk ikisinin duası ilə qaya parçası bir az aralanır. İşəgötürən olan üçüncüsü belə dua edər: "Ey Rəbbim, mən bəzi işçilər işlətmişdim. Qarşılığını ödədim. Aralarından biri ödənişini almadan çıxıb getmişdi. Onun haqqını ticarətdə işlədib artırdım. Bir çox malı oldu. Bir müddət sonra yanıma gələrək ödənişini istədi. Mən də "Gördüyün bu dəvə, mal, qoyun və xidmətçilər sənin ödənişindən meydana gəldi", – dedim. "Məni lağa qoyma", – deyə cavab verdi. "Səni lağa qoymuram", – dedim. Bunun üzərinə bütün malını alıb getdi, heç bir şey buraxmadı. "Ey Rəbbim, bunu sırf Sənin razılığını qazana bilmək üçün etmişəmsə, bizi bu mağaradan qurtar". Bu duanın ardından mağaranın ağzını bağlayan daş yuvarlandı və oradan xilas oldular"*** (Buxari, Buyu, 98; İcarə, 12). Bu hədis işçi haqqının Allah qatında nə qədər dəyərli olduğunu göstərir.

Başqa bir hədisində Rəsulullah ***"İşçiyə ödənişini təri qurumadan əvvəl verin",*** – buyurur (Heysəmi, Məcməuz-Zəvaid, IV,97). Burada işçinin əməyi qarşılığında əldə etdiyi haqqın nə qədər dəyərli olduğu və bu haqqın haqq sahibinə gecikdirilmədən verilməsinin lazım olduğu bildirilir. Bu haqqın halal və xeyirli olduğunu göstərən başqa bir hədisdə ***"Heç kim əl əməyi ilə qazandığından daha xeyirli ruzi yeməmişdir",*** - buyurulur. Bu, ruzilərin Allah qatında ən dəyərli olanının əl əməyi və çalışma ilə əldə edilən olduğunu göstərir.

# V. QƏRZİ-HƏSƏN

“Qərz” lüğətdə “kəsmə, parçalama” mənasına gəlir. Termin olaraq faydalanmaq və sonra da əvəzini geri ödəmək üzrə birinə müəyyən miqdar mal verməkdir. Fiqh terminologiyasında verilən bu mala da “qərz” deyilir. Bir şəxsin pul və ya misli bir malı daha sonra mislini almaq şərti ilə bir şəxsə verməsinə “qərz”, yaxud “iqraz” deyilir. Qərzi-həsən isə faizsiz olaraq verilən borc deməkdir. Hər hansı bir fayda təmin edən hər cür qərz faizdir. Qurani Kərimdə qərzi-həsən, yəni faizsiz kredit vermə ilə əlaqədar ayələr var. Bu ayələrdən bir neçəsinin məalını qeyd edək:

“Allah yolunda (könül xoşluğu ilə halal maldan) yaxşı borc verən kimdir ki, (Allah da) onun mükafatını (əvəzini) qat-qat artırsın?! Allah (kimisini) sıxıntıya salar (ruzisini azaldar), (kimisinin də) ürəyini açar (bol ruzi verər). Siz (dünyada gördüyünüz işlərin əvəzini almaq üçün) Onun hüzuruna qaytarılacaqsınız" (“əl-Bəqərə”, 2/245), Allah İsrail oğullarından əhd almışdı. Biz onlardan (özlərinə) on iki nəzarətçi (vəkil) göndərmişdik. Allah buyurmuşdu: ***“Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, peyğəmbərlərimə iman gətirib onlara kömək etsəniz, Allaha (Allah yolunda) gözəl bir borc (sədəqə) versəniz, əlbəttə, günahlarınızın üstünü örtər və sizi (ağacları) altından çaylar axan cənnətlərə daxil edərəm. Bundan sonra sizdən hər kəs (əhdi pozaraq) küfr edərsə, o artıq doğru yoldan azmış olar!” (“əl-Maidə”, 5/12), "Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin, O da onun əvəzini qat-qat (birə on, yaxud birə yeddi yüz) artırsın?! Onu həm də çox qiymətli bir mükafat (Cənnət) gözləyir!” (“əl-Hədid”, 57/11), "Şübhəsiz ki, sədəqə verən kişi və qadınlar, Allah yolunda gözəl (könül xoşluğu ilə) borc verənlər üçün (əməllərinin savabı) qat-qat artırılacaqdır. Onları həm də cox qiymətli bir mükafat (Cənnət) gözləyir!” (“əl-Hədid”, 57/18), "Əgər Allaha (Allah yolunda) gözəl (könül xoşluğu ilə) bir borc versəniz, (Allah) sizin üçün onun əvəzini***

***qat-qat artırar və sizi bağışlayar. Allah qədirbiləndir, həlimdir!" ("ət-Təğabun", 64/17), "(Ya Peyğəmbər!) Həqiqətən, Rəbbin bilir ki, sən (yatağından) qalxıb bəzən gecənin, təqribən, üçdə-ikisini, bəzən yarısını, bəzən də üçdəbirini namaz qılırsan. Səninlə birlikdə olan bir zümrə (yaxın səhabən) də belədir. Gecəni də, gündüzü də ölçüb-biçən ancaq Allahdır. O sizin bunu (gecə vaxtlarını və saatlarını) ölçüb saya bilməyəcəyinizi (yaxud bütün gecəni oyaq qalıb ibadət edə bilməyəcəyinizi) bildiyi üçün sizi əfv etdi (sizə rüsxət verdi). Qurandan sizə müyəssər olanı oxuyun. (Allah) bilir ki, içərinizdə xəstələr də olacaq, bəziləri Allahın lütfündən ruzi axtarmaq üçün (ticarət məqsədilə) yer üzünü gəzib-dolaşacaq, digərləri isə Allah yolunda vuruşacaqdır (cihada gedəcəkdir). Elə isə ondan (Qurandan) sizə müyəssər olanı oxuyun, namaz qılın, zəkat verin və Allah yolunda gözəl (könül xoşluğu ilə) bir borc verin. Özünüz üçün öncə (dünyada) nə yaxşı iş görsəniz, Allah dərgahında onun daha xeyirli və daha böyük mükafatı olduğunu görəcəksiniz. Allahdan bağışlanmağınızı diləyin. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!" ("əl-Müzzəmmil", 73/20).***

Qərzi-həsəndən bəhs edən, yəni faizsiz və qarşılıqsız borc vermədən danışan bu ayələr ictimai problemlərə istiqamətlənmiş ayələrdir. Borc əsas etibarilə cəmiyyətin problemidir. Beləliklə, ilk baxışda qərzi-həsənlə maddi çətinliyi aradan qaldırılan şəxs olduğu halda, cəmiyyətin də bir nöqsanı qalxmış olur.

Qərzlə bağlı ayələrlə yanaşı, bu mövzuda bir çox hədis də var. Burada nümunə olaraq bir neçəsinə yer veriləcək.

Həzrət Peyğəmbər buyurur ki, "İsra gecəsi Cənnətin qapısında "Sədəqə verən kimsə on mislini, borc verən isə on səkkiz mislini alacaq" yazısını gördüm. Qərzin sədəqədən nə üçün daha üstün olduğunu Cəbraildan soruşdum. "Sədəqə istəyən əlində olduğu halda istəyər, borc istəyən isə bir ehtiyacından ötrü istəyər", – deyə cavab verdi". Başqa bir hədisdə belə buyurulur: ***"Bir müsəlman bir müsəlmana iki dəfə borc versə, bu bir sədəqə yerinə keçər"*** (İbn Macə, Sədəqat, 9).

# II FƏSİL
# MALİ İBADƏTLƏR

## I. Zəkat

Bir termin kimi "zəkat" "bəzi mallardan verilməsi lazım olan müəyyən bir miqdarın, Quran və sünnədə ifadə olunan haqq sahiblərinə verilməsi" mənasında işlədilir. Quran və sünnədə zəkat mənasında, yaxud ondan daha əhatəli olaraq istifadə edilən bir söz də "sədəqə"dir. "Sədəqə" "s-d-q" kök hərflərindən törənmişdir. Bu kökdə "səhihlik, dostluq" mənaları var. Sədəqə müsəlmanın, sanki doğruluğunu, inancındakı və sözündəki səmimiyyətini, inancı və söylədikləri ilə nə qədər dost olduğunu ortaya qoyur. Sədəqə verən və ya sədəqə sayılan işlər görən müsəlman inancının tələbi olaraq malından fədakarlıq etmiş, onu ehtiyac sahibləri ilə paylaşmış olur. Fiqhdə sədəqə ehtiyac sahiblərinə, yaxud ehtiyac olan yerlərə Allahın razılığı üçün edilən hər cür kömək mənasında işlədilir. Yalnız bir nəsnəni vermə ilə də məhdud deyil. İnsanın ailəsinin nəfəqəsini təmin etməsi, ədalətli qərar verməsi, yaxşılıq etməsi, ehtiyacı olan birinə kömək göstərməsi, yolda maneə yaradan nəyisə aradan götürməsi, miniyinə, yaxud avtomobilinə minməkdə və əşyasını yükləməkdə çətinlik çəkənə əl yetirməsi, gözəl söz söyləməsi, namaz üçün məscidə getməsi, birinə yol göstərməsi kimi insanlara faydalı və Allahın razılığına uyğun hər davranış sədəqədir. İnsan, heyvan, yaxud hər hansı bir canlının istifadəsi üçün ağac və ya bitki əkən kimsə sədəqə savabı alar. Bu mənada, sədəqə məcburi və könüllü olaraq iki hissəyə ayrılır və onun məcburi olanına "zəkat" deyilir. Digər tərəfdən, sədəqə-

nin yalnız könüllü kömək mənasında istifadə edildiyi də olur və xalq arasında bu istifadəsi daha məşhurdur.

Zəkatla yaxın əlaqəli bir söz olan infaqdan da qısaca bəhs etməkdə fayda var. İnfaq da zəkatdan daha əhatəli bir anlayışdır. Qısaca, yaxşı niyyətlə və Allah razılığı üçün xərcləmə olaraq xarakterizə edə biləcəyimiz infaq Quranda bəyənilir. Allah yaxşı müsəlmanların xüsusiyyətləri arasında infaq mövzusuna da yer verir[24]. Allah yolunda infaq edənlərə böyük mükafatlar vəd edər[25], müsəlmanların infaq etməsini istər[26].

Quran və sünnədə sıx şəkildə bir köməkləşmə mesajı verilir, müsəlmanların bir-birlərinə dəstək olmaları istənilir, ehtiyac halında olan hər canlıya kömək etmək təqdir olunur. Zəkat bu köməkləşmə müddətində məcburi və müəyyən bir nizama bağlanmış qismi təmsil edir. Zəkatın hansı mallardan, nə qədər və haralara veriləcəyi fiqh kitablarında təfsilatlı şəkildə izah olunur.

Zəkat yalnız İslam dininə məxsus öhdəçilik deyil. Daha əvvəlki səmavi dinlərdə də bu cür öhdəçiliklər vardı[27]. Əsasən, eyni qaynaqdan bəslənən dinlərin cəmiyyətin möhtac təbəqələri ilə maraqlanması və onlara kömək əlini uzatması qədər təbii heç nə ola bilməz. Yenə də bizim dinimizdəki “zəkat” anlayışı ilə daha əvvəlkilərin zəkat anlayışı arasında bəzi fərqlər var[28].

Ümumi qəbula görə, zəkat hicrətin ikinci ilində fərz qılınmışdır. Hicrətdən əvvəl enən ayələrdə zəkatdan bəhs edildiyi də məlumdur. Bu vəziyyət zəkatın təməllərinin Məkkə dövrün-

---

[24] “əl-Bəqərə”, 2/3; “Ali-İmran”, 3/17, 134; “əl-Ənfal”, 8/3; “əl-Həcc”, 22/35; “əl-Qəsəs”, 28/54.

[25] “əl-Bəqərə”, 2/262, 274.

[26] “əl-Bəqərə”, 2/195 254, 267; “əl-Hədid”, 57/7; “ət-Təlaq”, 65/7.

[27] Baxın: “əl-Bəqərə”, 2/43, 83; “əl-Maidə”, 5/12; “Məryəm”, 19/31, 54-55; “əl-Ənbiya”, 21/73; “əl-Beyyinə”, 98/5.

[28] Bu fərqlər üçün baxın: Yusuf əl-Qərədavi, Fiqhuz-zəkat, Beyrut, 1389/1969, I, 86-88.

də atıldığı, amma onun Mədinə dövründə təşkilatlandığı və dövlət dəstəyinə əsaslanan məcburi bir ödəmə formasını orada aldığı şəklində izah olunur.

Həzrət Peyğəmbər zamanında zəkat şəxsən onun vəzifələndirdiyi məmurlar tərəfindən toplanır, zəkat verilməsi lazım olan yerlərə sərf edilir, ya da Həzrət Peyğəmbərə gətirilirdi. Bu vəziyyət Həzrət Əbu Bəkr və Həzrət Ömər zamanında da davam etmişdir. Həzrət Osmanın zamanında zəkat məmurlarının malqaçırma ehtimalına qarşı insanların bir şəkildə şəxsi həyatlarına və ya gizli qalmasını istədikləri mal müdaxilə olaraq qiymətləndirilə biləcək davranışları şikayətə səbəb oldu. Bundan sonra varlıqlarına Həzrət Osman zəkat alınacaq malları açıq olaraq bilinən və görülən mallar ("əmvali-zahirə") və belə olmayan mallar ("əmvali-batinə") adlandıraraq iki qismə ayırdı. Birincilərin əvvəldən olduğu kimi zəkat məmurları tərəfindən toplanmasını, ikincilərin isə sahibləri tərəfindən verilməsini əmr etdi. Beləcə, "əmvali-batinə" deyilən qızıl, gümüş kimi mal və pulların zəkatı sahibinin özünə həvalə edildi.

**A. Zəkatın məqsədi və əhəmiyyəti**

Zəkat müsəlmanlar arasındakı köməkləşmə və həmrəyliyin maddi ölçüsünün əhəmiyyətli bir qismini meydana gətirir. Məlumdur ki, Peyğəmbərimiz (s.a.s.) onu İslamın beş əsası arasında saymış[29], zəkatın bu xüsusiyyətini İmam Cəfər Sadiq də dilə gətirmişdir[30].

Sevimli Peyğəmbərimizin sağlam və ahəngli olaraq varlığını davam etdirməsi üçün bir insan bədənindəki orqanlar kimi aralarında ünsiyyət və əlaqə olmasını istədiyi İslam cəmiyyətində zəkat varlı təbəqədən yoxsul təbəqəyə mal, bununla birgə hörmət və sevgi, şəfqət və mərhəmət hissini təmin edən bir körpüdür.

---

[29] Buxari, "İman", 1; Müslim, "İman", 19.
[30] İbn Babəveyh, Mən la yəhduruhul-fəqih, II, 44.

İstər qadın olsun, istərsə də kişi, bütün müsəlmanları bir-birlərinin vəlisi olaraq xarakterizə edən Uca Allah onların gözəçarpan xüsusiyyətləri arasında zəkat verməyi də əhəmiyyətli sayır.

***“Mömin kişilər və mömin qadınlar bir-birlərinin vəlisidirlər. Onlar yaxşılığı əmr edərlər, pisliyi qadağan edərlər, namazı qılarlar, zəkatı verərlər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah məhz onlara mərhəmət edəcək. Allah güclüdür, hikmət sahibidir”*[31]**.

Onun ifadəsi ilə zəkat/sədəqə varlı insanların kasıba borcudur.[32] Allah Həzrət Peyğəmbərdən bu borcun yerinə yetirilməsində vasitəçilik etməsini istər və bu yerinəyetirmə ilə eyni zamanda, zəkatını ödəyən müsəlmanın təmizlənmiş olacağını ifadə edər[33].

Allah zəkatdan daha ümumi bir anlayış olan “infaq”dan bəhs edərkən, başda ana-ata olmaqla, qohuma, yetimlərə, yoxsullara və yolda qalmışlara infaq edilməsini istəyir[34]. Xeyir olaraq xarakterizə edilə bilən hər cür infaqın sahibinə mükafat olaraq dönəcəyinə, bu mövzuda kimsəyə haqsızlıq edilməyəcəyinə[35], verilən malın yerinin doldurulacağına zəmanət verir[36]. Allah yolunda edilən infaqı təmsili bir izahatla torpağa atılan bir dənəyə bənzədər. Onun bu bənzətməsinə görə, belə bir infaq torpağa atılan və hər birində yüz dənə olan yeddi başaq verən bir dənə kimidir. Yəni, yeddi yüz qat savaba səbəb olar və Allah dilədiyinə qat-qat verər.

***“Mallarını Allah yolunda infaq edənlər(in o infaqı), hər birində yüz dənə olan yeddi başaq verən bir dənə kimidir.***

[31] “ət-Tövbə”, 9/71.
[32] “əz-Zariyat”, 51/19; “əl-Məaric”, 70/24-25.
[33] “ət-Tövbə”, 9/103.
[34] “əl-Bəqərə”, 2/215.
[35] “əl-Bəqərə”, 2/272.
[36] “Səba”, 34/39.

***Allah dilədiyinə qat-qat verər. Allah hər şeyi əhatə edən, hər şeyi biləndir”*[37].**

İnfaq edərkən malın keyfiyyətsiz və işə yaramaz vəziyyətdə olanları deyil, yaxşıları verilməlidir. Yaxşı müsəlman olmaq istəyənlər bəyəndikləri və sevdikləri malları verməlidir[38]. Qazancın yaxşısından infaq edilməsini əmr edən Allah heç kimin infaq əsnasında göz görə-görə almaq istəməyəcəyi mallara yönəlməməsini, onlardan verməməsini istər[39]. Kim nə versə, onun qat-qat çoxu savab olaraq sahibinə dönəcək.

İnfaq əsnasında diqqət yetiriləcək bir xüsus da infaqın ona layiq adam və təşkilatlara edilməsidir. Quranda, xüsusilə səsini çıxarmayan, iffət və həyasından ötrü kimsədən bir şey istəyə bilməyən, vəziyyətindən xəbərdar olmadıqları üçün insanların, ümumiyyətlə, möhtac deyil, zənn etdikləri kasıblara diqqət çəkilər[40]. Sədəqələrin başa qaxılmaması, ondan istifadə edən adamın minnət altında buraxılmaması istənilər və bu kimi davranışların sədəqəni batil edəcəyi vurğulanır[41]. Daha əvvəlki dinlərə mənsub alimlərin və din adamlarının insanların mallarını haqsız şəkildə yediklərinə, onları Allahın yolundan çıxardıqlarına diqqət çəkildikdən sonra, sərvəti (qızıl və gümüş) Allah yolunda infaq etməyib yığanların kədərli bir əzaba uğrayacaqları, o malların cəhənnəmdə qızdırılıb onların bədənlərinə basdırılacağı və özlərinə “Budur, özünüz üçün saxladıqlarınız! Tez olun, özünüz üçün saxladığınız şeyləri dadın! Dadın saxladığınız şeyləri!” – deyiləcəyi ifadə olunur[42].

İnfaq, sədəqə, köməkləşmə kimi ümumi ifadələr yanında zəkat mövzusu da Quranda çox yer tutur. Bir çox ayədə Allah

---

[37] “əl-Bəqərə”, 2/261.
[38] “Ali-İmran”, 3/92.
[39] “əl-Bəqərə”, 2/267.
[40] “əl-Bəqərə”, 2/273.
[41] “əl-Bəqərə”, 2/263-264.
[42] “ət-Tövbə”, 9/34-35.

"Namaz qılın" əmri ilə birlikdə, eyni zamanda, "Zəkat verin", – buyurur. Müsəlmanların xüsusiyyətləri arasında zəkat verməyi də zəruri sayır. "Tövbə" surəsində zəkatların kimlərə veriləcəyini, yaxud toplanan zəkatların hansı yerlərə sərf ediləcəyini səkkiz maddə halında sıralayır[43]. Zəkat şərtlərini daşıyan hər kəsin vermək məcburiyyətində olduğu və sərf ediləcəyi yerlər də açıq olaraq göstərilmiş bir sədəqədir. Zəkat olaraq veriləcək mallar, ancaq bu yerlərə xərclənə bilər. Beləcə, cəmiyyətin dincliyinə və ictimai barışa məcburi bir iştirak təmin edilmiş olar. Zəkat, ümumiyyətlə, cəmiyyətin varlı təbəqələrindən kasıb və möhtac vəziyyətdə olanlara mal verməkdir. Həzrət Peyğəmbər Yəmənə qazi olaraq göndərdiyi Muaz ibn Cəbəldən orada İslama dəvət edəcəyi kəslərə bu hökmü əvvəlcədən təbliğ etməsini istər[44].

Zəkat daha əvvəl də ifadə edildiyi kimi, uzun müddət dövlət tərəfindən şəxsən toplanan və əlaqədar yerlərə xərclənən bir sədəqə növü olduğu üçün insanların yalnız vicdanlarına həvalə edilməmişdir. Buna baxmayaraq, ayə və hədislərdə bir tərəfdən, yuxarıda toxunduğumuz təşviq ifadələri istifadə edilərkən, digər tərəfdən, zəkatı verilməyən malların axirətdə sahibi üçün nə qədər kədərli hadisələrə səbəb olacağı bildirilərək, vicdanlı olmaları tövsiyə edilir. Əbu Hüreyrə tərəfindən rəvayət edilən xəbərdarlıq mahiyyətində hədis belədir:

Rəsulullah (s.a.s.) buyurur: "Allah kimə mal vermiş və o da zəkatını ödəməmişsə, qiyamət günü o (mal) ona ikixallı, çox zəhərli azğın bir ilan halında gətirilər. Qiyamət günü onun boynuna dolandırılar. Sonra o, onun çənəsini iki tərəfdən tutar və ***"Mən sənin malınam! Mən sənin xəzinənəm", – deyə buyurdu, sonra "Allahın lütfündən özlərinə verdiklərində xəsislik edənlər onu özləri üçün yaxşı sanmasınlar. Tam əksinə, o,***

[43] "ət-Tövbə", 9/60.

[44] Buxari, "Zəkat", 1, 63; Müslim; "İman", 29, 31.

***onlar üçün pisdir. Onların xəsislik etdiyi şeylər qiyamət günü boyunlarına dolanacaq. Göylərin və yerin mirası Allaha aiddir. Allah etdiklərinizdən xəbərdardır”***[45], – ayəsini oxudu[46].

**B. Zəkatın fərz olmasının dəlilləri**

Quran və sünnədə zəkatın fərz olması haqqında xeyli dəlil var. Bir çox ayədə zəkat verilməsi əmr edilir. Onlardan bəziləri bunlardır:

وَأَقِيمُوا الصَّلاةَ وَآتُوا الزَّكَاةَ وَمَا تُقَدِّمُوا لأنْiسِكُمْ مِنْ خَيْرٍ تَجِدُوهُ عِنْدَ اللَّهِ

***“Namaz qılın, zəkat verin. Özünüz üçün xeyir olaraq nə versəniz, onu Allahın yanında taparsınız”***[47]**.**

فأَقِيمُوا الصَّلاةَ وَآتُوا الزَّكَاةَ وَاعْتَصِمُوا بِاللَّهِ

***“Namaz qılın, zəkat verin və Allaha sarılın”***[48]**.**

وَأَقِيمُوا الصَّلاةَ وَآتُوا الزَّكَاةَ وَأَطِيعُوا الرَّسُولَ

***“Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin”***[49]**.**

وَأَقِيمُوا الصَّلاةَ وَآتُوا الزَّكَاةَ وَأَقْرِضُوا اللَّهَ قَرْضًا حَسَنًا وَمَا تُقَدِّمُوا لأَنْفسِكُمْ مِنْ خَيْرٍ تَجِدُوهُ عِنْدَ اللَّهِ هُوَ خَيْرًا وَأَعْظَمَ أَجْرًا

***“Namaz qılın, zəkat verin və Allaha gözəl borc verin. Özünüz üçün xeyir olaraq nə versəniz, Allahın yanında onun mükafatını daha yaxşı və daha böyük olaraq taparsınız”***[50]**.**

وَهُوَ الَّذِي أَنْشَأَ جَنَّاتٍ مَعْرُوشَاتٍ وَغَيْرَ مَعْرُوشَاتٍ وَالنَّخْلَ وَالزَّرْعَ مُخْتَلِفا أُكُلُهُ وَالزَّيْتُونَ وَالرُّمَّانَ مُتَشَابِهًا وَغَيْرَ مُتَشَابِهٍ كُلُوا مِنْ ثَمَرِهِ إِذَا أَثْمَرَ وَآتُوا حَقَّهُ يَوْمَ حَصَادِهِ وَلا تُسْرِفوا إِنَّهُ لا يُحِبُّ الْمُسْرِفينَ

---

[45] “Ali-İmran”, 3/180.

[46] Buxari, “Zəkat”, 3; “Təfsir”, 3, 9; “Hiyəl”, 3. Baxın: Müslim “Zəkat”, 24-28; Küleyni, el-Füru, III, 502-506; İbn Babəveyh, Mən la yəhduruhul-fəqih, II, 5-6.

[47] “əl-Bəqərə”, 2/110.

[48] “əl-Həcc”, 22/78.

[49] “ən-Nur”, 24/56.

[50] “əl-Müzzəmmil”, 73/20.

***"Yer üzünə sərilmiş və sərilməmiş bağ-bağatı (bostanları və bağları), dadları müxtəlif xurmanı və taxılı, bir-birinə həm bənzəyən, həm də bənzəməyən zeytunu və narı yaradan Odur. (Onların hər biri) bar verdiyi zaman barından yeyin, yığım günü haqqını (zəkatını, sədəqəsini) ödəyin, lakin israf etməyin. (Allah) israf edənləri sevməz!"[51].***

Allah "Tövbə" surəsində möminlərə zərər vermək üçün fürsət axtaran, onlara qarşı təcavüzkar və düşməncəsinə davranan müşrikləri nəzərdə tutaraq, ***"Onlar əgər tövbə etsələr və namaz qılsalar, zəkat versələr, sizin din qardaşlarınızdır"***[52] buyurur ki, zəkat burada namazla birlikdə, sanki imanın şərti kimi zikr edilmişdir.

***"Onlara söylə, Allah mallarında zəkatı fərz etdi; zənginlərindən alınar, kasıblarına verilər"[53].***

İslamın beş əsas üzərində qurulduğuna dair hədis də zəkatın fərz olduğunu göstərir. Vida həccində Həzrət Peyğəmbər namaz qılınmasını və oruc tutulmasını istəyərkən, eyni zamanda, "Mallarınızın zəkatını ödəyin", – buyurmuşdur[54].

***"Sədəqə zənginə halal olmaz"[55].***

Zəkatın dini bir öhdəçilik (fərz) olduğunu ifadə edən ayə və hədislər bunlarla məhdud deyildir. Eyni mənaları ehtiva edən çox sayda (30-a qədər) ayə var[56]. Bunlardan iyirmi yeddisi namazla birlikdə xatırlanır. Beləcə, dinin Allaha qarşı vəzifə olan ibadət ölçüsü ilə insanlara və Onun dininin davamlılığını təmin etməyə istiqamətli vəzifə olan ictimai məzmunlu maliyyə ibadəti ölçüsünün bir-birlərindən ayrı şeylər olmadığına diqqət çəkilir.

---

[51] "əl-Ənam", 6/141.
[52] "ət-Tövbə", 9/11.
[53] Buxari, "Zəkat", 1.
[54] Tirmizi, 434/616.
[55] Əbu Davud, "Zəkat", 25.
[56] Baxın: əl-Mucəmul-müfəhrəs, "Zəkat" maddəsi, s. 331.

İslam alimləri namaz kimi zəkatı da inkar edən dindən çıxmış sayılacaq dərəcədə əhəmiyyətli fərzlər arasında sayarlar[57]. İlk xəlifə Həzrət Əbu Bəkr "Namaz qılarıq, amma zəkat vermərik", – deyənlərə qarşı döyüşməkdən çəkinməmişdir[58]. İmam Məhəmməd Baqir də "Allah zəkatı namazla birlikdə zikr etdi. Namaz qılın və zəkat verin", – buyurdu. Kim namaz qılar, zəkat verməzsə, sanki namazı qılmamış kimidir", – deyir[59].

**C. Zəkatın fərz olmasının şərtləri**

Zəkat mali bir ibadətdir. Onun bu iki ölçüsü hər kəs tərəfindən qəbul edilməklə yanaşı, maliyyə ölçüsünün, yoxsa ibadət ölçüsünün daha təsirli olduğu müzakirə edilir. Zəkat mükəlləfi olmaq üçün bir sıra şərtlərin mövcudluğu lazımdır. Mükəlləfin özünü maraqlandıran bu şərtlərlə birgə sahib olduğu mal varlığına bağlı olan, bu malların cins və miqdarı ilə əlaqədar şərtlər də var. İki qrup halında olan bu şərtləri ayrı-ayrı araşdıracağıq.

*a. Mükəlləflə əlaqədar şərtlər*

Bir insanın islami ibadətlə məsulluğu üçün əvvəlcə müsəlman olması lazımdır. Müsəlman sayılmayanlardan ibadətin bir növü olan zəkat alınmaz. Tarixdə də İslam ölkəsində yaşayan müsəlman olmayanlara bəzi maliyyə məsuliyyətləri müəyyən edilsə də, bunlara "zəkat" və ya "öşür" deyilməmiş, fərqli adlar verilmişdir. Buna görə, zəkat mükəlləfi və ya zəkat öhdəliyi olmaq üçün müsəlmanlıq şərtdir[60]. Bu ümumi qəbula qarşı cəfəri məzhəbi müsəlman olmayanların da zəkat mükəlləfi olduqlarını, lakin müsəlman olmadıqları üçün edəcəkləri ödəmənin səhih olmayacağı fikrindədir[61].

---

[57] İbn Qüdamə, əl-Muğni, II, 435; Məğniyyə, Fiqhul-imam Cəfər əs-Sadiq, II, 59.
[58] Baxın: Buxari, "İtisam", 2; Müslim, "İman", 8.
[59] İbn Babəveyh, Mən la yəhduruhul-fəqih, II, 6.
[60] İbn Qüdamə, əl-Muğni, II, 493.
[61] Məğniyyə, Fiqhul-imam Cəfər əs-Sadiq, II, 62; Məğniyyə, əl-Məzahibul-xəmsə, s. 166.

Bədəni ibadətlərdə müsəlman olmaqla birgə ağıllı (ağıl qabiliyyəti yerində, dəli deyil) və yetkin olduğuna dair hər hansı bir əlamət ortaya çıxmış olmaq şərti də axtarılır. Bu iki şərtin maliyyə ibadəti olan zəkatda axtarılıb-axtarılmayacağı mövzusunda fərqli fikirlər mövcuddur. Zəkatın ibadət ölçüsünü önə çıxaran hənəfilərə və cəfərilərə[62] görə, bu iki şərti daşımayan, yəni dəli və ya uşaq mövqeyində olanlar zəkat mükəlləfi deyillər. Onların malından zəkat verilməsi lazım deyil. Hənəfilərə görə, tarladan yığılan əkinçilik məhsullarının zəkatı sayılan, lakin bəzi xüsusiyyətlərinə görə fərqli qiymətləndirilən öşür bunun xaricindədir, dəli və uşaqlara aid olsa da, bu məhsullardan öşür verilir. Zəkatın maliyyə ölçüsünü və onun əlaqədar ayədə sayılan ehtiyac sahiblərinin, yaxud yerlərinin haqqı olmasını önə çıxaran digər məzhəblərə görə, dəli və ya uşaqlar da zəkat mükəlləfidir, onlara aid əkinçilik məhsullarından öşür verildiyi kimi, şərtlərini daşıdığı təqdirdə, digər mallardan da zəkat verilir. Valideyni və ya qəyyumları onların malına düşən zəkatı hesablayıb verməkdə məsuldurlar[63].

*b. Zəkatı veriləcək mal ilə əlaqədar şərtlər*

Bir müsəlmana zəkatın fərz olması üçün zəkata mövzu olan (artan) bir malın, heç olmasa, nisab kimi təsbit edilən miqdara tam olaraq çatması və bunun üzərindən bir il keçməsi şərtdir. Sahib olunan malın təməl ehtiyaclardan çox və borcun xaricində olması mövzusunda da fərqli qiymətləndirmələr var. Buna görə, zəkat öhdəçiliyi üçün sahib olunan mal ilə əlaqədar (bir qismi ixtilaf mövzusu) şərtləri belə sıralamaq mümkündür:

*1. Nəma (malın artan cinsdən olması).* Ərəbcə "artma, inkişaf" kimi mənalar ifadə edir. Zəkatı veriləcək mallar bu xüsu-

[62] Hilli, əl-İrşad, I, 229, 233; Məğniyyə, əl-Məzahibul-xəms, s. 166; Lənkərani, Tövzihul-məsail, s. 193.
[63] İbn Qüdamə, əl-Muğni, II, 493.

siyyətə sahib mallardır. Əslində, Qurani-Kərimdə mallardan sədəqə/zəkat alınması əmr edilir və mallarda möhtacların haqqı olduğu dilə gətirilir. Bu mallar arasında ayrı-seçkilik edilməz, hansı mallardan zəkat alınacağı, hansılarından alınmayacağı ifadə olunmaz. Quranın ümumi çərçivəni çəkmə və təfsilatı Həzrət Peyğəmbərə (s.a.s.) həvalə etmə xüsusiyyəti diqqətə alındıqda təbii olan da budur. Hansı mallardan nə qədər zəkat veriləcəyini biz hədislərdən öyrənirik. Bu malları araşdıran fəqihlər "nəma"nı (artan olma) onların ortaq xüsusiyyəti olaraq təsbit etmiş və zəkatın bu mallardan veriləcəyini söyləmişlər[64]. Bunlardan bəzilərinin artan xüsusiyyəti açıq görünür. Məsələn: heyvanlar zamanla törəyib çoxalır. Bu cür mallardakı nəmaya "həqiqi nəma" deyilir. Qızıl və gümüşün nəma xüsusiyyəti isə belə açıq görünməz. Potensial olaraq ticarətdə istifadə edilmə və artma xüsusiyyətləri mövcuddur. Bunlardakı nəma, ya təqdiri, ya da hökmü nəma adlanır. Nəma xüsusiyyətinə sahib olan mala da nami mal deyilir.

Nəma şərti olmadığı üçün minilən, yaxud cüt sürmək üçün istifadə olunan heyvanlardan, ticarət məqsədi olmayan ev və binalardan, həmçinin bu qəbil digər mal varlıqlarından zəkat alınmaz.

*2.Tam mülkiyyət.* Bir kimsənin hüquqi baxımdan sahib olduğu mal üzərində həqiqətən istifadə etmək imkanı varsa, o zaman ona tam sahib olmuş olar. Bir kimsə başqasına girov verdiyi malı üzərində onu girov olmaqdan qurtarmadıqca hüquqi baxımdan istifadə edə bilməz, məsələn, onu sata bilməz. Qəsb edilmiş malı üzərindəki mülkiyyəti hüquqi baxımdan davam etsə də, həqiqətən, onu istifadə etmə imkanı yoxdur. Pulqabını çox dərin bir dənizə və ya gölə salanın onun üzərindəki mülkiyyəti hüquqi baxımdan davam edər, lakin həqiqətən, onu çıxarmaq qeyri-mümkün və ya çox çətindir. Bu kimi və-

---

[64] Baxın: Qərədavi, Fiqhuz-zəkat, Beyrut 1389/1969, I, 141.

ziyyətlərdə tam mülkiyyət olmadığından, zəkat mükəlləfiyyəti olmaz. Bu cür malların bir qismi fiqh və elmihal kitablarında "mali-dimar" ümumi adı ilə şərh edilir.

*3. Nisab.* Zəkat mükəlləfiyyətinin yaranması üçün bir maldan sahib olunması lazım gələn minimum miqdara nisab deyilir. Bu miqdar Həzrət Peyğəmbər tərəfindən hər mal üçün ayrı-ayrı ifadə olunmuşdur. Onun bildirdiyinə görə, nisab gümüşdə 200 dirhəm, qızılda 20 misqal, dəvədə 5 ədəd, malda 30 ədəd və kiçik başda 40 ədəddir. Ticarət malları və pulların nisabı da qızıl və gümüş kimi qəbul edilmişdir. Alimlərin bir çoxuna görə, əkinçilik məhsullarında da nisab var və beş vesqdir. Bu malların zəkatı izah edilərkən, adıçəkilən ölçü vahidləri haqqında məlumat veriləcək.

*4. Bir il keçməsi (həvəlanul-həvl).* Nisab miqdarı artan mala tam mülkiyyətlə sahib olan müsəlman bu sahibliyinin üzərindən bir il keçdikdən sonra zəkat ödəməklə mükəlləf olar. Həzrət Peyğəmbər (s.a.s.) "Bir malda üzərindən il keçmədikdə zəkat yoxdur", – buyurur[65]. Buradakı "il" Həzrət Peyğəmbər zamanında istifadə edilən və bəzi İslam ölkələrində, ümumiyyətlə, bəzilərində isə yalnız dini günlərin təsbitində hələ də istifadə edilməkdə olan qəməri təqvimə görə bir ildir. Bundan əlavə, buradakı ilkeçmə şərti qızıl, gümüş, pul, ticarət malı və heyvanların zəkatı ilə əlaqədardır. Əkinçilik məhsulları ilə mədənlərdə və xəzinələrdə zəkat mükəlləfiyyətinin doğulması üçün bir ilkeçmə şərti yoxdur.

Zəkat mövzusu bir mal öz cinsindən nisab miqdarına çatınca, o andan etibarən, bir il sonra yenə, heç olmasa, nisab miqdarı qədər mövcuddursa, mövcud miqdarın zəkatı hesablanaraq verilir. Bir il sonra yenə son vəziyyətə görə hərəkət edilir. Hənəfilər il içindəki əksilmələri diqqətə almırlar. Digərlərinə görə, mal varlığı il içində nisabın altına düşdüyü təqdirdə,

---

[65] İbn Macə, "Zəkat", 5. Baxın: Əbu Davud, "Zəkat", 5; Tirmizi, "Zəkat", 10.

zəkat mükəlləfiyyəti düşər və təkrar nisab miqdarına çatınca il o andan etibarən yenidən başlayar. Cəfəri məzhəbinə görə, on ikinci ayın girməsi ilə il tamamlanmış sayılar və zəkat mükəlləfiyyəti doğulur. Zəkat mükəlləfiyyətinin başlanğıcı baxımından ertəsi il, bu il 12 ay olaraq tamamlandıqdan sonra başlayar. İl içərisində qazanılan mallar (əl-malul-müstəfad) əgər mövcud malların davamı mahiyyətindədirsə, ilsonunda hamısının zəkatı verilər. Mövcud mallarla eyni cinsdən, lakin onların davamı mahiyyətində deyilsə, məsələn, hədiyyə və ya satış ilə qazanılmışsa, Əbu Hənifəyə görə, yenə əvvəlki nisabın üzərindən bir il keçincə, hamısının zəkatı verilməlidir. Şafei məzhəbinə görə, bu axırıncı vəziyyətdə sonradan qazanılan mallar üçün əldə edildiyi tarixdən etibarən, yeni bir il hesabı başlanılır.

5. *Təməl ehtiyaclardan çox olma.* Zəkat ehtiyacdan artıq qalan mallardan verilir. Əgər zəkata mövzu mal, təməl ehtiyacdırsa (ehtiyaci-əsliyyə) o zaman ondan ötrü zəkat verilməz. Məsələn: Hənəfi xaricindəki məzhəblər bir qadının istifadə etdiyi qızıl və ya gümüş zinət əşyasını onun ehtiyacı sayır və bunlardan ötrü zəkat verilməyəcəyini söyləyirlər. Hənəfilər isə zəkat mükəlləfiyyətində təməl ehtiyac anlayışını diqqətə alsalar da, bu cür əşyaları təməl ehtiyac saymazlar. Zəkat mükəlləfiyyətində diqqətə alınacaq təməl ehtiyaclar olaraq saydıqları maddələr, ümumiyyətlə, nami olmayan mallar olduğu üçün bəzi hənəfilərin anlayışına görə, təməl ehtiyacın istisna edilməsinin təcrübədə çox da əks olunan bir nəticəsi görülməz. Digər tərəfdən, İbn Mələkin liderlik etdiyi anlaşılan bəzi hənəfi alimlər nisab və zəkat miqdarı hesablanarkən, təməl ehtiyac qarşılığı olaraq əldə tutulan pulun (dirhəm) istisna ediləcəyini nəzərə çatdırırlar ki, bu vəziyyət təməl ehtiyac və zəkat mükəlləfiyyəti mövzusuna fərqli baxışı təmsil edir.

6. *Borc qarşılığı olmama.* Bir tərəfdən, malları zəkat mövzusu olan, digər tərəfdən, borcu olan birinin bu borcları diqqətə almadan mal varlığının hamısı üzərindən, yoxsa borcunu

ödədikdən sonra qalan miqdar üzərindən zəkat verəcəyi mövzusunda fərqli görüşlər mövcuddur. Hənəfi məzhəbinə görə, nisabın və zəkat miqdarının təsbitində borc verən insan olan, yəni onlar tərəfindən tələb edilə bilən borclar əsas götürülür. Bunlar ödənildikdən sonra, nisab mövcuddursa bu mövcudun zəkatı verilir. Bu mövzuda həcc, qurban, fitr sədəqəsi, kəffarə, nəzir kimi borclar insanlar tərəfindən tələb olunan, zəkat isə insanlar tərəfindən tələb edilən borclardan sayılır. Başqa sözlə, mükəlləf insanlar tərəfindən tələb edilən borclarını ödədikdən sonra əlində nisab miqdarı mal qalmırsa, zəkat verməyəcək, qalırsa, qalan bu malının zəkatını verəcək. Cəfəri və Şafei məzhəblərinə görə, borc zəkata mane deyil. Borc diqqətə alınmadan əldəki mövcudun zəkatı verilər. Cəfəri məzhəbinə görə, bir kimsə borc olaraq əlində tutduğu malın da zəkatını verməlidir. Bu vəziyyətdə o, malın əsl sahibi, yəni borc verən zəkat verməz.

**Ç. Zəkatın səhih olmasının şərtləri**

Zəkat haqq sahibinə zəkat niyyəti ilə verilməlidir. Buna görə zəkatın səhihliyinin şərti ikidir.

1. *Niyyət.* Zəkat bir ibadət olduğu üçün vermə əməliyyatında niyyətin olması lazımdır. Uşaq və dəlilərin mallarından zəkat veriləcəyini qəbul edən məzhəblərə görə, zəkatı verən valideyn və ya qəyyum vəlayə, vəsayəti altındakı uşaq, ya da dəli şəxsin adına niyyət edər. Zəkatın dövlət tərəfindən məcburi olaraq alınması halında sahibi bundan əlavə zəkata niyyət etməsə də, zəkat borcu əda edilmiş sayılar. Bu mövzuda fərqli görüşlərlə birgə əmvali-zahirə ilə əmvali-batinə arasında fərq qoyan və ikincidə mal sahibinin niyyətini şərt qoyan fikirlər də mövcuddur.

Zəkatı verərkən niyyət edilə biləcəyi kimi, daha əvvəldən, əgər veriləcək mallar ayrılmışsa, bu ayırım əsnasında niyyət etmək də etibarlıdır.

*2. Zəkatı haqq sahibinə vermək.* Zəkat əlaqədar ayədə sayılan səkkiz yerə və ya bunlardan bir, yaxud bir neçəsinə verilir.

Bundan əlavə, zəkat veriləcək adamın aşağıdakı xüsusiyyətlərə malik olması lazımdır:

*a. Müsəlman olmaq.* Müsəlmanlardan alınan bu maddi ibadət yenə onlara verilər. Həzrət Peyğəmbər Yəmənə göndərdiyi Müaz ibn Cəbələ zəkatın onların zənginlərindən alınaraq, yenə onların kasıblarına veriləcəyini bildirmişdir.

Cəfəri məzhəbinə görə, zəkat, ancaq bu məzhəb (isnə aşəriyyə/cəfəriyyə) mənsublarına verilməlidir. Müəlləfei-qülub sinfinə verilənlər ilə ümumi məsləhət güdülərək verilənlərdə bu şərt axtarılmamalıdır.

*b. Yaxın qohum olmamaq.* İslam fiqhinə görə, bir kimsə nəfəqəsini ödəməklə məsul olduğu birinə zəkatını verə bilməz. Bu vəziyyətdə, sanki öz məsuliyyətini azaltmış, yəni zəkatı özünə vermiş kimi qəbul edilir. Buradakı yaxınlıq sərhədi, ümumiyyətlə, üsul və füru qohumları olaraq çəkilir. Cəfəri məzhəbində bu qaydanın bəzi istisnaları var. Lənkəraniyə görə, bir kimsə oğluna, çoxsaylı ailəsinin digər fərdinə və xidmətçilərinə xərcləsin, ehtiyacı olan dini-elmi kitabları alsın və ya evlənsin deyə, zəkat verə bilər. Ona görə, övlad da evlilik xərclərini ödəsin deyə, atasına zəkat verə bilər.

*c. Ər-arvad olmamaq.* Həyat yoldaşının nəfəqəsini təmin etmək ərin vəzifəsi olduğu üçün ona zəkat verdiyi təqdirdə, bir cür verdiyi zəkatdan özü faydalanma vəziyyətində olacaq. Bunun üçün bir kişinin zəkatını arvadına verməsi caiz bilinməmişdir. Qadının zəkatını kasıb olan ərinə verməsi isə cəfəri və şafei məzhəblərində caizdirsə, Əbu Hənifəyə görə, caiz deyil. Lənkəraniyə görə, bir kimsə arvadına, xidmətçilərinə və ya ailə fərdlərinə xərcləmək üçün zəkat verə bilər.

*ç. Haşimoğulları sülaləsindən olmamaq.* Həzrət Peyğəmbərin qohumu olan iki gənc onun yanına gələrək evlənmək istədiklərini söyləmiş və mehr ödəməsində istifadə etmək üçün zəkat tələb etmişlər. Həzrət Peyğəmbər də zəkatın insanların kiri olduğunu və ailəsinin onu ala bilməyəcəyi səbəbindən bu

tələblərini rədd etmiş, bunun əvəzinə onlara "xüms"dən kömək edilməsini istəmişdir[66]. Bu səbəbdən, Həzrət Peyğəmbərin ailəsi Haşimoğulları daxil olmaqla məhdudlaşdırılmış, onların zəkat ala bilməyəcəyi qəbul edilmişdir. Cəfəri məzhəbində bu hökm Haşimoğulları xaricindən alınacaq zəkat sayılır və Haşimoğullarının öz zəkatları arasındakı haqq sahiblərinə vermələri caiz bilinir[67].

*d. Təmlik etmək.* Qəbul edilmiş qaydaya görə, zəkat məscid, körpü, yol, su şəbəkəsi kimi işlərin tikinti və təmirinə, bir cənazənin kəfənlənməsinə xərclənə bilməz, onunla borclu ölmüş birinin borcu ödənilə bilməz. Zəkatın verilən şəxsə təmlik edilməsi, yəni onun mülkiyyətinə keçirilməsi lazımdır. Bu vəziyyətlərdə təmlik yoxdur. Eyni səbəbdən kasıbın mülkiyyətinə keçirilmədən, yalnız istifadəsinə təqdim edilən imkanlar da zəkat sayılmaz. Məsələn: evə dəvət edilib ona yemək verilməsi, bir evdə kirayəsiz oturmasına icazə verilməsi buna misal ola bilər. Cəfəri məzhəbinə görə, məscid, məktəb, körpü kimi ümumi ehtiyac sahələrinə "fi səbilillah" (Allah yolu) bölümündən zəkat verilə bilər.

**D. Zəkat veriləcək mallar**

Qurani-Kərimdə zəkatın/sədəqənin mallardan alınacağı[68], əkinçilik məhsullarından məhsul yığımı zamanı verilməsi lazım olan bir borc olduğu[69] ifadə edilərkən, bunların hansının mallar olduğu tək-tək bildirilməz, yalnız qızıl və gümüşü yığıb Allah yolunda xərcləməyənlərin (infaq) cəzalandırılacağı dilə gətirilər[70]. Bununla belə, Həzrət Peyğəmbərin hədislərində hansı mallardan nə qədər zəkat veriləcəyi haqqında ümumi və xüsusi

---

[66] Müslim, "Zəkat", 167.
[67] Müslim, "Zəkat", 167.
[68] "ət-Tövbə", 9/103.
[69] "əl-Ənam", 6/141.
[70] "ət-Tövbə", 9/34-35.

mahiyyətdə şərhlər var. Zəkatı veriləcək malların bu xüsusi olaraq sayılan mallarla məhdudlaşdırıldığı, bunların xaricindəki mallardan da zəkat verilib-verilməyəcəyi, veriləcəksə, nələr olacağı məzhəblər arasında müzakirəli bir mövzudur. Cəfərilər zəkatı veriləcək malların Həzrət Peyğəmbər tərəfindən doqquz sinif olaraq təyin olunduğunu, digər malların zəkatdan kənar tutulduğunu söyləyirlər. Onların saydığı doqquz sinif mal bunlardır: qızıl, gümüş, dəvə, mal, davar, buğda, arpa, xurma, kişmiş. Bu məzhəbə görə, mədənlər, ticari və ya qeyri-ticari qazanclar zəkatdan ayrı olaraq, "xüms" başlığı altında izah edilir və bunlarda da beşdəbir nisbətində şişə öhdəçiliyi olur. Cəfərilərin "zəkat" anlayışı xüms ilə əlaqədar hökmlərlə birlikdə qiymətləndirilməlidir. Xüms mövzusu ayrı bir başlıq altında izah ediləcək. Bu mallardan sünni məzhəblərə görə də zəkat verilir, lakin onlara görə zəkatı verilməsi lazım olan mallar bunlarla məhdud deyil. İndi zəkatı veriləcək mallara və onlarla əlaqədar şərhlərə keçə bilərik:

*1. Qızıl və gümüş*

Həzrət Peyğəmbər dövründə istifadə edilən pul qızıldan hazırlanan dinar və gümüşdən hazırlanan dirhəm olmuşdur. Bir dinar, təxminən, 10 dirhəmdir. Əlaqədar hədislərdə bəzən dirhəm və dinardan danışılarkən, bəzən də qızıl və gümüşdən, ya da basılmış gümüş mənasındakı "verq"dən bəhs edilir. Bu vəziyyət mədən olan qızıl və gümüşdən, pul olan qızıl və gümüşdən, yoxsa hər ikisindən zəkat alınacağı, yaxud veriləcəyi haqqında fərqli fikirlərin meydana gəlməsinə səbəb olmuşdur. Cəfəri məzhəbinə görə, qızıl və gümüşün yalnız pul kimi basılmış olanından zəkat verilər. Külçə və ya təbəqə halındakı qızıl və gümüşdən, bu mədənlərdən əldə edilmiş zinət əşyalarından zəkat verilməsi lazım deyil. Bu zinət əşyaları, eyni zamanda, bazarda pul kimi qəbul edilsə, o zaman bunların zəkatının verilməsi ehtiyata görə vacibdir (fərz). Şafei məzhəbindəki

üstün görüşə görə, qadınların istifadə edilməsi mübah olan zinət əşyaları zəkata tabe deyil. Hənəfi məzhəbində hər hansı bir fərq qoyulmadan maddəsi qızıl və ya gümüş olan hər şey nisab miqdarına çatdığı təqdirdə zəkata tabedir.

**a. Qızıl**

Qızılın nisabı, yəni sahibini zəkat mükəlləfi edən ən az miqdarı 20 misqaldır. İyirmi misqal ağırlığında qızılı olan biri bunun qırxdabiri, yəni 2.5 %-ni zəkat olaraq verər. Bu vəziyyət fiqh kitablarında 20 misqalda yarım misqal və bundan sonra hər dörd misqalda iki karat[71], qızıl və ya belə ara nisab olmadan mövcudun qırxdabiri olaraq ifadə edilir. Eyni zamanda, bir dinarın ağırlığına bərabər ağırlıq vahidi olan misqalın qram olaraq qarşılığı, ümumiyyətlə, 4.25 qram olaraq qəbul edilir ki, bu vəziyyətdə 20 misqal 85 qram edər.

**b. Gümüş**

Hədislərdə gümüşün nisabı 200 dirhəm olaraq qeyd olunur. İndiki vaxtda aparılan araşdırmalarda bir dirhəmin qram olaraq ağırlığı əksəriyyət tərəfindən 2.975 qr. olaraq qəbul edilir ki, buna görə 200 dirhəm 595 qram ağırlığındadır. Fiqh kitablarında bundansonrakı 40 dirhəmə qədər zəkat verilməyəcəyi, hər 40 dirhəmdə bir dirhəm zəkat veriləcəyi və ya qızılda olduğu kimi, bunda da ara nisab (vakas) olmadan mövcudun qırxdabirinin zəkat kimi veriləcəyi bildirilir.

**c. Pul**

Malların dəyişilməsində vasitə olaraq istifadə edilən pulun tarixi müddət içində müəyyən mərhələlərdən keçdiyi məlumdur. İndiki vaxtda qızıl və gümüş yerinə digər mədənlərdən əldə edilən pullar və kağız pullar istifadə olunur. Nə qədər

---

[71] Bir karat, misqalın iyirmidə biridir. Mərğinani, əl-Hidayə, I, 104. Geniş məlumat üçün baxın: Cengiz Kallek, “Karat”, DİA, XXV, 437-439.

əleyhinə çıxmış olsalar da, günümüzdəki bu pullarda da qızıl və ya gümüş ölçü götürülərək, nisab təsbiti edilir və 2.5%-i zəkat şəklində verilir. İndiki vaxtda qızıl və gümüşün pul olma xüsusiyyətlərini böyük ölçüdə, hətta gümüşün bəlkə də tamamilə itirməsi və qiymətləri arasında böyük fərqlərin meydana gəlməsini diqqətə alan alimlər zəkat mükəlləfiyyətində bunlardan hansının ölçü kimi götürüləcəyi mövzusunda fərqli fikirlər ortaya qoyurlar.

*2. Ticarət malları*

Qazanc əldə etmək məqsədi ilə satışa hazır saxlanılan mallar ticarət malıdır. Bunlar daşınan və daşınmaz mallar ola bilər. Sünni məzhəblərin böyük əksəriyyəti qızıl və gümüşdə olduğu kimi, ticarət mallarında da nisaba çatan bütün malın qırxdabirinin zəkat olaraq veriləcəyi fikrini mənimsəyirlər. Başda İbn Həzm olmaqla, bu fikrə qarşı çıxanlar da var. İmam Cəfər Sadiq ticarət mallarının da zəkatının veriləcəyini söyləmişdir. Cəfəri məzhəbi fəqhləri ticarət mallarının zəkatının verilməsinin fərz deyil, müstəhəb olduğu fikrindədir. Bununla belə onlara görə, hər kəs ticarət və sənət həyatı da daxil əldə etdiyi gəlirdən, şəxsinin və ailəsinin birillik ehtiyacından çox olan qisminin beşdəbirini “xüms” adı altında vermək məcburiyyətindədir. Xüms mövzusu ayrı izah ediləcək.

*3. Heyvanlar*

Dəvə, kiçik baş və mallardan zəkat veriləcəyi mövzusunda ittifaq var. Bu heyvanlar əgər ilin yarısından çoxunu otlaqlarda yayılaraq keçirirsə, (saimə) ədədləri nisab miqdarına çatmışsa, üstündən bir il keçdikdən sonra zəkatları verilə bilər. Bundan əlavə, zəkata mövzu olması üçün bu heyvanların ət, süd və digər məhsulları törəyərək çoxalmaları üçün bəslənmələri lazımdır. Nəqliyyatda, sulama, ya da əkinçilik kimi fəaliyyətdə işlədilmək üçün saxlanılan heyvanlardan ədəd hesabı ilə zəkat

verilməz. Cəfəri məzhəbinə görə, zəkatı veriləcək heyvanların ilboyu çöldə otlamaları və işlədilməmələri lazımdır. Bu şərtlərə il ərzində bir-iki gün riayət edilməməsi hökmü dəyişdirmir. Bunlara daha uzun müddət riayət edilmirsə, o zaman bunlar zəkat malı sayılmır.

Nisab dəvədə beş, malda otuz və kiçik başda qırxdır. Göstərilən saydan az heyvanı olanlar bunlardan zəkat vermək məcburiyyətində deyillər. Bu heyvanlardan veriləcək zəkatların miqdarı belədir:

Kiçik baş:
40-120: bir qoyun.
121-200: iki qoyun.
201-399: üç qoyun.
400-499: dörd qoyun.

Bundan sonra hər yüz qoyunda bir qoyun hesabı ilə davam edər. Beş yüz qoyunu olan beş, altı yüz qoyunu olan altı qoyun verər. Keçilərdə də vəziyyət eynidir.

Bu miqdarlar cəfəri məzhəbinə görə belədir:
40-120: bir qoyun.
121-200: iki qoyun.
201-300: üç qoyun.
301-499: dörd qoyun.

Bundan sonra hər yüz qoyun üçün bir qoyun verilər. Yəni beş yüz qoyunu olan beş, altı yüz qoyunu olan altı qoyun verər.

Mal:
30-39: bir yaşı ötmüş bir mal balası.
40-59: iki yaşı ötmüş bir mal balası.
60-69: bir yaşını tamamlamış iki mal balası.
70-79: biri bir, başqası iki yaşını ötürmüş iki mal balası.
80-89: iki yaşı keçmiş iki mal balası.

Camış da mal qrupundan sayılır. Bundan sonra hər otuz üçün bir yaşını tamamlamış və hər qırx üçün iki yaşını tamamlamış bir mal balası hesabı ilə ödənilər. Zəkat olaraq veriləcək mal balalarının bir yaşındakıları erkək, yaxud dişi ola bilər. İki yaşındakılar haqqında isə məzhəblər arasında fərqli görüşlər var. Bəziləri hədisdəki ifadəni eynən tətbiq edərək, bunların mütləq dişi olmasını, bəziləri mallarda dişiliyin bir müsbət dəyər olmadığını irəli sürmüş, onların da erkək və ya dişi ola biləcəyini söyləmişlər. Cəfəri məzhəbinə görə, iki yaşındakılar dişi olmalıdır.

Dəvə:

5-9: bir qoyun.

10-14: iki qoyun.

15-19: üç qoyun.

20-24: dörd qoyun.

25-35: bir yaşını tamamlamış dişi bir dəvə balası (bintu mahad).

36-45: iki yaşını tamamlamış dişi bir dəvə balası (bintu lebun).

46-60: üç yaşını tamamlamış dişi bir dəvə balası (hiqqə).

Daha çox ədədə aid zəkat miqdarları fiqh kitablarından öyrənilə bilər.

Cəfəri məzhəbində 24 dəvəyə qədər miqdarlar eynidir. 25-60 arası belədir:

25: beş qoyun.

26-35: bir yaşını tamamlamış dişi bir dəvə balası (bintu mahad).

36-45: iki yaşını tamamlamış dişi bir dəvə balası (bintu lebun).

46-60: üç yaşını tamamlamış dişi bir dəvə balası (hiqqə).

Göründüyü kimi, fərq yalnız 25 dəvənin zəkatındadır, digərləri eynidir.

Digər heyvanlar üçün zəkatın verilmə formasına nəzər yetirək.

Atlar üçün zəkat verilib-verilməyəcəyi mübahisəli bir mövzudur. Böyük əksəriyyətə görə, atlardan ötrü zəkat mükəlləfiy-

yəti yaranmaz. Əbu Hənifəyə görə isə atlar, əgər yuxarıda qoyun, mal və dəvə haqqında ifadə olunan ortaq şərtləri daşıyırsa və bundan əlavə, erkək dişi ilə saxlanılırsa, onların da zəkatının verilməsi lazımdır. Bir rəvayətə görə, atların hamısı dişi də olsa, zəkatı verilər, lakin atların hamısı erkək isə zəkat verilməsi lazım deyil. Zəkat olaraq hər at üçün ya bir dinar verilər, ya da atın dəyəri hesablanar, gümüş kimi hər 200 dirhəm qarşılığı beş dirhəm hesabı ilə zəkat verilər. Bu mövzuda ondan hər hansı bir nisab nəql edilməz.

Zəkatı veriləcək heyvanlar bu sayılanlarla məhdudlaşdırılmışdır. Son zamanlar bu məhdudlaşdırmanın genişləndiriləcəyi ilə bağlı yeni fikirlər də səsləndirilir.

*4. Mədənlər və xəzinələr*

*a. Mədənlər.* Hənəfi məzhəbinə görə, torpaqdan çıxan və əridilərək hazırlana bilən hər cür mədənin beşdəbiri (xüms) dövlət tərəfindən alınır və fey malı kimi qiymətləndirilərək lazımi yerlərə xərclənir. Fey mallarının xərclənəcəyi yerlər zəkatın xərclənəcəyi yerlərdən daha genişdir[72]. Əridilib-tökülməyən və ya maye halında olan mədənlərdən (neft və s.) bir şey alınmaz. Hənbəli məzhəbinə görə, belə bir ayırım edilmədən bütün mədənlərdən zəkat olaraq qırxdabir alınar və zəkat yerlərinə xərclənər. Şafei məzhəbində məşhur fikirə görə, mədən olaraq yalnız qızıl və gümüşdən qırxdabir zəkat alınar və zəkat yerlərinə xərclənər.

*b. Xəzinələr.* Üzərində o torpaqlardakı İslam hakimiyyətindən sonrakı dövrə aid edildiyini göstərən bir işarə olan xəzinə, tapılan mal (lüqətə) hökmündədir və buna görə dəyərləndirilir.

[72] Fey, İslam dövlətinin, qeyri-müsəlman vətəndaşdan aldığı cizyə, xərac və ticarət malları vergilərinin ortaq adıdır. Geniş məlumat üçün baxın: Mustafa Fayda, “Fey”, DİA, XII, 511-513. Fey gəlirləri, yol, körpü inşaatı kimi infrastruktur xidmətlərinə xərclənir, bəzi ictimai vəzifəlilərinin maaşları da bu fəsildən ödənə bilər. Baxın: Mərğinani, əl-Hidayə, II, 164.

Xəzinə islamdanəvvəlki dövrə aiddirsə, qənimət hökmündədir, beşdəbiri dövlət tərəfindən alınar və qənimət mallarının xərcləmə yerlərinə xərclənər. İmam Şafeiyə görə, tapılan xəzinələrdən alınan beşdəbir zəkatın xərcləmə yerlərinə xərclənər.

Cəfəri məzhəbinin fikri "Xüms" başlığı altında izah ediləcək.

*5. Əkinçilik məhsulları*

Həzrət Peyğəmbər yağış suyu və ya çay, bulaq suları ilə suvarılan ərazilərin məhsulundan ondabir (öşür), daşıma su ilə suvarılan yerlərin iyirmidəbir mali məsuliyyət olduğunu ifadə edir[73]. Digər tərəfdən, beş vesqdən az olan nəsnələrdə, yaxud xurmada və taxılda sədəqə/zəkat öhdəçiliyi olmadığını ifadə edən hədislər də var[74].

İslam məzhəbləri və alimləri hansı məhsullardan öşür (ondabir zəkat) veriləcəyi və bunun üçün bir nisabın olub-olmayacağı mövzusunda fərqli görüşlər mənimsəmişlər.

Cəfəri məzhəbinə görə, buğda, arpa, xurma və kişmiş xaricindəki məhsullarda fərz mənada öşür mükəlləfiyyəti yoxdur. İbn Ömər və bəzi təbiin alimləri də eyni fikirdədirlər.

İmam Şafeiyə görə, yalnız "qut" olma xüsusiyyəti daşıyan və izzixar edilə bilən, yəni saxlana bilən qida maddələrindən öşür verilər. "Qut" insanların normal zamanlarda həyatlarını davam etdirmələri üçün istifadə etdikləri qida maddələridir ki, "təməl qida maddəsi" olaraq da nəzərdətutulur. Bu qaydadan hərəkət edənlər alma, armud kimi meyvələrdən, həmçinin fındıq, fıstıq, qoz, badam kimi quru meyvələrdən öşür lazım olmayacağı fikrindədirlər.

Əbu Hənifəyə görə, heç bir şərtə bağlı olmadan yetişdirilən hər cür əkinçilik məhsulundan öşür verilir. Tələbələri Əbu

[73] Buxari, "Zəkat", 55; Müslim, "Zəkat", 7.
[74] Baxın: Buxari, "Zəkat", 31, 41, 55; Müslim, "Zəkat", 1-6.

Yusuf və Məhəmməd ondan fərqli fikirləşir və bunlardan, ancaq qalıcılıq (davamlılıq) xüsusiyyətinə sahib olanlardan öşür veriləcəyini söyləyirlər.

Alimlərin çoxu əkinçilik məhsullarında nisabın beş vesq olduğunu söyləyərkən Əbu Hənifə hər hansı bir nisaba bağlı olmadan az da olsa, çıxan məhsulun ondabirinin veriləcəyini söyləyir. Əbu Yusufa görə, ölçü vahidi olaraq vesqin istifadə edilmədiyi pambıq, zəfəran kimi məhsullarda nisab kimi onların qiymətləri əsas götürülər, vesq ilə ölçülən məhsullar arasında qiyməti ən az olan məhsuldan beş vesq qiymətini tapınca bunlar da nisaba çatmış sayılar. İmam Məhəmmədə görə, bu məhsulların ölçüldüyü ən yüksək vahid əsas alınar və onunla beş vahidə çatınca nisab təmin edilmiş olar. Balın nisabı haqqında da fərqli rəvayətlər var.

*6. Digər mallar*

Hənəfilərə və hənbəlilərə görə, bal istehsal edənlər də əkinçilik məhsullarında olduğu kimi, ondabir öşür verərlər. İndiki vaxtda yaşayan bəzi fəqihlər ipəkqurdu, yumurta, ət, süd (heyvanın özündən zəkat alınmırsa) kimi məhsullardan da öşür alına biləcəyi fikrini müdafiə edirlər.

Böyük əksəriyyət tərəfindən qəbul edilməklə yanaşı, dəniz məhsulu olaraq balıqlardan və dənizdən çıxarılan inci, mərcan kimi məhsullardan, ənbər kimi qoxulardan da nisbəti beşdəbir ilə qırxdabir arasında dəyişən bir maliyyə məsuliyyəti olduğunu müdafiə edən nadir görüşlər mövcuddur. Cəfəri məzhəbinin dənizdə olan qiymətli mədənlərlə əlaqədar fikri xüms mövzusunda izah ediləcək.

Hal-hazırda insanın yuxarıda sayılanlar xaricində, hətta onlardan çox başqa qaynaqlardan gəlir əldə etdiyi və sərvət sahibi olduğu məlumdur. Bunlardan bəziləri sənaye sahəsindəki sərvət və gəlirlər, ticarət həyatındakı inkişafa bağlı olaraq çıxarılan səhmlər, kirayə gəlirləri, nəqliyyat və xidmət sektorundan,

sərbəst peşələrdən əldə edilən qazanclardır. Bugünkü fiqhçilər bunlardan ötrü zəkat və ya öşür tərzində hər hansı bir maliyyə məsuliyyəti lazım olub-olmayacağını, lazımdırsa, bunun ölçülərinin nə olacağını müzakirə edir. Son illərdə bu mövzular başda İslam Fiqh Akademiyası (Məcməul-fiqhil-İslami) olmaqla mövzuya maraq bildirən təşkilat və quruluşların gündəmində əhəmiyyətli yer tutur.

*7. Əmvali-zahirə və əmvali-batinə ayırımı*

Zəkatı verilən mallar hər kəs tərəfindən görünən və bilinən olub-olmaması baxımından, "əmvali-zahirə" və "əmvali-batinə" adlanan iki qrupa ayrılır. Əmvali-zahirənin mənası saxlanması və gizlənməsi mümkün olmayan, varlığından və miqdarından hər kəsin xəbərdar olduğu mallardır. Əkinçilik məhsulları və heyvanlar bu qrupa daxildir. Əmvali-batinənin mənası varlığını və miqdarını, ancaq sahibinin biləcəyi mallardır. Qızıl və gümüş kimi qiymətli mədənlər və pullar da bu qrupa aiddir. Şəhərlər arasında gəzdirilən və müəyyən nöqtələrdəki vəzifəlilər tərəfindən nəzarət edilib zəkatı alınan ticarət malları birinci qrupa, olduğu diyarda alınıb-satılan ticarət malları isə ikinci qrupa daxildir. Əmvali-batinənin zəkatını vermək Həzrət Osman dövründən etibarən, sahiblərinin məsuliyyətinə həvalə edilmişdir.

**E. Zəkatın sərf yerləri**

Zəkatın kimlərə və ya haralara xərclənəcəyi "Tövbə" surəsindəki ayədə ifadə olunur. Orada Allah belə buyurur:

***"Sədəqələr (zəkatlar), yalnız kasıbların, yoxsulların, o işdə çalışanların, ürəkləri isinişib bağlanmaqda olanların, azad ediləcək kölələrin, borcluların, Allah yolunda (ediləcək işlərin) və yolçunun haqqıdır. Allahdan bir fərzdir. Allah biləndir, hikmət sahibidir" ("ət-Tövbə" 9/60).***

Bu ayədə zəkatda haqqı olanlar səkkiz sinif olaraq göstərilir:

1. Kasıblar.
2. Miskinlər.
3. Zəkat məmurları.
4. Müəlləfei-qulub (ürəkləri isinişdiriləcəklər).
5. Riqab (kölələr).
6. Borclular.
7. Səbilillah (Allah yolu).
8. İbnus-səbil (yolçu/yolda qalmış).

İbn Qüdaməyə görə, bunlardan ilk dördü aldıqlarına sahib olarlar, qaytarmazlar. Son dördü isə fərqli görüşlər olmaqla birlikdə – içində olduqları xüsusi vəziyyət sona çatsa və aldıqları zəkatdan artan bir miqdar olsa, bunu qaytararlar. Onlar müəyyən bir məqsəd üçün zəkat almışlar və o məqsəd reallaşdıqdan sonra, bu xüsusiyyətlərini itirmişdir. Bu mövzularda fərqli görüşlər də mövcuddur.

Məzhəblər zəkatın bu səkkiz sinfin haqqı olduğu, başqasına verilə bilməyəcəyi mövzusunda ittifaq edir, ancaq bunların təfsilatı ilə bağlı fərqli görüşlər var.

**1) Kasıblar və 2) Miskinlər**

Fikir ayrılığı təşkil edən ilk iki sinf kasıb və miskinin tərifi ilə bağlıdır. Kasıbın, yoxsa miskinin daha möhtac vəziyyətdə olduğu barəsində iki fərqli fikir məlumdur. Hənəfi və cəfəri məzhəblərinə görə, miskin kasıbdan daha möhtac vəziyyətdədir. Şafei məzhəbinə görə isə kasıb miskindən daha möhtac vəziyyətdədir. Nəticədə, kasıb da, miskin də zəkat ala bildiyi üçün bu fərqin çox əhəmiyyətli bir nəticəsi yoxdur.

Zəkat almaq haqqı çatan şəxslərin həyat standartları ilə əlaqəli məzhəblərin fərqli fikirləri var. Hənəfilər bu həyat standartına ən yüksək səviyyədə yer verir. Onlara görə, zəkata mövzu malların hər hansı birindən nisab miqdarı mala sahib olan zəkat ala bilməz. Bunun üçün təməl ehtiyacını təmin etməsi şərt deyil. Zəkata möv-

zu olmayan başqa mallara sahibdirsə, o zaman da təməl ehtiyaclarını (ehtiyaci-əsliyyə) təmin etdikdən sonra artan miqdar nisab miqdarına çatarsa, o da zəkat ala bilməz. Bu xüsusiyyətdə olmayanların zəkat alması və onlara zəkat verilməsi caizdir. Buna baxmayaraq, onlar həyatını davam etdirmə imkanına sahib birinin zəkat, yaxud sədəqə almadan öz imkanları ilə dolanmasını tövsiyə edirlər, həmçinin bunu daha fəzilətli bir davranış sayırlar. Cəfəri məzhəbinə görə, özünün və ehtiyacını təmin etməyə borclu olduğu kəslərin birillik ehtiyacını təmin edə bilməyən bir kimsə kasıbdır və zəkat ala bilər. Bunu təmin edə biləcək bir sənəti, daşınmaz əmlakı və ya sərmayəsi olan biri kasıb sayılmaz və zəkat ala bilməz. Müasir cəfəri alimlərindən Məğniyyəyə görə, illik təməl qida (qut) ehtiyacına sahib olmaq əsas götürülür. Özünün və ehtiyacını təmin etməyə borclu olduğu kəslərin birillik təməl qida ehtiyacına sahib olmayan biri zəkat ala bilər, buna sahib olan isə ala bilməz. Maliki, şafei və hənbəli məzhəbi isə qazancı ilə dolanışığını təmin edə bilənin zəkat almasını, yaxud ona zəkat verilməsini caiz görmür. Onlara görə, iş-gücə sahib və özünə uyğun, həddindən artıq dərəcədə məşəqqətli də olmayan halal bir iş olduğu halda, işləməyənlərin zəkat alması halal olmaz. Onlar sahib olduqları mal varlığını deyil, ehtiyaclarını əsas götürürlər. Başqa sözlə, özünün və ehtiyacını təmin etməyə borclu olduğu kəslərin tələbatını ödəyəcək vəziyyətdə isə zəkat ala bilməz. Bu ehtiyacı təmin edə bilmirsə, nisab miqdarı mala sahib də olsa, zəkat ala bilər. İzah edildiyi şəkli ilə iş imkanı olduğu halda, çalışmayıb nafilə ibadətlə məşğuliyyəti seçən dərvişlərə, zahidlərə, ya da mədrəsələrdə/məktəblərdə vaxt keçirən elmi qabiliyyətdən uzaq insanlara zəkat verilməz. Elmi fəaliyyət içində olduğu üçün çalışa bilməyən qabiliyyətli kəslərə zəkat verilə bilər.

### 3. Zəkat məmurları

Zəkat üçün çalışan məmurların ödənişi toplanan zəkatdan verilir. Gördükləri işin müqabilində onlara verilən əvəzdir.

Onun üçün zəngin, yaxud kasıb olmaları önəmli deyil. Bu iş üçün əhil olub-olmamaları əhəmiyyətlidir. Verilən ödəmənin zəkat olma ehtimalı yarandığı üçün Həzrət Peyğəmbərin sülaləsindən olanlara verilməz.

**4. Müəlləfei-qülub**

Bunlarla nəzərdə tutulan qəlblərini İslama isindirmək istənilən, İslama adına qazandırılması düşünülən şəxslərdir. Bunlardan bir qismi müsəlman olmuş, lakin bir meyarda İslam ilə bağlarının qüvvətləndirilməsi düşünülən kəslərdir. Bir qismi isə müsəlman deyil və müsəlman olması İslama toxunacaq zərərin önlənməsi, ya da İslamın müdafiə edilməsinə təsiri gözlənilir, bu səbəbdən ona zəkatdan pay verilir. Ayədə olan və Həzrət Peyğəmbər tərəfindən də tətbiq olunan bu hökm bəzi məzhəblərə görə, artıq etibarlı deyil. Müsəlmanlar qüvvətlənmiş və onların belə passiv davranışlara ehtiyacları qalmamışdır. Bəzi məzhəblərə görə isə bu hökm davam edir.

**5. Azadlığa qovuşdurma**

İslam dini insan azadlığına böyük əhəmiyyət verir. Tarixi bir varlıq olan köləliyin ləğv edilməsini təşviq edir. Bu məqsədlə zəkatın xərclənəcəyi yerlər arasında köləliyin ləğv edilməsi də ayədə xüsusilə vurğulanmışdır. İslam alimləri ayədəki ifadənin köləliyin ləğv edilməsi istiqamətində ediləcək bütün xərcləmələri əhatə edib-etmədiyi mövzusunda ixtilaf etmişlər.

**6. Borclular**

Borcu ödəmə çətinliyi içində olan, mövcud mal varlığı borcunu yerinə yetirməyə gücü çatmayan borcludur. Bəzi alimlər borcun qaynağını araşdırır, günah və ya israf sayılacaq işlər nəticəsində borclu olanları bu hökmdən xaric edir və onlara zəkat verilə bilməyəcəyini söyləyirlər.

**7. Allah yolu**

Ayədə zəkatda haqqı olanlar arasında sayılan “fi səbilillah”, sözü “Allah yolunda” deməkdir. Bu ifadənin lüğəvi mənası xeyli genişdirsə, fəqihlərin əksəriyyəti bu ayədə nəzərdə tutulan mənanın daha dar olduğu qənaətindədirlər. Hənəfilərdən Əbu Yusufa görə, bunun mənası İslam yolunda döyüşdə iştirak edən, yaxud iştirak etmək istəyən, amma kasıb olan şəxslərdir. Onlar özlərinə verilən zəkat ilə döyüşə hazırlaşır, silah-sursat alırlar. İmam Məhəmmədə görə isə bu ifadənin mənası Həccə getmək istəyən kasıblardır. Məzhəbdə qəbul olunan fikrə görə, hər iki halda da “Allah yolu” qismində zənginlərə zəkat verilə bilməz. Məzhəb içində “Allah yolu” anlayışının çərçivəsini genişləndirən başqa şərhlər varsa da, bunlarda da zəkat alacaq adamın kasıb olması şərti tələb olunur. Bəzi təfərrüatlı məsələlərdə fərqli düşünsələr də, maliki, şafei və hənbəli məzhəblərinə görə, bu ayədəki “Allah yolu”nun mənası İslam naminə edilən döyüşdür. Özlərini döyüşə həsr etmiş bu şəxslər zəngin də olsalar, onların şəxsi ehtiyacları və ailələrinin ehtiyacları zəkatın müəyyən qismindən təmin edilər. Bundan əlavə, döyüş silah və sursatı alınaraq hazırlıq aparılar. Bu dörd məzhəbin əsas fikri zəkatın bu qismindən bunun xaricində yol, məktəb, məscid inşası kimi digər ictimai xidmətlər üçün xərclənə bilməyəcəyi şəklindədir. Bununla birgə “Allah yolu” anlayışını lüğəvi mənasına da uyğun olaraq, Allahın razılığına uyğun ümumi ehtiyacları əhatə edəcək şəkildə geniş tutanlar da var və bunların sayı, xüsusilə son zamanlarda artır. Cəfəri məzhəbi də bu fikirdədir. Onlara görə, bu ifadənin mənası, İslamı müdafiə etmək məqsədilə aparılacaq döyüşlə birgə yanında yol, xəstəxana, məktəb, məscid, su kanalı inşası, elmi kitab təmini, subayları evləndirmə, Həcc ziyarəti etmək, yaxud başqa müqəddəs yerlərə baş çəkmək istəyənlərə dəstək olmaq, zülmə uğrayanı qurtarmaq kimi məsələlərdə istər müsəlman olsun, istər olmasın – hamının istifadə edəcəyi xidmətlərdir.

**8. Yolçu**

Ayədə olan "ibnus-səbil" ifadəsi lüğətdə "yol oğlu/yol uşağı" mənasını versə də, kinayəli tərzdə "yolçu" mənasında istifadə edilir. Qurani-Kərimdə kömək və yaxşılıq ediləcək kəslər arasında onun da adı var[75]. Fəqihlərin əksəriyyətinə görə, buradakı "yolçu"nun mənası səfərə çıxmış və hər hansı bir səbəbdən pulsuz qalmış kimsədir. Belə birisinə məmləkətində sərvət sahibi də olsa, özünü vətəninə və ya malının olduğu yerə çatdıracaq, bu əsnadakı ehtiyaclarını təmin edəcək qədər zəkat verilir. Əgər çatacağı yerə hələ yetməmiş olub, geri dönəcəksə, geri dönməsi, hətta çatdığı yerdə məqbul bir müddət qalması da nəzərə alınır. "Zəkat əvəzinə borc alma imkanı olanların borc alması lazımdır", – deyənlərlə birgə bunu bir zərurət hesab etməyib tövsiyə bilənlər də var. Bu ödəmənin edilməsi üçün səfərin dinin günah saydığı bir məqsəd daşımaması lazımdır. Məsələn: adam öldürmək üçün yola çıxmış birinə tövbə etmədikcə, bu qismdən zəkat verilə bilməyəcəyi qəbul olunur. İndiki vaxtda nəqliyyat və ünsiyyət vasitələrindəki inkişaf insanların sahib olduqları mallardan məmləkətlərindən uzaqda olarkən də faydalanmalarına imkan verə bilir. Bu qismdən zəkat alacaq və ya verəcək olanların bunu da qiymətləndirmələri yerində olar. Bu imkan hər kəs üçün və hər vaxt etibarlı olmaya bilər.

## Ə. Zəkatı ödəmə zamanı və forması

*1. Zəkatın fərz olduğu vaxt*

Zəkat mallarından qızıl, gümüş və pulların, ticarət mallarının, heyvanların zəkatının ödənilməsi, bunlar nisab miqdarına çatdığı andan etibarən, üstündən bir qəməri il keçdikdən sonra fərz olur. Buna "zəkatın vücub (fərz olma) vaxtı" da deyilir.

---

[75] Baxın: "əl-Bəqərə", 2/177, 215; "ən-Nisa", 4/36; "əl-Ənfal", 8/41; "əl-İsra", 17/26; "ər-Rum," 30/38; "əl-Həşr", 59/7.

Əkinçilik məhsulları ilə mədən və xəzinələrin zəkatının verilməsi üçün belə bir gözləmə lazım deyil. Mədən və xəzinələrin zəkatının, çıxarıldığı andan etibarən verilməsi fərzdir. Əkinçilik məhsullarında da zəkatın (öşrün) verilməsinin fərz olduğu vaxt ilə əlaqədar olaraq, məhsulun müəyyən bir yetişmə həddinə çatdığı an, yığıla bilən yetişmə həddinə çatdığı an, həqiqətən, yığıldığı an kimi bir-birinə çox da uzaq olmayan fikirlər var.

*2. Zəkatın vaxtından əvvəl verilməsi*

Nisab miqdarına çatdıqdan bir il sonra verilməsi lazım olan zəkatın il başa çatmadan verilməsi mövzusunda fərqli fikirlər mövcuddur. Əksəriyyətə görə, nisab miqdarı malı olan kimsə mövcud malın zəkatını il başa çatmadan da verə bilər. Hənəfi və Şafeiyə görə, gələcək bir neçə ilin zəkatının əvvəlcədən verilməsi də caizdir. Hələ nisab miqdarı malı olmayan birinin o maldan gələcəkdə meydana çıxacaq zəkat borcuna aid olaraq əvvəlcədən ödəməsi bu məzhəblərə görə, caiz deyil. Cəfəri məzhəbinə görə, zəkat hələ fərz olmazdan əvvəl verilə bilməz. Əvvəldən verilən belə bir mal, zəkat fərz olduqdan sonra kasıbın əlində mövcuddursa və o şəxs yenə kasıbdırsa, əvvəldən verilən mal sonradan zəkat sayıla bilər.

Əkinçilik məhsullarının zəkatının məhsul meydana çıxdıqdan, yaxud müəyyən bir mərhələyə gəldikdən sonra, hələ fərz olma vaxtından əvvəl verilməsi də sünni məzhəblərdə anlayışla qarşılanır və caiz görünür.

*3. Zəkatın verilməsinin gecikdirilməsi*

Əksəriyyətin fikirinə görə, verilməsi fərz olan zəkatı imkan olduğu halda, məqbul bir səbəb yox ikən ödəməmək günahdır. Bu mövzu fiqh kitablarında "Zəkatın vacibliyi fövridirmi?" (təcili), "Ömür boyu yerinə yetirilməsi mümkündürmü və ya zəkatın vaxtı müdəyyəqdirmi?" (dar) müvəssadırmı (geniş) deyə müzakirə edilir. Mükəlləfin, zəkatın verilməsini o anda

orada olmayan daha möhtac birinə vermək üçün, qohumuna göndərmək üçün, kimin daha uyğun olduğu haqqında vəziyyəti qiymətləndirmək ehtiyacı olduğu üçün gecikdirməsi bəzi məqbul səbəb nümunələridir. Yenə də zamanı çox uzatmamaq məsləhətdir.

*4. Ödəmənin kimə ediləcəyi*

Zəkatın Həzrət Peyğəmbər (s.a.s.) həyatda ikən şəxsən onun tərəfindən vəzifələndirilən kəslər vasitəsilə toplandığını, bu vəziyyətin Həzrət Osman dövrünün ilk illərinədək belə davam etdiyini, Həzrət Osmanın əmvali-batinə deyilən qızıl, gümüş, pul kimi malların zəkatının dövlət tərəfindən toplanması tətbiqini ləğv edərək, bu ödəməni mükəlləflərin özlərinə həvalə etdiyini daha əvvəldə qeyd etmişdik.

Zəkat malları yuxarıda açıqlanan səkkiz sinfin haqqıdır. Zəkat bunlara birbaşa verilə biləcəyi kimi, islami əsaslara görə, yığıb-xərcləməyi öz üzərinə götürən dövlətə, onun əlaqədar təşkilatına, yaxud müsəlmanlar tərəfindən yaradılmış eyni mahiyyətdəki təşkilatlara da verilə bilər. Bundan əlavə, hər kəs zəkatını ödəmək üçün istədiyi şəxsi vəkil də təyin edə bilər.

*5. Zəkatın toplandığı diyarda yaşayanlara verilməsi*

Zəkatın, zəkat malının olduğu yerdə yaşayan haqq sahiblərinə verilməsi əsasdır. Haqq sahiblərinə vermək üçün zəkat yığan təşkilatlar da, ümumiyyətlə, buna diqqət yetirməlidirlər. Əgər bir məmləkətdə xalqın ümumi həyat səviyyəsi yüksəkdirsə və orada zəkat alacaq kimsə yoxdursa, o zaman ən yaxın diyar xalqı arasında olan haqq sahiblərinə verilər. Həzrət Peyğəmbər tərəfindən Yəməndə vəzifələndirilən və Həzrət Ömər zamanınadək orada qalan, Həzrət Ömər tərəfindən təkrar orada vəzifələndirilən Müaz ibn Cəbəlin bu son dövrdə il ərzində yığdığı zəkatın müəyyən qismini mərkəzə göndərdiyi, xəlifə Həzrət Ömərin buna qarşı çıxdığı və Müazın da onu alacaq

kimsə tapa bilmədiyi üçün göndərdiyini söyləyərək, hərəkətini müdafiə etdiyi rəvayət olunur. Prinsip bu olmaqla yanaşı, daha möhtac olana və ya qohumdan birinə vermək kimi məqbul səbəbdən zəkatın malın olduğu yer xaricinə çıxarılması da caiz bilinmişdir. Qəbul edilə bilən səbəb olmadığı halda, başqa yerə göndərilməsi məkruhdursa, edilən ödəmə ilə zəkat borcu yerinə yetirilmiş sayılır.

## II. Xüms

### A. Xümsün tərifi

“Xüms” – beşdəbir deməkdir. Allah “Ənfal” surəsində (8/41) ***“Qənimət olaraq aldığınız hər şeyin xümsu (beşdəbiri) Allahın, Peyğəmbərin, qohumlarının, yetimlərin, miskinlərin və yolçularındır”,*** – buyurur. Buradakı “qənimə” sözünün əhatəsini sünni məzhəblər qeyri-müslimlərdən döyüş və bənzəri yollarla əldə edilən hər cür mal ilə məhdudlaşdırır, Cəfəri məzhəbi isə onu daha geniş tutmuşdur. Hicri V əsrdən (miladi XI) etibarən, şiə fiqh ədəbiyyatında xüms zəkatdan sonra ayrı bir hissə halında şərh edilmiş və sonra qaydaya salınmışdır. Digər tərəfdən, bəzi qaynaqlarda mədən və xəzinələrdən xüms veriləcəyini ifadə edənlərlə birgə, İmam Cəfər Sadiqin xümsün yalnız qənimətlə məhdud olduğunu söylədiyinə dair rəvayətlərə də rast gəlinir. Bəzi sünni məzhəblərdə qənimətlər ilə mədən və xəzinələrdə beşdəbir (xüms) nisbətində maliyyə mükəlləfiyyəti mövcuddur. Sünni fiqh kitablarında bunlar müstəqil başlıq altında öyrənilmir. Qənimətlər “kitabus-siyər” başlığı altında, mədənlər və xəzinələr də zəkat başlığı altında izah edilir. Biz burada “xüms” mövzusunu, xüsusilə, cəfəri məzhəbi baxımından şərh edəcəyik.

### B. Xüms veriləcək mallar

Cəfəri məzhəbinə görə, xümsü verilməsi lazım olan yeddi sinif mal bunlardır:

1. Darul-hərbdən alınan qənimətlər. Bunun üçün edilən döyüşün cihad statusunda olması lazımdır.
2. Torpaqdan çıxarılan mədənlər. Torpaq içində olub, torpaq cinsindən olmayan hər maddə buna daxildir. Qızıl, gümüş, dəmir, güllə və bənzərləri ilə birgə duz, sürmə, kibrit və neftdən də xüms alınır.

3. Torpağa basdırılmış və ya ağacda, daşda, divarda gizlədilmiş xəzinələr.

4. Dənizdən çıxarılan inci, mərcan və s. ləl-cəvahiratlar, qiymətli bitkilər.

5. İllik ehtiyacdan artıq olan hər cür gəlir. Burada şəxsin öz ehtiyacı ilə birgə, saxlamağı məsul olduğu kəslərin ehtiyacı da nəzərə alınır.

6. İslam yurdundakı zimminin müsəlmandan satın aldığı ərazi.

7. Haramla qarışmış mal. Malının içinə haram qarışan və onun miqdarını da, sahibini də bilməyən kimsə əldəki qarışığın cəmi üzərindən xüms verər və beləcə, qalan malın hamısı halal olar. Qarışan malın, halal olan əsl maldan az və ya çox olması vəziyyəti dəyişdirməz.

### C. Xüms mükəlləfiyyəti və nisab

Mədən və xəzinələrdə nisab qızıl və gümüş nisabıdır. Bunların çıxarılması üçün edilən xərclər kənar edildikdən sonra, əldə qalanın dəyəri iyirmi dinar, yaxud iki yüz dirhəm qiymətinə çatanda beşdəbirinin verilməsi lazımdır.

Dənizdən çıxarılan məhsullarda nisab xərcləri xaric olmaqla bir dinardır.

Qənimətlərdə və digər qismlərdə nisab axtarılmaz, əldə olanın beşdəbiri verilər.

### Ç. Xümsün sərf yerləri

Cəfəri fəqihlər İmam Cəfər Sadiqdən və digər imamlardan nəql edilən rəvayətləri nəzərə alaraq, xümsün sərf olunacağı yerləri təsbit edirlər. Bir rəvayətə görə, İmam Cəfər Sadiq "Ənfal" surəsinin yuxarıda göstərilən ayəsi ilə əlaqədar bir sualı belə cavablandırmışdır: "Allahın xümsü Peyğəmbərindir, onu Allah yolunda xərcləyər. Peyğəmbərin (s.a.s.) xümsü qohumlarınındır. Qohumun xümsünə gəlincə, onlar, onun qo-

humlarınındır. Yetimlər onun əhli-beytinin yetimləridir. Miskinlərə və yolçulara gəlincə, bildiyin kimi, biz sədəqə yemərik, sədəqə bizə halal olmaz. O, miskinlərin və yolçularındır”[76]. Başqa bir rəvayətdə də o belə deyir: ***“Allahın xümsü Peyğəmbərindir. Peyğəmbərin (s.a.s.) xümsü İmamındır. Qohumun xümsü Peyğəmbərin qohumunun, İmamındır. Yetimlər, Peyğəmbərin yetimləridir. Miskinlər onlardandır. Yolçular onlardandır. Onlardan onların xaricindəkilərə verilməz”.***

Fəqihlərin təsbitinə görə, toplanan xüms ayədə sayıldığı şəkildə altı hissəyə ayrılır. Allahın hissəsi, Peyğəmbərin hissəsi, İmamın hissəsi (qohumdan məqsəd odur), yetimlərin hissəsi, kasıbların (miskinlərin) hissəsi və yolçuların hissəsi. İlk üç hissə, yəni cəmin yarısı İmamın haqqıdır. Qalan yarısı da əhli-beytdən olan yetimlərə, miskinlərə və yoldaqalmışlara verilər. əhli-beytin sədəqə alması caiz olmadığı üçün onlara xümsdən belə, xüsusi haqq tanınmışdır. Bundan əlavə, əhli-beytə aid bu sədəqə alma qadağası, əhli-beytdən olmayan zəkat mükəlləflərinin sədəqələri ilə məhduddur. Əhli-beyt arasında sədəqə qadağası yoxdur. Xümsdə haqq sahibi olan Peyğəmbər qohumları da Əbdülmütəllibin soyundan gələnlərdir.

İmamın olduğu dövrdə xümsün hamısı İmama verilər və onun tərəfindən lazımi yerlərə çatdırılardı. Müasir dövrdə olduğu kimi, İmamın olduğu dövrdə də kasıb, yetim və yolçulara aid hissələrin mükəlləf tərəfindən birbaşa bu haqq sahiblərinə verilə biləcəyi qəbul edilir. Bunlar möhtac vəziyyətdə olmalı və bundan əlavə, mükəlləfi saxlamağa məsul kəslər olmamalıdır. Xümsün yarısını təşkil edən İmama aid hissənin bu dövrdəki hökmü haqqında çox sayda fərqli görüş var. Bəzilərinə görə, dini dəstəkləyən fəaliyyətə, dinin qanun və əsaslarını bilənlərə, saleh kasıblara, bəzilərinə görə isə bu hissə də digər yarı hissəyə əlavə edilərək, Həzrət Peyğəmbər ailəsindən olan miskin,

---

[76] İbn Babəveyh, Mən la yəhduruhul-fəqih, II, 22.

yetim və yolda qalmışlara verilər. Kiməsə görə, yalnız "illik ehtiyacdan artıq qalan hər cür gəlir" qismindəki, kiməsə görə isə bütün qismlərdəki xümsödəmə mükəlləfiyyəti yoxdur və bir şey verilməsi lazım deyil. Lənkəraniyə görə, xüms ikiyə bölünməli, İmamın hissəsi şərtlərini daşıyan (camiuş-şərait) müctəhidə verilməli, digər yarısı da ya ona, ya da onun icazəsi ilə Həzrət Peyğəmbərin soyundan gələn (seyid) kasıblara, yetimlərə və yoldaqalmışlara verilməlidir. Müctəhidə veriləcək qism ona verilmədən, yenə onun icazə bildiyi yerlərə də verilə bilər. Bir müsəlman əgər xümsünü təqlid etmədiyi bir müctəhidə verəcəksə, o müctəhid ilə təqlid etdiyi müctəhidin İmama aid hissənin sərf yerləri haqqında eyni fikirlərə sahib olmalarına diqqət yetirməlidir. Xüms veriləcək seyidlərin – 12 İmamı rədd etməmək qeydi ilə – ədalətli (dinini yaşayan) biri olması şərt deyil. Xüms, onun günah etməsinə yardım edəcəksə, yaxud aşkar şəkildə günah edirsə, ona xüms verilməməsi ehtiyat-vacibdir.

## III. Fitr sədəqəsi (fitrə)

"Fitr" oruclu olmamaq deməkdir. Ramazan ayı boyunca oruc tutan müsəlmanlar bu ay sona çatıb, Şəvval ayı girincə, oruca son verir və bayram edirlər. Ərəbcə bu bayrama idul-fitr (Fitr bayramı) deyildiyi kimi, bu gün verilməsi lazımlı sədəqəyə də sədəqətul-fitr (fitr sədəqəsi/fitrə), yaxud zəkatul-fitr (fitir zəkatı/fitrə zəkatı) deyilir.

Fitr sədəqəsi cəfəri, maliki, şafei və hənbəli məzhəblərinə görə, verilməsi mütləq lazım olan bir öhdəçilikdir. Onlar bunu fərz, yaxud fərz mənasında istifadə etdikləri "vacib" sözü ilə ifadə edirlər. Hənəfi məzhəbinə görə, bu sədəqə fərz deyil, məzhəbdəki xüsusi mənası ilə vacibdir. Abdullah ibn Ömərin izah etdiyinə görə, Həzrət Peyğəmbər (s.a.s.) qadın-kişi hər müsəlmana fitr zəkatı (sədəqəsi) olaraq bir sə xurma və ya arpa verməyi fərz etmişdir[77]. İmam Cəfər fitr sədəqəsinin verilməsini, Ramazanda tutulan orucu tamamlayan bir ünsür olaraq qiymətləndirir, oruc tutub, bu sədəqəni əzəldən verməyənin oruc tutmamış sayılacağını deyir. Abdullah ibn Abbas onun verən baxımından Ramazanda tutduğu oruc əsnasında ola biləcək boş və ya ədəbsiz danışma kimi əskiklikləri aradanqaldırıcı, alan kasıb baxımından da yemək ehtiyacını təmin etmək funksiyasına diqqət çəkir[78]. Həqiqətən də, təkbaşına baxıldığında miqdarı etibarilə az görünən bu sədəqə geniş təbəqələr tərəfindən ödənildiyi təqdirdə, ehtiyacların aradan qaldırılmasına böyük təsir göstərir, sevinc və xoşbəxtliyin yayılmasına səbəb olur.

Fitr sədəqəsi verməyin kimlərin vəzifəsi olduğu mövzusunda fərqli fikirlər mövcuddur. Şafei məzhəbinə görə, fitr sədəqəsi ödəməklə məsul olmaq üçün şəri mənada zənginlik şərt de-

---

[77] Buxari, "Sadakatul-fıtr", 1, 2; Müslim, "Zəkat", 12-16.
[78] Əbu Davud, "Zəkat", 17; İbn Macə, "Zəkat", 21.

yil. Bayram günü və gecəsi kifayət qədər təməl qida maddəsinə sahib böyük, kiçik, qadın, kişi hər müsəlmanın onu ödəməsi fərzdir. Fitr sədəqəsi mükəlləfi, baxmaqla məsul olduğu şəxsləri də nəzərə alaraq, özü və onlardan hər biri üçün bir sədəqə (fitrə) verər.

Cəfəri məzhəbinə görə, özünün və ailəsinin illik qazancını təmin edəcək bir işi və ya qazancı olan ağıllı, yetkin hər kəs üçün Fitr sədəqəsi vermək vacib/fərzdir. Bu qədər imkanı olmayan, lakin bir fitr sədəqəsi olacaq qədər buğda və bənzəri maddələrə sahib olan birinin onu fitr sədəqəsi olaraq verməsi də müstəhəbdir. Mükəlləf fitr sədəqəsini həm şəxsi üçün, həm də ehtiyacını təmin etməyə borclu olduğu, yaxud həqiqətən, baxdığı üçün onun ailəsindən sayılan, Ramazanın son axşamı günəş batmazdan əvvəl evinə gələn, həmçinin qonaq olaraq qəbul etdiyi kəslər üçün verər. Bu şəxslərin böyük-kiçik, ya da müsəlman, qeyri-müsəlman olmaları arasında bir fərq yoxdur. Hamısı üçün də fitr sədəqəsi verməlidir. Cəfəri məzhəbi bu mövzuya baxmaqla mükəlləf olmağı deyil, həqiqətən, baxmağı əsas götürür, bu səbəbdən o gecə başqası tərəfindən qonaq olaraq qəbul edilən, eləcə də onun ev əhlindən sayılan kəslər üçün fitr sədəqəsi ödənməz. Onun fitr sədəqəsi onu qonaq qəbul edən şəxs tərəfindən ödəniləcək. O gecə öz evində olmasa da, kimsəyə qonaq olmadığı üçün başqa bir ailənin xalqından sayılmayan, dolanışığı özü tərəfindən təmin edilən yaxınlarının fitr sədəqəsini ödəyər.

Hənəfilərə görə, fitr sədəqəsi dini ölçülərlə zəngin, yəni təməl ehtiyaclarından çox olaraq nisab miqdarı mala sahib olana vacibdir. Zəkatda olduğu kimi, bu malın artan olması və üzərindən bir il keçməsi şərti axtarılmaz. Yenə bu məzhəbə görə, bir kişi həyat yoldaşının ehtiyacını təmin etməklə məsul olduğu halda, fitrəsini verməkdə məsul deyil. Həyat yoldaşı, dini ölçülərə görə, zəngindirsə, şəxsən özü fitr sədəqəsinə mükəlləfidir. Buna baxmayaraq, bir ailə başçısı icazələri olmadan istər həyat

yoldaşının, istərsə yetkinlik dövrünə çatmış və yanında qalan uşaqlarının fitrəsini veribsə, bununla onların öhdəçiliyi yerinə yetirilmiş sayılır.

Fitr sədəqəsinin fərz və ya vacib olduğu vaxt haqqında iki fikir var. Cəfəri və hənbəli məzhəblərinə görə, Ramazan ayı çıxıb, son gününün axşamı günəşin batdığı vaxtlarda yuxarıda izah edilən şərtləri daşıyanlara bunu ödəmək fərz olar. Hənəfi məzhəbinə görə, onun vacibolma vaxtı bayramın birinci günü – fəcrin doğulduğu (imsaq) vaxtdır. İmam Şafei də məzhəbdə daha qüvvətli qəbul edilən rəvayətə görə, birinci, digər rəvayətə görə ikinci fikirdədir. Bu vaxtdan əvvəl verilməsi cəfəri məzhəbinə görə, caiz deyil. Borc olaraq verilib, bu vaxt gəlincə fitr sədəqəsinə hesablana bilər. Şafei məzhəbinə görə, Ramazan ayının başlanğıcından etibarən verilməsi də caizdir. Hənəfi məzhəbinə görə, bir qayda olaraq, bu vaxtdan əvvəl verilməsi caizdir. Bu mövzuda bir zaman məhdudlaşdırması etməyənlərlə birgə Ramazanın son on günü, son on beş günü deyənlər də var. Bütün məzhəblərdə tövsiyə edilən vaxt Ramazanın sona çatdığı axşamdan sonra eyni gecənin səhərində bayram namazından əvvəl ödənməsidir. Tətbiqdə möhtac insanların bayram səhərinə ehtiyacını düşünmədən, rahat girməsi üçün, ümumiyyətlə, daha əvvəldən də verilər. Həzrət Peyğəmbər (s.a.s.) fitr sədəqəsinin insanlar bayram namazı üçün toplanmazdan əvvəl verilməsini istəmişdir[79].

Fitr sədəqəsinin hansı maddələrdən, nə qədər veriləcəyi mövzusunda məzhəblərin fikri belədir: Hənəfi məzhəbinə görə, buğdadan və undan yarım sə[80], xurma, arpa və ya kişmişdən bir

[79] Buxari, "Sədəqətul-fitr", 7; Müslim, "Zəkat", 22-23.

[80] Sə', Peyğəmbər zamanında və bundan sonrakı dövrlərdə satışlarda istifadə edilən bir cür tasdır və buna görə bir həcm ölçüsüdür. Daha sonra ağırlıq ölçüsü olaraq istifadə edilməyə başlanmışdır. Həcm ölçüsü olaraq istifadə edilən bir qaba qoyulan maddələrin ağırlıqlarının fərqli olacağı məlumdur. Buna baxmayaraq çox vaxt məsələn bir sə' buğda ilə xurmanın ağırlıqlarının

sə verilər. Cəfəri məzhəbinə görə, bu dörd maddədən verilməsi daha fəzilətlisidirsə, amma şərt də deyil. Təməl qida maddəsi (qut) olan hər maddədən verilə bilər. Miqdarı da hamısı üçün bir sədir. Maliki, şafei və hənbəli məzhəbinin fikirləri də buna yaxındır. Bundan əlavə, bəzi məzhəblərdə sayılan maddələr arasında öncəlik sırasından da bəhs olunur və birinci sıradakına gücü çatanın digərlərini verə bilməyəcəyi deyilir. Maliki, şafei və hənbəli məzhəblərinə görə, bu maddələrin özünün verilməsi lazımdır, onların yerinə qiymətlərinin pul və ya başqa maddə olaraq verilməsi caiz deyil. Hənəfi və cəfəri məzhəblərinə görə isə qiymətinin verilməsi də caizdir. O, kasıb üçün daha faydalı ola bilər və bunun nəticəsində aldığı pul ilə daha əhəmiyyətli gördüyü ehtiyacını təmin edər.

Fitr sədəqəsinin kimə veriləcəyi mövzusunda bəzi xüsusi vəziyyətlər olsa da, ortaq fikir, zəkat ala biləcəklərə veriləcəyi mövzusundadır. Maliki məzhəbinə görə, zəkat ala biləcək səkkiz sinif arasından yalnız kasıb və miskinlərə verilər, digərlərinə verilməz. Bəzi alimlər də bu fikri – kasıb və miskinlərə üstünlük verilməsini əsas götürürlər. Lənkərani bu mövzuda kasıb şiələrin seçilməsinin müstəhəb olduğunu ifadə edir.

---

fərqli olacağı düşünülmədən hər birinin ağırlıq vahidi olaraq qarşılığı eyni göstərilir. Türkiyədə fitrə hesablamalarında bir sə’ təxminən üç kilo hesablanır. Qərədavi bir sə’ buğdanın ağırlığını cumhura görə 2.176 kq. olaraq təsbit edir (baxın: Fiqhuz-zəkat, I, 371-372; II, 942; Erkal, Zekat, s. 339). Onun təsbitinə görə hənəfilərin sə'i bunun bir yarım qatıdır (II, 943) və bu ölçü alətlərinə sahib olmayanların müraciət edə biləcəyi də sadə və praktik bir yola görə bir sə’, dörd ovucdur (II, 944). Çünki “önə uzadılaraq birləşdirilmiş iki ovucun götürdüyü taxıl miqdarı”nı izah etmək üzrə istifadə edilən həcm ölçü vahidi bir “müd”dür və bir sə’ də dörd müdə bərabərdir. Bir müdün litr olaraq qarşılığı haqqında fərqli təsbitlər var. Bunlardan bəziləri bunlardır: 1.04279 lt., 1.15 lt., 1.053125 lt. Digər tərəfdən tarixdə müdün qarşılığı, ağırlıq vahidi olan ritllə da ifadə edilmişdir. Hənəfilərə görə bir müd iki bağdad ritlinə, digər üç məzhəbə görə isə, bir 1.1/3 bağdad ritlinə bərabərdir. Baxın: Cengiz Kallek, “Müd”, DİA, XXXI, 457.

# III FƏSİL
# MİRAS HÜQUQU

## Ümumi məlumat

İslam dini dünya və axirət həyatının hər ikisinə də xüsusi diqqət yetirir və bunlardan heç birinin kənarda qalmasına yol vermir. Dünyada insanın həyatını davam etdirməsi mal-mülk qazanmaqla bağlıdır. Bu səbəbdən hər bir insan mal-mülk qazanmaq üçün çalışır və bu yolda xeyli çətinliyə dözür. Bununla yanaşı, ölüm dünya həyatının bir gerçəyidir. Qurani-Kərimdə də ifadə olunduğu kimi, hər bir insan mütləq öləcəkdir.

İslamın gətirdiyi dünyagörüşünə görə, insan öz ehtiyacı ilə yanaşı, yaxınlarının və cəmiyyətdə yaşayan köməyə möhtac insanların ehtiyacını da nəzərə almalı və öz tələbatından daha çox mal qazanmağa çalışmalıdır. Beləcə, bu dünyadakı sınağını müvəffəqiyyətlə başa vurmuş olar. Öldükdən sonra isə qazandığı bu malların bir qismi geridə qalar. Onun geridə qoyub-getdiyi malların kimlərə hansı şərtlərlə bölüşdürüləcəyi miras hüququnun mövzusudur. Bu da Quran ayələri ilə açıq bir şəkildə bildirilmişdir. Bundan əlavə, insan öldükdən sonra bəzi haqlar da qoyub gedər. Miras hüququ bu haqlardan hansılarının və nə ölçüdə kimlərə veriləcəyi ilə də məşğul olan elmdir. Digər tərəfdən, insan öldüyü anda onun ehtiyacları sona çatmaz. Bundan sonra onun, ümumiyyətlə, insan qüruruna yaraşan və cəmiyyət içindəki yerinə uyğun bir mərasimlə dəfn edilməyə, varsa, borclarının ödənilməsinə, alacaqlarının toplanılmasına da ehtiyacı var. Vəsiyyətlərinin yerinə yetirilməsi isə insanın başqa ehtiyacıdır. Başqa sözlə, ölünün dəfn işləri, borcları

və alacaqları ilə yanaşı vəsiyyətlə əlaqədar bəzi ümumi qiymətləndirmələr də miras hüququnda araşdırılır.

Miras hüququ fiqh kitablarında "fəraiz" sözü ilə ifadə edilir. "Fəraiz" hissə sözünün cəmidir. Buradakı hissədən məqsəd ölən insanın geridə qoyub-getdiyi malın varislərə düşən payıdır. Beləliklə, fəraiz bəhsi mirasda haqqı olan şəxslərlə, onların hər birinin payını və bu paylarla əlaqəli hesablamaları öyrənən qaydalardan ibarətdir. Müasir mənbələr bu bəhsi "miras hüququ" adlandırır.

## I. MİRAS HÜQUQUNUN MƏNBƏLƏRİ

İslam hüququnun bütün sahələrində olduğu kimi, miras hüququnda da miras bölgüsü ilə əlaqəli hökmlərin Qurani-Kərimdə təfsilatlı yer tutduğu məlumdur. "Nisa" surəsinin 11, 12 və 176-cı ayələrində bununla bağlı geniş izahlar var. Bu surənin əvvəlindən on birinci ayəyədək qeyd olunan fikirlərlə insan, sanki psixoloji baxımdan miras hökmləri ilə qəbula hazırlanır. İlk ayədə insanın yaradılışına diqqət çəkilir. Bu vaxt qadın və kişinin ilk insandan törəyib-gəldiyi, bunlar arasındakı qohumluq əlaqəsi (ərham) vurğulanır.

Daha sonra yetimlərə haqsızlıq edilməməsi, qadınların haqlarının verilməsi istənilir. Malın əhəmiyyətinə diqqət çəkilir və onu xərcləmədə lazımlı bəsirətə sahib olmayanlara (səfeh) sahibi olduqları malların təslim edilməməsi, amma ehtiyaclarının da gözardı edilmədəni, onların yaxşıya istiqamətləndirilməsi əmr edilir. Yetim uşaqların böyüdükdən sonra mallarını idarə edəcək şəkildə yetişdirilmələri, bu səviyyəyə gəldikləri zaman mallarının özlərinə təslim edilməsi nəsihət edilir.

Yeddinci ayədə miras hüququ ilə əlaqədar ümumi bir qiymətləndirmə edilir, ana-ata, yaxud qohumlardan qalan az və ya çox hər cür miras üzərində kişilərin də, qadınların da pay

sahibləri olduqları dilə gətirilir. Miras bölgüsü əsnasında orada olan və varis olmayan digər qohum-əqrəbaya, yetimlərə və yoxsullara da mirasdan bir miqdar hədiyyə edilməsi tövsiyə edilir.

Bundan sonra 11-ci və 12-ci ayələrdə miras hökmləri təfsilatlı olaraq belə açıqlanır:

***"Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür. Əgər (ölən şəxsin) qızlarının sayı ikidən artıqdırsa, mirasın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir nəfər qızdırsa, mirasın yarısı onundur. Övladı olduğu təqdirdə vəfat edənin ata və anasının hər birinə mirasın altıda bir hissəsi verilir. Əgər onun övladı olmayıb, varisi yalnız ata və anadan ibarətdirsə, (malın) üçdə bir hissəsi anaya aiddir (Qalan hissə tamamilə ataya çatır). Əgər ölmüş şəxsin qardaşları və bacıları varsa, ananın hissəsi altıda birdir (Yerdə qalan hissəsi yenə atanın payına düşür). Bu bölgü ölən şəxsin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansı birinin (xeyir və) mənfəət cəhətdən sizə daha yaxın olduğunu bilmədiyiniz üçün bu (bölgü) Allah tərəfindən müəyyən edilmişdir. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!***

***(Ey kişilər!) Əgər (vəfat etmiş) arvadlarınızın uşağı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra qoyub-getdikləri malın yarısı sizindir. Onların övladları olduqda isə mirasın dörddə-biri sizə çatır. Əgər sizin uşağınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və ya borcunuz ödənildikdən sonra qoyub-getdiyiniz malın dörddə-biri arvadlarınızın payına düşür. Övladlarınız olduqda isə mirasın səkkizdə-biri onlara çatır. Əgər (vəfat etmiş) kişi və qadının (ata-anası və övladı olmayıb) eyni anadan tək bir qardaşı və ya bir bacısı varsa, onların hər birinə mirasın altıda-biri düşür. Onların sayı birdən artıq olduqda isə hamısı***

***həmin malın üçdə-birinə şərikdir. Bu, (vərəsələrə) zərər toxunmadığı halda, edilən vəsiyyətin yerinə yetirilməsindən və ya borcun ödənilməsindən sonra icra olunur. (Bütün bunlar) Allah tərəfindən (bəndələrə) tövsiyə olunmuşdur. Allah (hər şeyi) biləndir, həlimdir!" ("ən-Nisa" 4/11-12).***

On ikinci ayənin sonunda qardaşlar, anaları bir ataları ayrı qardaşlar, 176-cı ayədə isə ana-ataları, ya da yalnız ataları eyni olan qardaşlar olaraq təfsir edilmişdir. 176-cı ayədə Allah ölənin uşaqları və atası olmadığı təqdirdə, qardaşların miras haqqını belə açıqlayır:

***"(Ey Rəsulum!) Səndən fətva istəyirlər. De: "Atası və övladı olmayan şəxs (şəxsin mirası) haqqında Allah sizə belə fətva verir: Övladı (və atası) olmayan bir şəxs vəfat etdikdə onun (atabir-anabir və ya yalnız atabir) bir bacısı varsa, qoyub getdiyi malın yarısı bacıya çatır. Övladı (və atası) olmayan bir qadın vəfat etdikdə qardaşı onun varisidir (malının hamısı onun payına düşür). Əgər vəfat edən şəxsin iki (və ya daha artıq) bacısı varsa, mirasın üçdə ikisi onlara çatır. Əgər varislər qardaş və bacılardan (bir qardaş, bir bacı və ya bir neçə bacı-qardaşdan) ibarət olarsa, kişiyə (qardaşa) qadına (bacıya) düşən payın iki misli verilir". Allah bunu sizə doğru yoldan çıxmamağınız üçün aydınlaşdırır. Allah hər şeyi biləndir! " ("ən-Nisa" 4/176).***

Miras hüququna "Ənfal" surəsinin 75-ci və "Əhzab" surəsinin 6-cı ayələrinə də işarə edilir. Qohumlardan bəzilərinin digərlərindən daha üstün tutulduğunu ifadə edən bu ayələr xüsusilə cəfəri mənbələrində əhli-sünnənin əsəbə fikrinə və bəzi məsələlərdəki qız-oğlan ayrımına qarşı dəlil olaraq zikr edilir.

Əhli-sünnə ilə şiə arasındakı fikir ayrılığında Abdullah ibn Abbasdan rəvayət edilən bir hədis əhəmiyyətli yer tutur. Buna görə Peyğəmbərimiz "Payları (fəraiz) sahiblərinə çatdırın. Qalan da ən yaxın kişi kimsənindir", – buyurmuşdur. Cəfəri məzhəbi alimlərinə görə, bu hədisi Abdullah ibn Abbasdan rəvayət

edən Tavus etibarlı bir ravi deyil. Başqa sözlə, onun rəvayət etdiyi bir hədis hökmə əsas götürülə bilməz və miras hüququnda oğlan-qız ayrımı, yuxarıdakı ayələrdə ifadə olunanlarla məhduddur. Bundan əlavə, cəfəri məzhəbinə görə, ümumiyyətlə, kişi qohumlardan ibarət olan və müəyyən pay sahiblərindən artıq qalan hissəni alan "əsəbə" deyə bir varis sinfi də yoxdur.

Bəzi qaynaqlarda qeyd olunan Peyğəmbərin (s.ə.s.) bacını ölənin qızı və ya oğlunun qızı ilə birlikdə varis etdiyini, ona mirasdan qalanı verdiyini, başqa bir məsələdə nənəyə altıdabir hissə verdiyini ifadə edən rəvayətlər də əhli-sünnə miras hüququnun qaynaqları arasında əhəmiyyətli yer tutur. Buna qarşılıq cəfəri mənbələrində ölənin qızı həyatdadırsa, qardaşının da, bacısının da mirasdan pay ala bilməyəcəyinə, mirasın hamısının qıza veriləcəyinə dair imamlardan gələn fikirlər qeyd olunur. Digər tərəfdən, yenə cəfəri qaynaqlarına görə, nənə mirasda müəyyən bir hissə sahibi deyil. O, qohumluq (qan bağı) sistemi içində sıra özünə gəlirsə, o zaman mirasdan payına düşən miqdarı alar.

## II. İSLAM MİRAS HÜQUQUNDA BƏZİ TERMİNLƏR

### A. Miras - tərəkə

"Miras" ərəbcədən "vərəsə"nin məsdərlərindən biridir. Bu söz qalıcı olmaq, soyun bəzi xüsusiyyətlərini almaq, bir kimsənin ölümündən sonra onun sahib olduğu mülkə sahib durmaq kimi mənalara gəlir və "ölünün geridə buraxdıqları" mənasında istifadə edilir.

"Miras" sözünə yaxınmənalı başqa bir söz də "tərəkə"dir. Ərəbcədə "tərikə" şəklində deyilən bu söz ilə ölünün geridə buraxdığı mal-mülk nəzərdə tutulur.

### B. Muris (müvərris)

İslam miras hüququ qaynaqlarında "muris", yaxud "müvərris" terminləri "miras qoyub-gedən" kimsə mənasında işlədilir.

### C. Varis

"Varis" mirasa haqqı çatan, "ölən insanın həyatdakı qohum-əqrəbası" deməkdir.

### Ç. Həcb

Varislərdən hər birinin payı, digər varislərin olmasından təsirlənir. Başqa varislərin varlığı varisin payının bəzən azalmasına, bəzən də heç pay almamasına səbəb olar. Məsələn: əri ölən arvadın uşağı yoxdursa, mirasın yarısını, uşağı varsa, dörddəbirini alar. Buna "həcb" deyilir.

### D. Hirman

"Hirman" "məhrumiyyət" deməkdir. Miras hüququnda isə bir varisin mirasdan məhrum olması mənasında işlədilir. Məsələn: varisi ola biləcəyi birini öldürən kimsə mirasdan məhrum edilər. Öldürmə miras maneələrindəndir.

**E. Övl**

Miras hüququnda bəzən varislərə düşən payların cəmi ortaq məxrəcdən çox olar. Belə olduğu halda, ortaq məxrəc paylarının cəminə bərabərləşdirilər. Buna "övl" deyilir.

**Ə. Rədd**

Rədd məsələsi övlun ziddidir. Bəzi hallarda varislər mirasdan özlərinə düşən payları aldıqdan sonra artıq mal qalar. Məsələn: ölənin varis olaraq bir qızı və arvadı varsa, qızının payı 1/2, arvadınınkı 1/8-dir. Yəni miras səkkiz hissəyə ayrılır və qızı bunun yarısı olan dörd hissəni, arvadı da səkkizdəbir olan hissəni aldıqda, geriyə üç pay qalar. Bu kimi məsələlərə "rəddiyə" deyilir. Belə hallarda mirasın artıq qalan qisminin kimə aid olacağı barəsində iki əsas fikir mövcuddur. Maliki və şafei məzhəblərinə görə, artıq qalan hissə varislərə verilməz, dövlətin olar. Hənəfi, cəfəri və hənbəli məzhəblərinə görə isə varislərə verilər. Hansı əsaslara görə və kimlərə veriləcəyi mövzusunda fikir ayrılığı var. Məsələn: ölənin varis olaraq yalnız bir qızı varsa, mirasının yarısı əlaqədar ayənin gərəyi olaraq, qalan yarısı da rədd yolu ilə ona verilər. Həyat yoldaşına rədd yolu ilə pay verilib-verilməyəcəyi ixtilaflı mövzudur. Hənəfilər ölənin arvadına da, ərinə də rədd yolu ilə pay verməzlər. Cəfərilər ölənin qohumlarından, yaxud digər varislərdən biri varsa, arvada rədd yolu ilə mirasdan pay verməzlər.

## III. MİRASIN ŞƏRTLƏRİ

Miras hüququ ilə əlaqədar hökmlərin tətbiq olunması üçün murisin, yəni miras buraxanın ölmüş və varisin də sağ olması lazımdır.

### A. Miras qoyanın vəfat etməsi

Daha əvvəl də qeyd edildiyi kimi, miras vəfat edənin geridə qoyduğu mallar və haqlardır. Başqa sözlə, mirasdan danışmaq üçün miras qoyanın ölmüş olması lazımdır. Həyatda olan birinin mirası bölünə bilməz. Belə bir kimsə sahib olduğu mallar və haqlarla əlaqədar bəzi işlər görsə, məsələn, mallarını uşaqları arasında bölsə və bunlara xalq arasında “miras” deyilsə belə, bu əməliyyat hüquqi baxımdan miras deyil.

Miras qoyanın ölümü həqiqi, hökmi və ya təqdiri ola bilər. Bir insanın həyatdan köçməsi həqiqi ölümdür. Məfqudun (itkin adam) məhkəmə qərarı ilə ölümünə hökm edilməsi, yaxud lazımi şərtlərin meydana gəlməsi halında mürtədin (İslamdan dönən) ölü sayılması hökmi ölümdür. Bir müdaxilə nəticəsində ölü doğulan və ya düşən dölün ölümünə isə təqdiri ölüm deyilir.

### B. Varisin həyatda olması

Bir şəxsin varis ola bilməsi üçün miras qoyanın öldüyü anda həyatda olması lazımdır. Ölümdə olduğu kimi, həyatda olmaq da həqiqi və təqdiri olmaqla, iki qismə bölünür. Dölün ana qarnındakı həyatı təqdiri, doğulduqdan sonra ölüməqədərki həyatı həqiqidir. İslam miras hüququnda təqdiri həyatın diqqətə alınması üçün ya canlı doğum ilə həqiqi həyata çevrilməsi, ya da bir müdaxilə nəticəsində reallaşan təqdiri ölüm ilə sona çatması lazımdır. Döl hər hansı bir müdaxilə edilmədən düşdüyü təqdirdə, varis olmaz. Döl sağ doğulsa və çox qısa bir müddət sonra ölsə belə, sağ olaraq doğulması ilə varis və hə-

qiqi ölümü ilə də miras qoymuş olar. Döl bir insanın təsiri ilə düşdüyü təqdirdə, müdaxilə edənin, yaxud yaxınlarının ödəyəcəyi təzminat dölün varisləri arasında bölünər. Bundan başqa, hənəfi məzhəbinə görə, dölə bu şəklə düşməzdən əvvəl, hər hansı bir yaxınından miras qalmışsa, bu düşmə hadisəsi sağ doğum kimi qiymətləndirilir və o miras malları əvvəl ona, sonra da düşmə hadisəsi ilə onun varislərinə keçir.

Bu şərtə bağlı olaraq İslam miras hüququnda bəzi məsələlər ortaya çıxır. Bunlar döl, məfqud və mürtəd ilə əlaqədar miras hökmləridir. Döl və məfqudun mirasları gözlədilər, daha sonra isə reallaşacaq nəticəyə görə tətbiq edilər. Mürtədin xüsusi vəziyyətinə daha əvvəl işarə etmişdik. Bu şərtlə əlaqədar başqa bir problem də ölüm tarixinin bilinməməsidir. Bu barədə qısaca məlumat vermək lazımdır.

### C. Ölüm tarixinin bilinməsi

İslam miras hüququnda kimin-kimə varis olacağını müəyyənləşdirmək üçün miras qoyan vəfat etdiyi zaman həmin şəxslərdən hansının həyatda olduğunu müəyyənləşdirmək lazımdır. Halbuki zəlzələ kimi təbii fəlakətlərdə, yaxud böyük qəzalarda və buna bənzər hallarda aralarında miras əlaqəsi olan bir çox şəxs ölərsə bunlardan kimin əvvəl öldüyünü təyin etmək mümkün olmaz. Bu vəziyyətdə əgər kimin əvvəl öldüyünü təsbit etmək mümkün olsa, çox az bir zaman fərqi ilə də olsa, sonra ölən əvvəl ölənə varis çıxar. Kimin əvvəl öldüyü təsbit edilə bilinmirsə, hamısı eyni anda ölmüş qəbul edilir və onlar bir-birlərinə varis olmazlar. Ölümlər fərqli hadisələr səbəbindən, hətta fərqli məkanlarda olsa da, ölümlərdəki zaman sıralamasının bilinmədiyi hallarda, yenə bu hökm tətbiq olunar. Bu mövzuda məzhəblər arasında bir məsələ xaricində böyük bir fikir yaxınlığı, hətta birliyi mövcuddur. Bu məsələ isə kütləvi ölüm hadisələridir.

Cəfəri məzhəbi bu iki hadisədə ölüm vaxtı bilinməyən şəxslərdən ikisinin də malı varsa, bunlardan hər birinin digəri-

nə varis olacağı fikrini irəli sürür. Cəfərilərin əksəriyyəti, ümumiyyətlə, sünni məzhəblərlə eyni fikirdə olduqları halda, bu iki məsələnin hökmünü digərlərindən fərqli qəbul etmişlər.

**Ç. Miras maneəsinin olmaması**

Miras hüququ hökmlərinin tətbiq olunması üçün miras qoyanla varis arasında miras maneələrindən heç birinin olmaması lazımdır. Bu maneələrdən biri varsa, miras səbəbi olduğu halda, varis mirasdan hissə ala bilməz. İslam miras hüququnda bu maneələrdən biri olmadığı təqdirdə, miras qoyanın, yaxud başqa birinin varisi mirasdan məhrum etməsi mümkün deyil.

# IV. MİRAS HAQQI QAZANDIRAN SƏBƏBLƏR

Miras haqqı qazandıran səbəblər evlilik bağı, qan qohumluğu və vəla olmaq üzrə üç yerə bölünür:

## A. Evlilik bağı

Aralarında evlilik bağı davam edən həyat yoldaşlarından biri öldüyü təqdirdə, sağ qalan ölənə varis olar. Burada evlilik həyatının həqiqətən başlanmış olması deyil, nikah əqdinin səhih bir şəkildə tərtib edilərək, hüquqi varlıq qazanması və bu varlığını davam etdirməsi əsasdır.

Cəfəri məzhəbinə görə, mütə nikahında ər-arvad arasında varislik olub-olmayacağı mövzusunda fərqli qiymətləndirmələr mövcuddur. Üstün görüşə görə, xüsusi bir şərt halında əqddə qeyd edilmədikdə ər-arvad arasında varislik olmaz.

## B. Qan qohumluğu

Qan qohumlarında bir qisminin mirasdakı payları Qurani-Kərimdə açıq olaraq ifadə olunmuşdur. Bunlara "müəyyən hissə sahibləri" mənasında "əshabi-fəraiz" deyilir. Bunlar ana, ata, qız, bacı ilə ana bir qardaşlardır. Baba, nənə və oğlun qızı da sünnə və ya ictihad ilə bunlara daxil edilmişdir.

## C. Vəla

“Vəla” yaxınlıq, dostluq, sevgi, səlahiyyət, mülkiyyət kimi mənalar ifadə edir. Bu kökdən gələn "mövla" sözü də “sahib”, “kölə”, “kölə azad edən”, “azad edilmiş kölə”, “yoldaş”, “qohum”, “müttəfiq”, “ortaq”, “qonşu” kimi fərqli mənalarda istifadə edilir.

"Mövləl-müvalat" – iki şəxs arasında xüsusi razılaşma ilə qurulmuş hüquqi əlaqəyə deyilir. Bu razılaşma ilə tərəflərdən biri digərinin varisi, digəri də onun əqiləsi olar. Razılaşmanın tərəflərdən hər birinin həm mövla, həm də əqilə olmaq üzrə edilməsi də mümkündür.

## V. MİRAS ALMAĞA MANE OLAN HALLAR

Miras səbəblərindən birinə bağlı surətdə varis şəxsin miras hüququna görə özünə düşən hissəni ala bilməsi üçün mirasa maneçilik törədən hallardan birinin yoxluğu lazımdır. Miras maneələrindən biri varsa, miras səbəbi olsa da, həmin şəxs mirasdan bir şey ala bilməz, bu miras hüququnda qəbuledilməzdir. Miras maneələrindən birinin varlığından ötrü mirasdan hissə ala bilməyən kimsəyə "məhrum" deyilir və digər varislərə təsir etmə baxımından onun vəziyyəti "məhcub"dan fərqlidir. Məhcub sıra gəlmədiyi üçün özü varis olmasa da, başqalarının hissəsinə təsir edər. Halbuki məhrum "Yox" hökmündə olduğundan, başqalarının hissəsinə təsir etməz. Miras maneələrindən birinin olması səbəbindən mirasdan məhrum olan adamın bu vəziyyəti ölüyə onun vasitəsilə qohum olan digər varislərin, məsələn, onun uşaqlarının varisliyinə maneə olmaz.

İslam miras hüququnda miras maneələri öldürmə (qətl), din fərqi, ölkə fərqi və köləlik sayılır. İndiki vaxtda köləlik olmadığı üçün bunlardan yalnız üçünü qısaca açıqlayacağıq.

### A. Öldürmə (qətl)

Miras qoyan şəxsi öldürən kimsə ona varis ola bilməz. Bu hökm Həzrət Peyğəmbərin hədisinə və əldə edəcək mənfəəti hüquqi xarici yollarla tezləşdirmə təşəbbüsündə olan adamı o mənfəətdən faydalandırmayaraq cəzalandırmağı nəzərdə tutan fiqh qaydasına əsaslanır. Məcəllənin 99-cu maddəsi olaraq, "Kim ki, bir şeyi vaxtından əvvəl istical edərsə, məhrumiyyətlə cəzalandırılar", – şəklində ifadə edilmişdir.

Qəsdən öldürmənin mirasa mane olacağı mövzusunda xaricilər istisna olmaqla məzhəblər arasında fikir birliyi var. Bu hökmün qəsd ünsürü olmayan öldürmələrə tətbiq ediləcəyi

mövzusu mübahisəlidir. Cəfəri və maliki məzhəblərinə görə, varis olmağa maneçilik törədən öldürmə yalnız qəsdli və düşməncəsinə öldürmədir. Bunun birbaşa qatil tərəfindən törədilməsi ilə onun etdiyi bir hərəkətin ölümə səbəb olması arasında fərq yoxdur. Əsas olan öldürmənin hüquqazidd və qəsdən törədilmiş olmasıdır. Səhvən, özünümüdafiə səbəbi ilə, yaxud hüququn qəbul etdiyi haqq, ya da vəzifə öhdəliyindən meydana gələn öldürmələr mirasa mane olmaz. Hənəfi məzhəbinə görə, qəsd ünsürü olmasa da, cəzai səlahiyyəti olan birisi tərəfindən reallaşdırılan öldürmə mirasa manedir. Lakin hüququn qəbul etdiyi bir haqqın istifadə edilməsi nəticəsində meydana gələn öldürmə və öldürmədə birbaşa iştirak etməyib, sadəcə, səbəb olmaq (təsəbbüb) istisnadır. Onlar mirasa mane olan öldürməyi qısaca "nəticəsində qisas və ya kəffarə lazım olan öldürmə" olaraq ifadə edirlər. Şafei məzhəbi hüquqi baxımdan haqlı olmağı diqqətə almır və haqlı-haqsız, qəsdli-qəsdsiz hər cür öldürməyi mirasa maneə sayır.

### B. Din fərqi

Müsəlman öldüyü təqdirdə, varisləri arasında qeyri-müsəlman varsa, bu vəziyyət mirasa mane olar. Bu mövzuda fikir birliyi mövcuddur. Fəqihlərin əksəriyyətinə görə, müsəlman olmayan biri öləndə müsəlman da ona varis sayıla bilməz. Bu baxımdan, sanki müsəlmanlıq bir din və digər dinlər də ayrı bir din kimi sayılmış, iki ayrı din mənsubları arasında varislik qəbul edilməmişdir. Bu vəziyyət Peyğəmbərin hədisinə əsaslanır. Cəfəri məzhəbinə görə, müsəlman qeyri-müsəlmana varis olar, lakin qeyri-müsəlman müsəlmana varis ola bilməz. Onlar bunu başqa bir hadisə ilə əsaslandırırlar. Müaviyə də məhkəmələrə bu şəkildə əmr vermiş və daha sonra Ömər b. Əbdüləziz yeni bir əmrlə köhnə tətbiqə qayıdışı təmin etmişdir. Əksəriyyətin fikirinə görə, miras maneəsi olma mövzusunda varislərin, miras qoyanın öldüyü əsnadakı dini əsas götürülər, daha sonra-

kı dəyişikliklər diqqətə alınmaz. Cəfəri və hənbəli məzhəblərinə görə, miras bölgüsü aparılmadan əvvəlki dəyişiklik nəzərə alınır və miras qoyan ilə varis bölgü əsnasında eyni dindən olanlar arasında miras hökmləri tətbiq olunur. Müsəlman olarkən dinini tərk edənlərin (mürtəd) vəziyyəti buradakı din fərqindən ayrı düşünülməlidir. Onun haqqında məzhəblərə görə fərqlilik göstərən xüsusi hökmlər var.

İslam hüquqçularının əksəriyyətinə görə, İslam ölkəsində olan qeyri-müsəlmanlar fərqli dinlərə mənsub olsalar da, bu vəziyyət onların öz aralarında miras maneəsi təşkil etməz. Hənəfi, cəfəri və şafei məzhəbləri bu fikirdədir. Cəfəri məzhəbində bu mövzuda xüsusi bir hökm mövcuddur. Buna görə qeyri-müsəlman varislər arasında heç müsəlman yoxsa, o zaman bir-birlərinə varis olarlar. Varislər arasında müsəlman varsa, mirasın hamısını o alar, qeyri-müsəlman varislərə bir şey verilməz. Digər məzhəblərdə qeyri-müsəlmanları dinlərinə görə ayıraraq, yaxud dinlərini qruplaşdıraraq bir-birlərinə varis edən fikirlər var.

Müsəlmanlar arasındakı məzhəb fərqliliyi mirasa maneə deyil. Məzhəb fərqliliyi din fərqliliyi kimi deyil. Buna görə də əlaqədar kitablar miras maneələri arasında yalnız din fərqliliyini sayar və məzhəb fərqliliyinin mirasa mane olmadığını ifadə etməyə ehtiyac duymazlar. Özlərini müsəlman hesab etsələr belə, islami qanunları rədd edən həddi aşmış məzhəblər bundan ayrı tutulmuşlar. Onların bu şəkildəki həddi aşan fikirləri özlərinin İslam dini mənsubu saymalarına maneçilik yaradar. Bu mövzuda ölçü sahib olduqları görüşün, o kəsləri İslam çərçivəsi içində saymağa mane olub-olmamasıdır.

### C. Ölkə fərqi

Müsəlmanlar fərqli ölkələrdə yaşasalar da, bir-birlərinə varis olarlar. Hənəfi və şafei məzhəblərinə görə, İslam ölkəsi vətəndaşı olan qeyri-müsəlmanlar (zimmi) ilə İslam ölkəsi vətəndaşı

olmayan qeyri-müsəlmanlar bir-birlərinə varis sayılmazlar. Bu məzhəblər iki ayrı ölkə vətəndaşı olmağı qeyri-müsəlmanlar baxımından miras maneəsi qəbul etmişdir. Cəfəri məzhəbinə görə isə ölkə ayrılığı qeyri-müsəlmanlar haqqında da miras maneəsi sayılmaz. İndiki vaxtda İslam miras hüququnu tətbiq edən bəzi ölkələr "qarşılıqlılıq" qanununu əsas götürərək, bu iki fikrin müddəaları əsasında yeni hökmlər mənimsəmişlər. Bu məsələ araşdırılarkən, ayrıca ölkə anlayışının mahiyyəti və əhatəsi də nəzərə alınmalıdır.

## VI. MİRAS ÜZƏRİNDƏKİ HAQLAR VƏ BORCLAR

### A. Borclar

Miras üzərindəki haqların ən önəmlisi borcların ödənilməsidir. Borclu olaraq ölənin qulhaqqı sayılan məsuliyyətdən azad edilməsi üçün bu zəruridir. Bunlar qulhaqqı olan borclardır. Allah haqqı olan borcların ödənilməsi isə alimlər arasında mübahisəlidir.

### B. Cənazə xərcləri

Hər insanın sağlığında olduğu kimi, öldükdə də şərəfinə uyğun bir rəftar görmə haqqı mövcudddur. Sağ olan insan üçün paltar nə qədər əhəmiyyətlidirsə ölü üçün də kəfən eyni dərəcədə əhəmiyyətlidir. Xüsusilə övrət yerini örtəcək qədər paltar və ya kəfən zəruri ehtiyaclardan sayılmışdır. Bu xərclər də mirasla qarşılanır.

### C. Vəsiyyətlərin yerinə yetirilməsi

Qurani-Kərimdə varislər haqlarını borclar ödənildikdən və vəsiyyətlər yerinə yetirildikdən sonra alacaqları bildirilir və bu, iki ayədə dörd dəfə vurğulanır. Peyğəmbər də bir səhabənin malının hamısını vəsiyyət etmə istəyinə qarşı çıxmış, vəsiyyəti malın üçdəbiri ilə məhdudlaşdırmışdır. İmam Cəfər Sadiq istər qadın olsun, istər kişi insanın malındakı vəsiyyət haqqının üçdəbir olduğunu ifadə etmişdir.

### Ç. Miras bölgüsü

Ölünün mirasından cənazəsi qaldırılıb, borcları ödənilib və vəsiyyətləri yerinə yetirildikdən sonra, geridə qalan qismi varislər arasında bölünər.

## VII. VARİSLƏR VƏ PAYLARI

Miras hökmlərinin çoxu Qurani-Kərimdə yuxarıda tərcüməsini verdiyimiz ayələrdə açıqlanmışdır. Geriyə qalan hökmlər isə məzhəblər arasında fərqliliklər yaratmışdır. Burada hənəfi və cəfəri məzhəblərinə görə miras bölgüsünə yer veriləcək.

### A. Hənəfi məzhəbinə görə miras bölgüsü

Varislər on qrupa ayrılır:

1) Əshabi-fəraiz (müəyyən pay sahibləri);

2) Əsəbei-nəsəbiyyə;

3) Mövləl-ətəqə (miras buraxan azad kölə isə onu azad edən şəxs);

4) Məvləl-ətəqənin əsəbəsi;

5) Əshabi-rədd (artan mirası rədd yolu ilə alacaq olanlar);

6) Zəvil-ərham (ilk iki maddədəkilərin xaricində qalan qohumlar);

7) Mövləl-müvalat (xüsusi razılaşmalı varis);

8) əl-Müqarru ləh min-nəsəbi ələl-ğeyr (ölənin doğma olmayan birini nəsəbi kimi təsdiq etməsi halında bu təsdiqə bağlı olaraq qohumu sayılan yaxını);

9) Lehində üçdəbirdən çox vəsiyyət edilən kimsə;

10) Beytul-mal (dövlət).

"Əshabi-fəraiz" müəyyən hissə sahibi varislər deməkdir. Bunlar belə sıralanır: ölənin arvadı, əri, anası, atası, qızı, oğlunun qızı, babası, nənəsi, bacısı, ana bir qardaşı.

Oğlun qızı dedikdə ölənin öz oğlunun qızı ilə yanaşı, oğuldan oğula davam edən bir qohumluq əlaqəsi içində qalan qız nəvələrdir. Baba dedikdə, atanın atası və onun atası şəklində araya qadın girmədən davam edən babalardır. Əshabi-fəraizin birlikdə olduğu digər varislərə görə dəyişən müəyyən hissələri var. Xüsusilə yuxarıda ilk beşdən sonra sayılanlar çox vaxt

mirasdan heç pay ala bilmirlər. Fəraiz (miras hüququ) kitablarında onların hər birinin hansı hallarda nə qədər hissə sahibi olacağı tək-tək sayılar və bu halların cəmi qırxa çatar.

"Əsəbə" adlanan varis qrupu dedikdə mirasdan müəyyən bir payı olmayan, müəyyən pay sahibi varislər haqlarını aldıqdan sonra, geridə qalan mirasın hamısını alan qohumlar nəzərdə tutulur. Bunlar üç qrupa ayrılır: Bir insanın araya qadın girməyən qohumluq bağı ilə bağlı olduğu yaxınlarına "əsəbə bi nəfsihi" deyilir. Bunların ən üstünü ölənin oğullarıdır. Vəfat edənin, əslində, əshabi-fəraizdən olan qızları ölənin oğulları ilə və oğlunun qızları da oğlun oğulları ilə birlikdə olsa, əsəbə olarlar. Ana-ata bir, yaxud ata bir bacılar da qardaşlarla birlikdə əsəbə olarlar. Bunlara "əsəbə bil-qeyr" (başqası vasitəsilə əsəbə) deyilir. Ölənin, eyni zamanda, əshabi-fəraizdən olan ana-ata bir və ya ata bir bacıları ölənin qızları ilə birlikdə olsa da, əsəbədir. Bu üç əsəbə qrupu arasında üstünlük sıralaması yoxdur.

Bu üç qrupdan hansına aid olduğuna baxılmadan əsəbə arasındakı üstünlük sıralaması aşağıdakı əsaslara görə edilir:

Əsəbə hər birinə "cəhət" deyilən dörd sinfə ayrılır:

**Birinci sinif.** Ölənin füruu (alt soy qohumları). Ölənin oğlu və qızı, nə qədər davam edirsə-etsin, oğuldan-oğula olmaq şərti ilə, nəvələri bu sinfə daxildir; oğlun oğlu və qızı, oğlunun oğlunun oğlu və ya qızı kimi. Yuxarıda qeyd edildiyi kimi, qızların əsəbə olmaları, öz səviyyələrində yaxud da daha aşağı dərəcədə ən az bir oğul və ya oğlunun oğlu olmasına bağlıdır.

**İkinci sinif.** Ölənin üsulu (üst soy kişi qohumları). Bunlar ölənin atası, atasının atası, onun atası şəklində davam edən babalarıdır.

**Üçüncü sinif.** Ölənin atasının füruu. Bunlar ölənin doğma və ya ata bir qardaş və bacıları ilə qardaşlarının oğulları, onların oğulları şəklində davam edən qardaş (bacı) oğullarıdır.

**Dördüncü sinif.** Babanın füruu. Bunlar ölənin əmiləri, əmilərinin oğulları, onların oğulları şəklində davam edən qohumlarıdır.

Əsəbə arasındakı varislik sıralaması əvvəlcə buradakı sinif əsasına görə edilir. Birinci sinifdən biri varkən, digər siniflərdən, yaxud ikincidən varkən, üçüncü və dördüncü sinifdən biri əsəbə ola bilməz. Burada "əsəbə ola bilməz" ifadəsi "varis ola bilməz" mənasını verməz. Məsələn: ölənin oğlu həyatdadırsa, atası əsəbə ola bilməz, amma müəyyən hissə sahibi olaraq mirasdan payını alar. Eyni sinifdəki əsəbələr arasında dərəcəsi ölənə daha yaxın biri varkən, uzaq olanlar əsəbə sayıla bilməz. Məsələn: ölənin oğlu həyatdadırsa, oğlun oğlu, atası həyatdadırsa, atanın atası əsəbə ola bilməz. Üçüncü və dördüncü sinif əsəbələr arasında ayrıca qohumluq əlaqəsinin qüvvəti də nəzərə alınar. Əsəbəlik sırası qardaşlara gəlibsə, doğma qardaş varkən, ata bir qardaş əsəbə olaraq mirasdan pay ala bilməz. Buradakı sıralamanı belə yekunlaşdıra bilərik: Əvvəl sinif sırası (قرب الجهة); eyni sinif içində dərəcə yaxınlığı (قرب الدرجة); eyni dərəcədə qohumluq qüvvəsi (قوّة القرابة) diqqətə alınaraq üstünlük sırası təsbit edilər.

Burada əshabi-fəraizə yer veriləcək.

**Ölənin arvadı**

Ölənin uşağı (oğlan və ya qız), yaxud oğlunun uşağı varsa, mirasın səkkizdəbirini, yoxdursa, dörddəbirini alar.

**Ölənin əri**

Ölənin uşağı (oğlan, yaxud qız) və ya oğlunun uşağı varsa, mirasın dörddəbirini, yoxdursa, ikidəbirini (yarısını) alar.

**Ölənin anası**

Ölənin uşağı və ya oğlunun uşağı, ya da ən azı iki qardaşı (doğma və ya ögey) varsa, mirasın altıdabirini alar.

Yuxarıdakılar yoxdursa və varis olaraq ölənin anası ilə birlikdə ölənin atası və yoldaşı qalıbsa, yoldaşı payı aldıqdan sonra anası qalanın üçdəbirini alar.

Birinci halda sayılanlara əlavə olaraq, ölənin yoldaşı da yoxdursa, anası mirasın hamısının üçdəbirini alar.

**Ölənin nənəsi**

Ölənin anası varsa, nənə pay almaz.

Ölənin anası yoxdursa, altıdabirini alar.

**Ölənin atası**

Ölənin oğlu və ya oğlunun oğlu varsa, altıdabirini alar.

Ölənin oğlu və ya oğlunun oğlu yoxdursa, lakin ən az bir qızı və ya oğlunun qızı varsa, mirasın əvvəl müəyyən hissə sahibi olaraq altıdabirini, sonra da əgər qalan olsa, əsəbə sifəti ilə qalanını alar.

Ölənin oğlu, qızı və ya oğlunun oğlu, qızı yoxdursa, əsəbə olar. Bu vəziyyətdə digər hissə sahibləri hissələrini aldıqdan sonra qalanını alar.

**Ölənin babası**

Ölənin ata babası dörddəbirini alar.

Ölənin atası varsa, baba mirasdan pay almaz.

**Ölənin qızı**

Ölənin oğlu yox və bir qızı varsa, mirasın yarısını alar.

Ölənin oğlu yox və birdən çox qızı varsa, qızlar mirasın üçdəikisini alar və aralarında bərabər olaraq bölər.

Ölənin oğlu varsa, qızları da onunla birlikdə əsəbə olar və digər varislər hissələrini aldıqdan sonra, qalanını aralarında ikili-birli bölərlər. Yəni bir oğlana iki qız payı qədər verilər.

**Ölənin oğlu**

Ölənin oğlu əsəbədir. Başqa sözlə, pay sahibi varislər haqlarını aldıqdan sonra qalanı alar. Onunla birlikdə bacılar varsa,

qızlar da əsəbə olacağı üçün qalan mirası bir oğlan, iki qız hissəsi alacaq şəkildə bölərlər.

**Bacı**

Bacı tək olduqda mirasın yarısını alar.

İki və daha çox olarsa, mirasın üçdəikisini bərabər bölüşərlər.

Qardaşla birlikdə olduqda, ikili-birli əsəbə olarlar.

Ölənin qızı, yaxud oğlunun qızı, oğlunun oğlunun… qızı ilə birlikdə olarlarsa, əsəbə hesab edilib qalanını alarlar.

Oğul və oğlunun oğlu ilə birlikdə olarlarsa, mirasdan pay almazlar.

**B. Cəfəri məzhəbinə görə miras bölgüsü**

Miras səbəbləri baxımından, cəfəri məzhəbi ilə əhli-sünnə məzhəbləri arasında fərq yoxdur. Miras səbəbləri hər ikisində də evlilik bağı, nəsəb və vəla olaraq açıqlanır.

**Ər-arvad**

Ər-arvadın miras payları ayədə açıqlandığı üçün bu mövzuda məzhəblər arasında əhəmiyyətli bir fərq yoxdur.

**Ölənin arvadı**

Ölənin uşağı (oğlan və ya qız) və ya nəvəsi varsa, mirasın səkkizdəbirini, yoxdursa dörddəbirini alar.

Bu mövzudakı əhəmiyyətli fərq ayədə keçən "uşaq" sözünün şərhi haqqındadır. Hər iki məzhəbə görə də ölənin uşağı dedikdə, oğlan və qız uşaqları nəzərdə tutulur. Ölənin öz uşağı yoxdursa, sünni məzhəblərə görə oğlunun, yaxud oğlunun oğlunun uşaqları öz uşaqları kimi qəbul edilir. Qızının uşaqları olsa belə, oğlunun uşaqları yoxdursa, ölənin uşağı yox sayılır və həyat yoldaşı buna görə hissə alar. Cəfəri məzhəbinə görə, ölənin uşağı yoxdursa, oğlunun uşaqları ilə yanaşı qızının uşaqları da onun öz uşaqları sayılar və ölən həyat yoldaşı,

uşaqlı həyat yoldaşı qəbul edilərək miras bölgüsü aparılar. Ayrıca qadının, ərin daşınmaz mülkünə varis olması mövzusunda da yuxarıda izah edilən fikir ayrılığı var.

**Ölənin əri**

Ölənin uşağı (oğlan və ya qız) və ya nəvəsi varsa, mirasın dörddəbirini, yoxdursa, ikidəbirini (yarısını) alar.

Uşaq sözü haqqındakı şərh fərqi burada da eyni şəkildə keçərlidir.

## Qohumların miras bölgüsü

Sünni məzhəblərdəki əsəbə bölünməsinə bənzər bir şəkildə ölənin qohumları üç sinfə ayrılır. Cəfəri məzhəbində əsəbə anlayışı olmadığını daha əvvəl qeyd etmişdik. Buna görə bu təsnif əsəbə təməlində deyil, qohumluq təməlində edilir.

**Birinci sinif** – ölənin anası, atası, uşaqları və nəvələridir.

**İkinci sinif** – ölənin babaları, nənələri, qardaş və bacıları, onların uşaqları, nəvələridir. Babalar və nənələr ölüyə nə qədər uzaq olsalar da, bu sinifdədir.

**Üçüncü sinif** – ölənin əmiləri, bibiləri, dayıları, xalaları və bunların uşaqları, uşaqlarının uşaqlarıdır. Ölənin əmi, dayı, bibi, xalası və bunların uşaqlarından kimsə yoxdursa, ananın, atanın əmiləri, bibi, dayıları, xalaları və bunların uşaqları varis olar.

Bir əvvəlki sinifdən varis var ikən, sonrakı sinifdən biri varis ola bilməz. Təsniflər öz arasında dərəcələrə ayrılır. Məsələn: ölənin uşaqları birinci dərəcə, uşaqların uşaqları ikinci dərəcə, onların uşaqları üçüncü dərəcədə yer tutur. Eyni şəkildə babalar və nənələr də, ataların və anaların ataları və anaları, onların ataları və anaları şəklində sıralanır. Dərəcələr arasındakı sıralama əhəmiyyətlidir. Eyni dərəcədəki qohumlar arasın-

da, ölən adam ilə qohumluq əlaqəsinin ana və ya ata ilə təmin edilməsi varis olma baxımından təsirsiz görülsə də hissə baxımından təsirlidir. Ata tərəfindən qohumlar iki, ana tərəfindən qohumlar bir hissə alar. Məsələn: əmi ilə dayı üçüncü sinifdən eyni dərəcədə qohum olub hər ikisi də mirasdan hissə alar, lakin əminin hissəsi, dayınınkının iki qatıdır.

# IV FƏSİL
# MÜASİR MƏSƏLƏLƏR

## I. FAİZ VƏ İSLAM BANKÇILIĞI

İslamda əsl və təbii qazanc yolu əməkdir. Peyğəmbərimiz "Heç kim əlinin əməyindən daha xeyirli bir şey yeməmişdir" (Buxari, Buyu, 15) buyurmuşdur. Buna görə də İslam halal qazancı ibadət kimi qəbul edərkən oğurluq, qəsb, rüşvət, qumar, faiz kimi haqsız mal əldə etməyi qəti bir şəkildə qadağan etmişdir. İslama görə, qazancın halal ola bilməsi üçün qarşılığı olmalıdır. Faiz isə qarşılığı olmayan bir qazancdır.

İslama görə faiz alış-verişdə şərt qoyulan qarşılıqsız artıq qazancdır. Bir ticarət, yaxud borc münasibətində tərəflərin hər birinin digərindən aldığı və verdiyi mal, yaxud mənfəət var. Qarşılıqlı alınıb-verilən bu mal-mənfəətdən əlavə qazanc təmin edən şərtlər "faiz" adlanır. Məsələn: pula ehtiyacı olan bir şəxs başqasından 100 manat borc aldıqda, borc verən tərəf borcu qaytararkən 100 manatdan əlavə 1 manat məbləğ də tələb edərsə, bu, faiz olar. Burada inflyasiya miqdarının hesablanması istisna edilir.

Ticarət müqaviləsinin hər iki tərəfində olana bərabər nisbətdə risk gətirərkən, faizdə sərmayə sahibi risk almadan, əmək sərf etmədən qazanc əldə edər. Halbuki, iqtisadiyyatın yazılmamış qanununa görə, bütün sərmayələr risk altındadır. Bu riski hər iki tərəf üzərinə götürərsə, iflasların sayı azalar və iqtisadi həyat daha fəal olar. Risk təhlükəsi bir çox insanı iş görməkdən çəkindirir və daha güvənli qazanc yolu olan faizə meyil etdirir. Digər tərəfdən, iş həyatına girərək, əmək sərf etmiş insan həm

real qazanc əldə etmiş olur, həm də başqalarının iş tapmasına şərait yaradır. Bu da cəmiyyətdə işsizliyin aradan qalxmasına və maddi rifahın yayılmasına səbəb olur.

Buna görə də İslam faizi qadağan etmişdir. İslam hüququnda faizin qadağan edilməsilə bağlı müxtəlif ayə və hədislər var. Faizlə əlaqədar ayələri, ümumiyyətlə, faizi qınama və qəti qadağan etmə olaraq iki yerə ayırmaq mümkündür. Faizi qınayan ilk ayə belədir: "İnsanların mallarında artım olsun deyə, verdiyiniz hər hansı bir faiz Allah qatında artmaz[81]". Faizin qəti olaraq qadağan edilməsi ilə bağlı ayələr isə bunlardır: faiz yeyənlər qəbirlərindən şeytan vurmuş kəslərin cinnətdən ayılması kimi qalxacaqlar. Bu hal onların ***"Alış-veriş də eyni ilə faiz kimidir", – dedikləri üçündür. Halbuki, Allah alış-verişi halal, faizi haram etmişdir[82] Bir başqa ayə "Ey iman edənlər! Qat-qat artırılmış olaraq faiz yeməyin: Allahdan qorxun ki qurtuluşa çatasınız"[83]. Digər bir ayədə isə belə buyurulur: "Allah faiz malını məhv edər, sədəqələri isə artırar. Allah heç bir nankor günahkarı sevməz"[84].***

İslam hüquqçuları faizi borc faizi və alış-veriş faizi olmaqla iki yerə ayırmışlar.

*Borc faizi.* İqtisadiyyatda sərmayənin potensial artma xüsusiyyətinin olduğu qəbul edilir. Yəni bir mal iqtisadi həyata daxil olduğu zaman gəlir gətirər. Kapitalist sisteminəə görə, sərmayə qarşı tərəfə keçdiyi anda bu gəlir mal sahibinin qazancı olar. İslama görə isə heç bir malın gəlir gətirəcəyi qəti şəkildə bilinməz. Buna görə də faizlə verilən borcların gətirəcəyi gəlir əvvəlcədən bölüşdürülməməlidir. Belə ki, sərmayənin

---

[81] "Rum", 30/39.
[82] "Bəqərə", 2/275-279.
[83] "Ali-İmran", 3/130.
[84] "Bəqərə", 2/276.

gəlir gətirməməsi halında borclu olan tərəf risk altında qaldığı halda, borcu verən tərəf, sadəcə, öz mənfəətini düşünmüş olur.

Faizli bir borc müqaviləsində kapital ilə faizin cəmi vədə sonunda vədə başındakı kapitaldan daha az mal və xidmət satın alırsa, buna "mənfi faiz" deyilir. Bu vəziyyət faiz həddinin inflyasiyanın altında təsbit edilməsi halında ortaya çıxır. Faizdə, ümumiyyətlə, faizi verən adam zərərli çıxdığı üçün burada borc verənin qarşılaşdığı zərər əsas götürülməz və eyni hökmə tabe olmaz. İslamda isə faizin qadağan edilməsinin səbəbi olaraq, tərəflərdən birinin lehinə və digərinin əleyhinə reallaşan müəyyən bir əvəz əsas götürüldüyü üçün mənfi faiz də haram sayılır.

İnflyasiya ilə faiz həddinin fərqli olması, yəni faiz həddinin inflyasiya miqdarından az, çox və ya bərabər olması faizin etibarlılığının səbəbi sayıla bilməz. İslamda pulun real dəyərinin, yəni pulun alma gücünün qorunması ilə bağlı bəzi tədbirlərin görülməsinin lazım olduğu qəbul edilmişdir. Buna görə, pulun inflyasiya qarşısında itirdiyi dəyərin qorunması üçünhəyata keçirilən tədbirlər faiz xaricində tutulmuşdur. Bununla birlikdə inflyasiyanın təməl səbəblərindən birinin faiz olduğu nəzərə alınaraq, borc əlaqəsinin inflyasiya indeksli olması ilə faiz şübhəsi daşıyacağı da ifadə edilmişdir.

Vədəli bir alacağın müəyyən miqdarının güzəştə gedilərək vədəsindən əvvəl alınmasına "güzəşt" deyilir. Güzəşt faizini haram hökmünə daxil edən alimlərin olması ilə birlikdə, bəzi müasir araşdırmaçılar da bunun borclunun yükünü yüngülləşdirmə olacağını düşünərək, faiz hökmü xaricində tutmuşlar. Bununla birlikdə vədəli bir borc əlaqəsində vədənin uzadılmasına qarşılıq borca edilən əlavə, vədənin qısaldılmasına qarşılıq borcdan edilən bir endirim eyni mahiyyətdə görünür. Hər iki vəziyyətdə də zamana bir qiymət verilmiş olur, həmçinin zamanın nə gətirəcəyi bilinməyəcəyi üçün tərəflərdən birinin zərərə uğraması mümkündür.

*Alış-veriş faizi.* Bu cür faizin qadağan edilməsi hədislərə əsaslanır. Bu da Peyğəmbərin alış-veriş faizinin əsası olan eyni alış-verişi məhdudlaşdırma və pul iqtisadiyyatını təşviq etmə cəhdində olduğunu göstərir. Alış-veriş faizinin qadağan edilməsinin əsas səbəbi malın malla və ya pulun pulla satışında ortaya çıxacaq vədə nəticəsində iki əvəz arasında meydana gələcək dəyər fərqi və bərabərsizlikdir. Alış-veriş faizinin qadağan edilmə səbəblərindən biri olaraq, İslam hüququnda "pis əmələ gedən yolu bağlama" qanunu göstərilə bilər.

*Faizin qadağan olunmasının səbəbləri.* Allah hikmət sahibidir. Buna bağlı olaraq bütün əmr və qadağalarında hikmət olduğu qəbul edilir. Faizin haram olmasının müəyyən səbəbləri mövcuddur. Faiz iqtisadi mövzu olduğuna görə, iqtisadçıları maraqlandıran bir məsələdir. Bununla birlikdə ticarət, miras hüququ və bənzəri bir çox mövzuda olduğu kimi, Qurani-Kərimin faiz mövzusuna da laqeyd qalmadığı məlumdur. İslam dini fərd və cəmiyyətin iqtisadi həyatına mənfi təsir göstərən bu əməli qadağan etmişdir. İslam dini zəkat və sədəqə kimi maddi ibadətləri əmr edərkən, faizi qadağan etmək üçün cəmiyyətdə yalnız ictimai ədaləti təmin etməyi və sərmayənin bir əldə cəmlənməsini qarşısını almağı hədəf qoymamışdır. Bununla yanaşı, fərdin mal və sərvətə olan tamahkarlığını, arzu və istəklərini nəzarət altına almaqla onu təmizləməyi hədəf seçmişdir.

Faizin zərərlərini bəndlər halında aşağıdakı kimi vermək olar:

a. Faiz qarşılığı olmayan bir qazancdır. Halbuki, İslama görə, halal qazanc qarşılığı olan qazancdır.

b. Faiz insanları ticarət, sənaye, istehsal kimi iqtisadiyyat üçün zəruri olan sahələrdən uzaqlaşdıraraq, asan yoldan qazanca sövq edir. Bu da cəmiyyətdə işsizlik və tənbəlliyin artmasına gətirib çıxarır.

c. Faiz insanlardakı fəzilət duyğusunu korşaldırır, ictimai yardımlaşmanı azaldır.

d. Faiz insanları mənfəətçi, fürsətçi və xəsis olmağa yönəldir.

e. Faiz zülm etməkdir.

Faizin iqtisadi, fərdi, ictimai, psixoloji zərərlərini daha çox saymaq mümkündür. Bunlardan ən böyüyü isə faizin zülm olmasıdır. Qurani-Kərimdə bu barədə belə buyurulur: ***"Əgər tövbə edib faizdən əl çəksəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar!".***[85]

Bundan əlavə, faizin sırf iqtisadi həyata vurduğu zərərlər də mövcuddur. Bu zərərləri aşağıdakı kimi qeyd etmək mümkündür:

1. Faiz ümumi gəlirlərin ədalətsiz bölüşdürülməsidir. Faiz münasibətlərində tərəflərin qazancları gəlir miqdarı nisbətində olmur. Müasir dövrdə faiz ödəyənlərin, əsasən, böyük şirkətlər olduğu nəzərə alınarsa, burada qazanılan məbləğlərin böyük bir qismi iqtisadi baxımdan güclü olan bu şirkətlərə qalır. Əsl sərmayə sahibi olanlar isə bu qazancdan çox az miqdarda pay alırlar. Bu mexanizm əksinə olduğu zaman yenə də iqtisadi baxımdan zəif olanlar az qazanırlar. Faiz miqdarları güclülər tərəfindən təyin olunur.

2. Faiz sərvətindən qazanc əldə edən tənbəl xalq kütlələri yaradır. Beləcə, iqtisadi həyatın əsas ünsürü olan əmək və iş qüvvəsi azalır, kiçik sahibkarlar çarəsiz qalır.

3. Faiz sərmayənin məhsuldarlığını azaldır. Təşəbbüskar iş adamları faiz gəlirindən daha az gəlirli olan layihələrə meyil etməzlər. Bu da yatırımların azalması, işsizliyin isə artmasına gətirib çıxarır.

4. Faiz azgəlirli, ancaq ictimai faydası yüksək olan layihələrin həyata keçirilməsinə mane olur. Faizlərin yüksək olması təşəbbüskarın ictimai faydası olan deyil, gəliri yüksək olan layihələrə yönəlməsini zəruri edir. Halbuki cəmiyyətə faydası olan layihələrin həyata keçirilməyib, ikinci planda qalması ictimai problemlər yaradır.

---

[85] "Bəqərə", 2/279.

5. Faiz sərmayə qoymada xərci və risqi artırır. Faizli kreditlərlə istehsal olunan malların qiymətləri yüksək olduğu üçün inflyasiya artır. Digər tərəfdən, faizli kreditlərdə bütün risk təşəbbüskarın üzərində olduğu üçün bu, təşəbbüskarlar üçün böyük çətinlik yaradır.

6. Faiz iqtisadiyyatın təbii seyrinə ziddir. Belə ki, faiz həddi sabit qəbul edilir, halbuki iqtisadi həyat dalğalı və dəyişkəndir. Faizin sabit olduğunu qəbul etmək iqtisadi həyatın dəyişməyəcəyini fərz etməkdir. Bu isə real deyil və təşəbbüskarın düşə biləcəyi çətinlikləri nəzərə almamaqdır[86].

İslam isə bütün bunlara görə faizi qadağan etmiş və bunun yerinə kar-zərər ortaqlığı prinsipini gətirmişdir. Bu mövzu İslam Bank sistemi başlığında tədqiq olunacaqdır.

## İslam Bankı

Faizsiz bank anlayışının tarixi miladdanəvvəlki dövrlərə qədər uzanıb-getsə də, müasir bank sistemi olaraq XX əsrdə təşəkkül etmişdir. Faizsiz bankların meydana çıxmasında İslam dünyasındakı sənayeləşmənin böyük təsiri olmuşdur. İslam ölkələrində müəyyən layihələrin həyata keçirilməsi üçün lazımi maliyyə dəstəyini təmin etmək məqsədilə 1975-ci ildə Ciddə şəhərində İslam İnkişaf Bankı quruldu. Zamanla İslam İnkişaf Bankının İslam ölkələrindəki maliyyə ehtiyaclarını qarşılamaqda yetərsiz qalması digər İslam ölkələrində də faizsiz bankların yayğınlaşmasına gətirib çıxarmışdır. Beynəlxalq Valyuta Fondunun 2010-cu il hesabatına görə, hazırda dünyada islami qaydalarla idarə olunan bank sektorundakı vəsaitin həcmi 1 trilyon dollara çatmışdır.

---

[86] Özsoy İsmail, Faiz və problemləri, İzmir, 1994, s52-55.

Faizsiz banklar valyuta toplama və təsisini ortaqlıq əsasında yerinə yetirən quruluşlardır. Prinsipləri ortaqlıq olduğu üçün də əvvəldən miqdarı müəyyən olan sabit bir faiz yerinə, ancaq fəaliyyət nəticəsində ortaya çıxacaq miqdarı qəti olaraq müəyyən edə bilən qazanc və zərərdən pay alar və ortaqlarına paylayarlar.

Faizsiz bankda pul sahibi "Rəbul-Mal", işlədici "Müzarib"dir. Müzarib daha əvvəl təyin olunmuş qaydalara görə qazancını təmin edər. Zərər olduğu halında pul sahibi bu zərərdən təsirlənər; müzaribə gəlincə, göstərdiyi səy və işlərin əvəzini itirmiş olar. Təbii ki, müzaribin diqqətsizliyindən irəli gələn və ya tərəflər arasındakı razılaşmanın hökmlərinə riayət edilməməsindən doğan zərərlər müzaribə aiddir. Bu sistemə "müzarəbə" deyilir. İndiki vaxtda İslam dünyasında, müzarəbə modeli ilə təşkil edilmiş və şəriət prinsiplərinə əsaslanan quruluşlar mövcuddur. Faizsiz bank sistemi möminlərə mülklərindən faydalanmaq imkanını halal şəkildə verən, qadağan olan faizi əsas götürməyən bir sistemdir. Bu sistemin qazanc əldə edənlərin zərərlərini də lazım olduğunda qarşılaması lazımdır və ortağı olduğu şirkətin maliyyə risklərinə qoşulma anlayışını qəbul etməsi şərtdir.

### A. Müzarəbə

İslam banklarının ən çox istifadə etdikləri müzarəbə maliyyə metodundakı kimi bank layihənin bütün xərclərini qarşılayır. Sərmayədən istifadə edən müştəri isə işə əmək və ustalığını qoyur. Bu razılaşma içində üçüncü şəxslərlə müzarəbə müqaviləsi bağladıqda, İslam bankı sərmayə sahibi, sərmayədən istifadə edən isə müzarib olar. Müzarib işdə yalnız əmək və ustalığını sərf edər.

İslam bankı müqavilədə istədiyi qazanc miqdarını müştərisinə bildirir. İstifadə ediləcək fondun miqdar və şərtlərinə görə, İslam bankı müştərilərdən fərqli miqdarlar istəyə bilər. Bu

üsulla fond təmin etmək və maliyyə dəstəyi vermək bazara yeni girən, qabiliyyətli, lakin maliyyə problemi olan təşəbbüskarların bu qabiliyyətindən istifadə etmə məqsədinə ən uyğun yoldur. Qabiliyyətli və bacarıqlı insanlar güvənli olduqları təqdirdə, İslam banklarından müzarəbə üsulu ilə fond ala bilərlər. Təşəbbüskarın əldə etdiyi qazanc əvvəlcədən təyin olunan nisbətdə bank ilə müştəri arasında bölüşdürülür. Zərər edilməsi halında isə bu zərəri bank qarşılayır. Müştəri isə keçən müddət ərzində çalışıb, qazana bilmədiyi üçün kifayət qədər zərərə uğradığından, onun da zərəri qarşılıqsız əməyi hesab olunur. Zərərin meydana gəlməsində müştərinin qəsdi və laqeydliyi olarsa, bu zərər onun tərəfindən qarşılanar.

Bununla yanaşı, bank zərər ehtimallarını aradan qaldırmaq, yaxud minimuma endirmək üçün lazımi tədbirləri həyata keçirər. Bu məqsədlə, sərmayəyə möhtac olan və əlində layihə olan müştərinin bu layihəsini çox diqqətlə incələyir. Layihəni uyğun və qazanclı görməsi halında bank müştərisinə fond təmin edər. Sui-istifadə ehtimallarına qarşı bank müştərisindən işlərinin nizamlı bir şəkildə hesabatını istəyə bilər. Bundan başqa, müştərilərin sui-istifadə etmə meyillərini aradan qaldırmaq üçün gözlənilən miqdarda qazanc əldə edə bilməyən kəslərə fond təminini dayandıra bilər.

### B. Müşarəkə

Müşarəkəyə İslam hüququnda "şirkəti-inan" deyilir. Müzarəbə müqaviləsində bir tərəfdən, sərmayə, digər tərəfdən, əmək qoyulursa, müşarəkədə tərəflər işə həm əmək, həm də sərmayə qoyurlar. Müşarəkədə müqaviləyə qoşulanlardan bir və ya bir neçəsinin iş görməsi ilə ortaqlardan hər biri, iş görməyənlər də daxil olmaqla, əvvəlcədən üzərində razılaşdıqları nisbətdə payı qazanarlar. Qazancın təyin olunmasında tərəflərin razılığı əsasdır. Yəni sərmayələr bərabər olduğu halda, qazanc payları fərq-

li ola bilər, yaxud əksinə, sərmayələr fərqli olduğu halda, qazanc payları bərabər ola bilər.

Bu fərqliliyin səbəbi ortaqlığa qoşulanlardan bəzilərinin daha çox iş görmələri və ya daha qabiliyyətli olmalarıdır. Bununla birlikdə bəzi alimlər tərəflərin, qazanc sərmayəyə tabe olduğu üçün, sərmayələri ilə mütənasib olaraq qazancdan pay almalarının lazım olduğunu müdafiə edirlər. İslam bankları isə müşarəkə metodu ilə bankdan fond alan ortaqların, şirkət işlərinin icra edilməsində daha çox əməkləri olduğundan, sərmayələrinə nisbətən daha çox qazanc payı almalarını qəbul etmişdir.

Müşarəkə maliyyə üsulu belə tətbiq olunur və icra edilir: İslam Bankı ortağı olan müştərisi tərəfindən istənilən sərmayənin bir qisminin məsuliyyətini üzərinə götürər. Müştəri isə öz maliyyə imkanları və layihənin xüsusiyyətinə uyğun olaraq, sərmayəsinin geri qalanını təmin edər. Müştəri alınan maliyyə dəstəyinin idarə olunması, yoxlanması və qorunmasının məsuliyyətini üzərinə götürər. Bu məsuliyyətin müştərinin üzərində qalması ona qazancdan daha çox pay alma haqqını qazandırar.

Bu üsulda qazanc tərəflər (bank və ortaq-müştəri) arasında belə bölüşdürülər: ortaqlardan biri olan müştəri gördüyü iş və ixtisası səbəbindən pay əldə edər. Gəlirin geridə qalan hissəsi sərmayəyə maliyyə köməyi göstərən iki ortaq arasında, payları ilə mütənasib olaraq bölüşülür. Zərər olduğunda isə bu, tərəflərin ortaqlıqdakı sərmayə payları ilə mütənasib olaraq qarşılanar. Müştəri əlavə bir zərərə məruz qalmaz.

Müşarəkə üsulu, ümumiyyətlə, sənayenin maliyyə hissəsində istifadə edilir. Təchizat və texnika ilə təmin edilməsində müşarəkə üsulu müvəffəqiyyətlə tətbiq oluna bilər. Bu üsul ticarətin maliyyəsində də istifadə edilir.

### C. Sələm

Sələm İslam hüququnda satış növüdür. Satıcı malın xərcini bildirir və bu xərcin üzərinə alıcı ilə razılaşdığı miqdarda qazanc payı qoyur. Alıcının qəbul etməsi ilə bu alış-veriş növü sələm olaraq gerçəkləşir. Sələmdə malın qiyməti, qazanc miqdarı və son satış dəyəri açıq olaraq ortaya qoyulur. Təcrübədə geniş yayılan və gəlir nisbəti yüksək olan bu üsul İslam banklarının, xüsusilə faiz mühiti içində, ortaqlıq növlərinin tətbiq imkanlarının daraldığı zamanlarda istifadə edilə bilər.

### Ç. Satınalma tələbi ilə sələm müqaviləsi

Bir mala ehtiyac duyub, lazım olan sərmayəni tapa bilməyən müştəri bankdan həmin malın satın alınmasını istəyər. Burada müştərinin həm bankdan malın satın alınmasını tələb etməsi, həm də bankın satın aldığı malı müştərinin bankdan satın alma vədi var. Müştərinin bu tələb və vədi üzərinə bank xüsusiyyətləri bildirilən malı satın alar, xərcinin üzərinə müştəri ilə razılaşdıqları miqdarda qazanc qoyar və müştəri bankdan bu malı satın alar. Müştəri bu pulu banka kreditlərlə və bankla razılaşılan şərtlər çərçivəsində ödəyər.

### D. İcarə

İslam bankları bu gün “leasing” də deyilən kirayə götürmə yolu ilə müştərilərinə fond təmin edir. Kirayə kirayə verən ilə kirayə götürən arasındakı razılaşma əsasında qurulur. Razılaşmada kirayənin əvəzi və müddəti bildirilməlidir. Kirayə götürülən malın mülkiyyəti malın sahibi olan İslam Bankınındır. Kirayə götürən müştəri maldan istifadə edər, buna qarşılıq bir kirayə əvəzi ödəyər. Kirayə götürmə müddəti malın istifadə olunma ölçüsünə görə dəyişə bilir.

Daşınan və daşınmaz əmlakın maliyyəsində istifadə edilən icarə üsulu bugünün iqtisadiyyatında daha çox müasir texnologiyaya daha asan yollarla sahib ola bilmək məqsədilə istifadə edilir. İslam Bankı müəyyən daşınmaz əmlakı, məsələn, bir dəzgahı müştərisinə kirayə verə biləcəyi kimi, müasir texnologiyanın yeni bir məhsulunu, tutalım, bir kompüteri müştərisinə verə bilər. Normal olaraq öz imkanları ilə kompüterə sahib olmayan müştəri, beləcə, asan və ucuz bir şəkildə kompüteri əldə etmiş olur.

### E. Qazanc payı ilə faiz arasındakı fərqlər

Qazanc istehsal nəticəsində sərmayənin puldan mala, maldan təkrar pul və ya başqa bir hala çevrilməsi ilə meydana gələn gəlir formasıdır. Qazanc payında bu istehsal müddətinin zərərlə nəticələnməsi halında sərmayə sahibi bundan birbaşa təsirlənər. Faizdə isə bütün risklər birbaşa borcluya aiddir. Faizdə sərmayə sahibi vədə sonunda sərmayəsi ilə birlikdə nə qədər faiz əldə edəcəyini bilir və bu miqdar, artıq onun qazanılmış haqqıdır. Halbuki, qazanc payında sərmayə sahibi pulunu ortaya qoyar və istehsal müddəti sonunda ortaya çıxan qazanc və ya zərər bölüşülər. Beləliklə, faiz ilə qazanc payı arasındakı əsas fərqlərdən biri faizin yaranmamış və mövcud olmayan bir gəlirin bölüşülməsi, qazanc payında isə varlığı qəti olaraq meydana çıxmış və miqdarı tam olaraq bilinən gəlirin bölüşülməsidir.

Bunlar arasındakı fərqi iki cəhətdən təsnif etmək mümkündür.

1. **Psixoloji cəhətdən:** qazanc və zərər müştərəkliyi şərti ilə sərmayəsini iş adamına verən şəxs istehsal fəaliyyətinə birbaşa qoşulmasa da, psixoloji olaraq istehsal fəaliyyətinin içindədir. Nəticə etibarilə ortaya çıxacaq qazanc, yaxud zərər ona da təsir edəcək. Bu risk pulunu faizə yatıran adamın yaşamadığı, şərikini təlaşlandıran və işi ilə maraqlanmağı tələb edən bir faktordur. Beləliklə, sərmayə sahibinin təşəbbüskarla olan ortaq qə-

dəri onları bir-birinə yaxınlaşdıracaq, cəmiyyət fərdləri arasında köməkləşmə, həmrəylik, sevgi və mərhəmət kimi əxlaqi dəyərlər güclənəcəkdir.

2. **İqtisadi cəhətdən:** Faizli sistemdə sərmayə sahibi sərmayə və qazancından əmin olduğu üçün istehsalla maraqlanmır və beləcə, iqtisadi fəaliyyətdən tamamilə uzaqlaşır. Yəni faiz məhsuldar bir məşğuliyyətin nəticəsi deyil, sadə bir gözləmənin nəticəsidir. Borc verənin məhsuldar bir məşğuliyyətinin olmaması iqtisadiyyatda təşəbbüskar faktorunun azalmasına gətirib çıxarır.

## QİYMƏTLƏNDİRMƏ

Sistemin faydaları

- Sərmayəsi olan və bu sərmayəni öz ölkəsində işlətmə imkanı tapa bilməyən ölkələrdən İslam Bankı olan ölkələrə sərmayə gəlməsi.
- Təbii sərvətləri ilə zənginləşən Orta Şərq ölkələrində bu sistemin tətbiqi ilə ticari əlaqələrdə canlanmanın yaranması.
- Maliyyə çətinliyi içində olan şirkətlərə riski daha az olan sərmayə imkanı yaradılaraq, istehsalın canlandırılması.
- Sərmayə sahibi ilə təşəbbüskar arasında yaxın əlaqənin yaranması.
- Qiymətli əşya, bina, torpaq kimi saxlanılan fondların iqtisadi həyata daxil olması.
- Müəyyən proyektlərin maliyyəsinin daha asan təmin edilməsi.[87]

[87] Küçükkocaoğlu Güray, İslami Bankalar ve İslami Finans Kurumları.

## II. Sığorta

Sığorta güvən və zəmanət deməkdir. İnsan təbiəti etibarilə sahib olduqlarını qorumaq, mühafizə etmək duyğusuna malikdir. İnsan canını, övladlarını, keçmişini, mal-mülkünü, mənəvi dəyəri yüksək olan əşyalarını qorumaq istəyir. Bunun isə müxtəlif üsulları mövcuddur. Bunlardan biri də sahib olduqlarını sığorta etdirməkdir. XIV əsrdən bəri insanlığa məlum olan sığorta müəssisələri günümüzdə daha təfsilatlı quruluşlar şəklində yayılmışdır. Müasir dövrdə fərdi sığortadan elektronik əşyalara, şirkət sığortasından təbii fəlakət sığortasınadək həyatın bütün sahələrinə aid dəyərlərin sığortası mümkündür.

Məlum olduğu kimi, sığorta gələcəkdə ola biləcək bir hadisə haqqında bağlanan müqavilədir. Məsələn: təbii fəlakət sığortası ilə evini sığortalayan şəxs bir təbii fəlakət nəticəsində sahib olduğu mülkünü qorumaq istəyir. Təbii fəlakətin baş verməsi qəti olmadığı kimi, təbii fəlakət baş verəcəyi təqdirdə, sığortalanan evin dağılacağı, yaxud zərər görəcəyi də qəti deyildir. Beləliklə, bir sığorta müqaviləsi baş verməsi ehtimal daxilində olan hadisəyə bağlanmış olur. Ehtimal olunan bir məsələ üzərində müqavilə bağlamağın haram olduğunu Peyğəmbərimiz açıq şəkildə bildirmişdir. Digər tərəfdən, sığortalanan malın zərər görməməsi halında malını sığortalayan şəxsin ödədiyi pullar boşa getmiş olur. Eyni şəkildə malın zərər görməsi halında sığorta şirkətinin ödədiyi pul da qarşılığı olmadan ödənilmiş olur. Halbuki, İslama görə, halal qazancın şərti qarşılığının olmasıdır. Bütün bunlara əsaslanan bir çox İslam alimi sığortanın İslama görə halal olmadığını qəbul etmişdir.

İslami qaydalara uyğun olaraq sığorta şirkətinin qurulmasının mümkünlüyünü iddia edən alimlər də mövcuddur. Bu anlayışa görə, sığorta şirkəti belə qurula bilər: müştərək hesab yaradılır, sığortaya qoşulmaq istəyənlər bu sığorta şirkətinə üzv olur və üzvlük pulu ödəyir. Ödənilən pullar üzvlərin adına qey-

diyyata alınır, bu pullar müəyyən ticarət sahəsində işlədilir, əldə olunan gəlirlər üzvlərin zərərlərinin qarşılanması üçün xərclənir, artıq qalan gəlirlər üzvlər arasında bölüşdürülür. Bu formada olduqda həm üzvlərin zərərləri qarşılanır, həm də üstəlik, əlavə pul qazanırlar. Hazırda dünyanın bir çox ölkəsində və hətta Avropa ölkələrində belə sığorta şirkətləri mövcuddur.

*Sığortaya müsbət yanaşanların dəlilləri* İslam dininin əsas məqsədlərindən biri də beş əsasın qorunmasıdır. Bunlar, eyni zamanda, konstitusiyalar tərəfindən qorunan haqlardan olan – "Dinin, ağılın, malın, nəfsin və nəslin" qorunmasıdır. Digər şəkildə ifadə etsək, bunlar dinin məqsədlərinin əsasını meydana gətirir. Bunun mənası odur ki, beş əsasın zədələnməsi təhlükəsi yaranarsa, digər bütün əmr və qadağalar ikincidərəcəli olaraq qalar və onların tapdalanması bahasına belə bunlar mühafizə edilər. İslamın bütün əmr və qadağaları da bu beş əsası ən güclü şəkildə qorumaq üçündür. Buna görə də bunlara "zəruri məsləhətlər" deyilir. Sonra ikinci və üçüncüdərəcəli məsləhətlər gəlir. Məsləhət insanın faydasına olan, ya da bu beş əsasın qorunması üçün faydası zərərindən çox olan deməkdir. İnsanın bəzən nəyisə etməsi, bəzən də etməməsi faydasına ola bilər. Məsləhət də ona görə dəyişər. Buna görə də nəzərə almaq lazımdır ki, biz sığorta məsələsinə yalnız bir əqd nəzəriyyəsi baxımından və dar qəliblərlə baxa bilmərik. Məsələyə, artıq geniş miqyasda və "məqasid" baxımından da baxmaq məcburiyyətində olduğumuzu bilməliyik. Bu baxımdan, sığortaya bir neçə cəhətdən yanaşmaq olar.

Sığortanın halal olduğunu qəbul edənlər bunu bir “yardımlaşma” müqaviləsi kimi göstərməyə çalışırlar. Belə bir müqavilənin də dinin əsas mənbələrinə zidd olduğunu demək mümkün deyil. Bu barədə Qurani-Kərimdə çoxlu ayə tapmaq mümkündür. Məsələn: "Yaxşılıq və təqvada köməkləşin, günah və düşmənlikdə köməkləşməyin" (“Maidə”, 5/2) ayəsi bunun açıq dəlilidir.

Bundan başqa, “İxa” (qardaşlaşdırma), ya da “Muaxat” (qardaşlıq qurma) məfhumlarını də “yardımlaşma” müqaviləsinin əsası kmi qəbul etmək olar.

Məlumdur ki, Məkkədən Mədinəyə hicrətdən dərhal sonra, Peyğəmbər maddi vəziyyəti yaxşı olmayan mühacirləri mədinəli müsəlmanlara qardaş elan etmiş və hər bir mühaciri bir ənsarla qardaş tutmuşdur. Ənsar bu həmrəyliyi hüquqi haqlardan daha güclü qəbul etmiş və malının yarısını qardaşlığı olan mühacirə vermişdir.

Sığortanın haram olduğunu qəbul edən alimlərin əsasları bunlardır:

1. Sığortada aldatma (qərər) və qeyri-müəyyənlik (cəhalət) var. İslam hüququnda da belə xüsusiyyət daşıyan müqavilələr qadağan edilmişdir.

2. Sığortanın mahiyyəti bir qumardır. Qumar üçün pulunu ortaya qoyan qazanıb-qazanmayacağını qəti bilmədiyi kimi, sığortada da qazana bilməmə ehtimalı, yəni risk vardır. Qumar qadağan olunduğu kimi, sığorta da qadağan edilməlidir.

3. Sığortada müştərək bəhs və lotereyaya bənzər xüsusiyyətlər də var. Bunların haram olduğu da açıqdır. Buna görə də sığorta haramdır.

4. Sığorta faizi də əhatə edir. Sığorta şirkəti müəyyənləşdirilən riskin reallaşması halında sığorta etdirənə müəyyən məbləğ ödəyir. Bu məbləğ sığorta etdirənin o ana qədər ödədiyi pula ya bərabərdir, ya ondan azdır, ya da çoxdur. Birinci vəziyyətdə gecikmə faizi, digər vəziyyətlərdə isə müsbət, yaxud mənfi çoxluq faizi meydana gələr. Faiz isə haramdır.

5. Sığorta bir cəhətdən də haqsız borclandırmadır (ilzam bima la-yəlzəm). Sığorta ilə bağlı olan riski ortaya çıxaran sığortaçı deyil. Bu risk hər iki tərəfin iradəsi xaricində meydana gəlmişdir. Belə olan halda, sığorta edən sığorta etdirənə öz qüsuru olmayan bir hadisədən ötrü pul verir. Risqin reallaşmaması halında da layiq olmadığı bir əvəzi, bir qarşılığı olmadan alır. Bunlar isə haqsız bir qazanc və haqsız bir təzminatdır.

6. Sığorta və xüsusilə də həyat sığortası ilahi təqdirə meydan oxumaq və onu qəbul etməmək deməkdir. Bu cəhəti ilə də caiz deyil.

# ƏLAVƏLƏR

## I. MEHR

### A. Ümumi məlumat

“Mehr” evlənən kişinin həyat yoldaşına verməsi lazım olan maldır. Buradakı "mal" ifadəsi pulla yanaşı, maddi dəyərə çevrilə bilən mənfəəti (xidmət, iş, kirayə) də əhatə edəcək genişlikdədir. Ədəbiyyatda "sadaq", "saduqa", "nihlə", "fərizə", "əcr", "hibə", "uqr", "əlaiq", "tövl" və "nikah" sözləri də mehr mənasında işlədilir.

Müasir yazıçılardan Əbu Zəhraya görə, mehr əvəzli müqavilələrdə olduğu kimi bir əvəz deyil, mütləq ifası lazım olan bir hədiyyə düşünülməlidir. Bu ödəmənin zəruriliyi bəzi ayələrlə (“ən-Nisa”, 4/4, 20, 24) yanaşı, Həzrət Peyğəmbərin söz və tətbiqlərinə də əsaslanır. Bu xüsusiyyətindən ötrü bir müqavilədə heç danışılmasa, hətta kişinin onu ödəməməsi üzərində razılaşma olsa da, mehr borcu meydana gələr. Həzrət Peyğəmbər də evlənərkən mehr vermiş, qızlarını evləndirərkən onlar üçün mehr istəmiş və səhabələri bu yöndə təlqin etmişlər. Hədis kitablarının nikah bölümündə mövzu ilə əlaqədar geniş məlumat var. İslam alimlərinin çoxuna görə, mehr nikah müqaviləsinin rükn və ya şərti deyil, hüquqi nəticəsidir. Mehr qadının haqqıdır və onu almaq, xərcləmək, yaxud bağışlamaq, rəşid olmaq şərti ilə, onun səlahiyyətindədir. Bakirə və rəşid bir qız vəlisinin razılığını almadan evləndiyi təqdirdə, hənəfi məzhəbinə görə, bənzər mehrdən az bir miqdar ilə evlənməməlidir. Bu şərtə riayət etmədiyi təqdirdə, vəlisi nikahın fəsx edilməsi üçün məhkəməyə müraciət etmə haqqına sahib olar.

Bir satış müqaviləsi ilə satıla bilən, yaxud belə bir müqavilədə əvəz ola bilən mallar və icarə müqaviləsinə mövzu olan mənfəətlər (xidmət, iş, kirayə) mehr olaraq qərarlaşdırıla bilər. Bundan başqa, bu mal və ya mənfəətin müsəlmanın faydalana biləcəyi mal və ya mənfəətlərdən olması, tərəflər arasında anlaşılmazlığa səbəb olmayacaq dərəcədə açıq və dəqiq olması da şərtdir. Cəfəri və şafei məzhəblərinə görə, mehrin aşağı sərhədi yoxdur. Tərəflər razı olduqları təqdirdə, bu tərifə uyğun gələn hər mal və mənfəət, dəyəri nə qədər az da olsa, mehr olaraq qərarlaşdırıla bilər. Şafei məzhəbinə görə, mehrin on dirhəmdən az olması məkruhdur. Hənəfi məzhəbinə görə, mehrin aşağı sərhədi on dirhəmdir. Tərəflər bundan aşağı bir miqdarı mehr olaraq qərarlaşdırdığı təqdirdə, mehr aşağı sərhəd olan on dirhəmə yüksəldilər. Mehr üçün yuxarı sərhədin müəyyənləşdirilməsi bu məzhəblərin heç birində yoxdur. Həzrət Ömər bu istiqamətdəki bir təşəbbüsündən "Nisa" surəsinin 20-ci ayəsinin dəlaləti ilə olunan etiraza imtina etmişdir. Yenə də mehrin, xüsusilə, evlilikləri çətinləşdirəcək dərəcədə çox olması xoş qarşılanmaz. Xüsusilə, cəfəri və şafei məzhəbləri fiqh kitablarında mehrin sünnəyə uyğun miqdarının ən çox beş yüz dirhəm olduğu qəbul edilir və bundan çox miqdarı mehr kimi təsbit etmək məkruh sayılır.

### B. Mehrin növləri

Mehri-müsəmma, mehri-misl. Evlənənlər, ümumiyyətlə, bir mehr üzərində razılaşarlar və bu, müqavilə əsnasında təsbir olunar. Bu şəkildə təyin olunan mehrə "mehri-müsəmma" (əl-mehrul-müsəmma) deyilir. Bu halda, kişi arvadına qarşı təyin edilən bu miqdarı ödəməklə məsuliyyət əldə etmiş olar. Əgər müqavilə əsnasında bir mehr təsbiti edilməmişsə, kişinin mehr borcu evlənən o qız, yaxud qadının bənzəri qadınların mehrinə görə müəyyənləşdirilər. Bu şəkildə təsbit edilən mehrə "mehri-

misl" (mehrul-misl) deyilir. Müqavilə əsnasında müsəlmanın istifadə etməsi caiz olmayan bir mal və ya mənfəət mehr olaraq qərarlaşdırılmışsa, yaxud mehr olaraq qərarlaşdırılan o mal, mənfəət tərəflər arasında anlaşılmazlığa səbəb olmayacaq dərəcədə dəqiq şəkildə qeyd edilməmişsə, o zaman da bənzər mehr ödənər. Bənzər mehr təsbit edilərkən, o qadın və ya qızın şəxsi xüsusiyyətlərinə bərabər olan, yaxın qohumu qadınların mehrləri əsas alınar. Hənəfi və şafei məzhəblərinə görə, bu qadınlar "bacı", "bibi", "əmiqızı" kimi ata tərəfindən olan qohumlardır. Cəfəri məzhəbinə görə, bunlara ana ilə birlikdə xala kimi ana tərəfindən qohum olan qadınlar da daxildir və bənzər mehrin yuxarı sərhədi beş yüz dirhəmdir.

Mehri-müaccəl, mehri-müəccəl: Mehrin evlilik həyatına həqiqətən başlamazdan əvvəl nağd olaraq ödənməsi qərarlaşdırıla biləcəyi kimi, daha sonra müəyyən zamanda ödənilməsi də qərarlaşdırıla bilər, hətta belə bir ödəmə təqvimi heç təsbit edilməmiş də ola bilər. Nağd ödənən və ya ödənməsi qərarlaşdırılan mehrə "mehri-müaccəl", daha sonra ödənməsi qərarlaşdırılan mehrə "mehri-müəccəl" deyilir. Bir nikah müqaviləsində mehrin hamısının müaccəl və ya müəccəl olması eləcə də, bir qisminin müaccəl, bir qisminin müəccəl olması da caizdir. Mehri-misldə mehrin nə qədərinin müaccəl və ya müəccəl olacağı ənənə kimi götürülərək təsbit edilir.

Bir qadın müaccəl olan mehrini almışsa, evlilik həyatına başlamaq üçün əri tərəfindən hazırlanan evə getməklə məsuldur. Haqlı bir səbəbi olmadan ərinin bu istəyini yerinə yetirməyən qadın "naşizə", yəni "keçimsiz" olar və bu onun, məsələn, nəfəqə haqqını aradan qaldırar. Həmin istəyə müaccəl mehrini almadığı üçün qarşı çıxırsa, o halda əri haqsız sayılar və qadının nəfəqə haqqı davam edər. Qadın müaccəl mehrini almadan ərinin evinə getməyə razı olarsa, sonradan birlikdə yaşamağa qarşı çıxa bilməz. Boşanma və ya həyat yoldaşlarından birinin ölümü halında müəccəl mehrlər də müaccəl hala gələr.

### C. Mehrin ödənmə məsuliyyəti və xəlvət

Mehr təsbiti edilmişsə, yuxarıda açıqlanan əsaslar nəzərə alınaraq ödənməlidir. Əgər yalnız müqavilə bağlanmış və həyat yoldaşları həqiqi evlilik həyatına başlamadan boşanmışlarsa, qadın təyin olunan mehrin (mehri-müsəmma) yarısını alar. Əgər daha əvvəl hamısını, yaxud yarıdan çoxunu almışsa, bu çox qismi qaytarar. Heç bir qismi ödənməmişsə, qadının mehrin yarısından alacaq haqqı davam edər. Evlilik həyatına çox qısa bir müddət də olsa başlamışlarsa, qadın mehrin hamısını alar. Həyat yoldaşlarından biri öldüyü təqdirdə, evlilik həyatı başlanmamış da olsa, qadın mehrin hamısına haqq qazanar və kişi ölmüşsə, mehr borcu mirasından ödənər. Qadın ölmüşsə, varisləri qadının mehr alacağına da varis olar və bunu ərdən tələb etmə haqqına sahib olarlar.

Mehr təyin olunmamış və evlilik həyatı həqiqətən başlamışsa, yuxarıda izah edildiyi şəkildə oxşar mehr ödənər. Evlilik həyatı həqiqətən başlanmadan boşanma olarsa, qadının haqqı bənzər mehr yerinə "mütə" adı verilən bir əvəz olar. Burada işlədilən "mütə" qadına veriləcək xüsusi bir əvəz mənasındadır. Hənəfi məzhəbinə görə, bunun, heç olmasa, bir qadının geydiyi paltarın dəyərində olması lazımdır, keyfiyyət olaraq kişinin maliyyə vəziyyəti əsas götürülər. Bu xüsusi vəziyyətdə mütləq ödənilməsi lazım olan bir borc mütənin digər boşanmalarda da verilməsi müstəhəbdir. Cəfəri məzhəbinə görə, buradakı "mütə" kişinin maddi imkanına görə, üç yerə ayrılır. İmkanı yaxşı olan, keçmişdəki təsbitlərə görə, bir minik heyvanı, yaxud qiymətli bir paltar, ya da on dinar, ortasəviyyəli olan beş dinar, kasıb olan da bir dinar, yaxud bir üzük və ya bənzəri bir şey verər. Şafei məzhəbinə görə, mütənin otuz dirhəmdən az olmaması və mehrin yarısını keçməməsi müstəhəbdir. Evlilik həyatı həqiqətən başlanmazdan həyat yoldaşlarından biri ölərsə, hənəfi məzhəbinə görə, yenə qadın bənzər mehrin hamısına

haqq qazanar. Cəfəri məzhəbinə görə, bu vəziyyətdə qadının mehr haqqı olmaz, həyat yoldaşı yalnız varis olaraq mirasdakı payını alar. Şafei məzhəbində bu mövzuda biri hənəfi, digəri cəfəri məzhəbinə uyğun iki ictihad mövcuddur.

Hənəfi məzhəbinə görə, səhih bir nikah müqaviləsindən sonra, həyat yoldaşları heç kimin görməyəcəyi və icazəsiz girə bilməyəcəyi bir yerdə baş-başa qalmışlarsa və bu əsnada cinsi əlaqədə olmalarına mane olan dini, fiziki, ya da təbii bir vəziyyət olmamışsa, "səhih xəlvət" olaraq adlandırılan bu vəziyyət hökm etibarilə həqiqi evlilik həyatına başlama sayılar və hüquqi nəticələr ortaya çıxar. Cəfəri məzhəbində xəlvət halı üçün belə xüsusi bir hökm yoxdur. Bu mövzuda şafei məzhəbinin fikri Əbu Zəhraya görə, cəfəri məzhəbi ilə, Xəlil Günencə görə isə hənəfi məzhəbi ilə uyğundur.

Fasid bir evlilik müqaviləsi ilə evlilik həyatına başlamaq halal deyil. Buna baxmayaraq, bilmədən belə bir həyat olmuşsa, evliliyə son verilər. İstər bu vəziyyətdə, istərsə də həyat yoldaşlarının səbəb olduğu, ancaq boşanma sayılmayan bəzi ayrılıqlarda mehr ilə əlaqədar təfsilatlı məlumatları fiqh kitablarına həvalə edirik[88].

[88] Buxari, "Vəkalət", 9, "Fəzaiul-Quran", 21, 22, "Nikah", 14, 32, 50; Müslim, "Nikah", 76-83; Küleyni, əl-Füru minəl-kafi, V, 375-386; Tusi, Təhzibul-ehkam, VII, 353 və b.; Tusi, əl-Məbsut, IV, 271 və b.; Tusi, Kitabul-xilaf, IV, 366-368; Mərğinani, əl-Hidayə, I, 204-213; Şəhidi-Sani, ər-Rövzətul-bəhiyyə, V, 254 və b.; Şirbini, Müğnil-möhtac, III, 220 və b.; Günenç, Şafii İlmihali, s. 351-352; Əbdülkərim Hilli, əl-Ehkamul-Cəfəriyyə fil-əhvaliş-şəxsiyyə, s. 28-36; Əbu Zəhra, əl-Əhvaluş-şəxsiyyə, s. 169 və b.; Aydın, Türk Hukuk Tarihi, s. 301-303.

## II. NƏFƏQƏ

Qohumluq nəfəqəsində əsas prinsip hər şəxsin öz nəfəqəsindən məsul olmasıdır. Bu səbəbdən kiçik uşaqlar da daxil olmaqla, ehtiyacını qarşılayacaq mali imkanı olan bir kimsə, hər hansı bir qohumuna qarşı nəfəqə borclusu olmaz. Bir şəxsin mali imkanı ehtiyaclarını qarşılamağa çatmadığı təqdirdə, imkanı olan qan qohumlarından ona qarşı nəfəqə öhdəçiliyi yaranar. Qohumluq nəfəqəsi mövzusunu tədqiq edərkən "üsul-füru" və ya "üst soy-alt soy" deyilən qohumlarla digərlərini ayrı-ayrılıqda araşdırmaq lazımdır.

Üsul qohumları (ana, ata, baba, nənə, onların ana və ataları ) ilə füru qohumların (oğul, qız, onların oğulları, qızları) bir-birlərinə qarşı nəfəqə məsuliyyəti olduğu mövzusunda hənəfi, cəfəri və şafei məzhəbləri arasında fikir birliyi var.

Füru qohumlarının bu şəkildə nəfəqə borclusu ola bilmələri üçün dolanışıqlarına çatacaq maddi imkana sahib olmamaqla yanaşı, pul qazanmaq imkanlarının da yoxluğu şərtdir. Bu səbəbdən çalışıb pul qazana biləcək imkana sahib birinin çalışaraq ehtiyaclarını qarşılaması lazımdır, üsul qohumları onun nəfəqəsini təmin etməkdə məsul deyil.

Hələ yetkin olmamış uşaqlar ilə yetkin olsa belə, qüsurlu olduğu üçün, ya da özünə uyğun iş olmadığı üçün çalışa bilməyən şəxslər iş imkanına sahib insanlar kimi qəbul edilmirlər. Hənəfi məzhəbinə görə, bir qız və ya qadın yetkin olsa belə, nəfəqəsini təmin etmək üçün çalışmaq məcburiyyətində qalmaz, öz maddi imkanı olmadığı təqdirdə, nəfəqəsi qohumları tərəfindən təmin edilər.

Cəfəri məzhəbinə görə, nəfəqə borclusu olma barəsində füru qohumları ilə üsul qohumları arasında fərq yoxdur. Füru qohumları kimi üsul qohumları da ancaq iş imkanları yoxdursa, nəfəqə borclusu olarlar. Hənəfi məzhəbi fəqihləri bu iki qrup

arasında fərqli düşünür və üsul qohumları üçün iş məcburiyyətini şərt qoymurlar. Onların iş imkanları olduğu sayılsa da, ehtiyacları füru qohumları tərəfindən təmin edilər. Şafei məzhəbində bu mövzudakı üç ayrı ictihaddan biri cəfəri, digəri hənəfi məzhəbinə uyğun gəlir. Üçüncü bir ictihada görə isə, imkanları olduğu halda, işləməyən üsul qohumları kimi füru qohumları da nəfəqə borclusudur.

Cəfəri və şafei məzhəblərinə görə, qohumluq nəfəqəsi yalnız üsul və füru qohumları arasındadır. Qardaşlar, yaxud digər qohumlar arasında nəfəqə öhdəçiliyi yoxdur. Hənəfi məzhəbi isə qohumluq nəfəqəsinin çərçivəsini daha geniş götürür. Onlara görə, aralarında evlilik qadağası meydana gələcək dərəcədə yaxın olan bütün qan qohumları arasında nəfəqə öhdəçiliyi var. Bu səbəbdən, əmi, dayı, bibi, xala və qardaş (bacı) uşaqları da bir-birlərinə qarşı nəfəqə məsuliyyəti daşıyırlar. Üsul və füru xaricindəki qohumların nəfəqəsinə qoşulmağı müstəhəb qəbul edən cəfəri məzhəbi fəqihləri bu qohumlardan hənəfilərin qeyd etdiyi çərçivədə, qalanları ayıraraq onların nəfəqəsini təmin etməyin daha qüvvətli (müəkkəd) müstəhəb olduğunu söyləyirlər.

Bir şəxsin nəfəqə məsulu olması üçün əvvəlcə öz ehtiyaclarını qarşılayacaq vəziyyətdə olması lazımdır. Buradakı ehtiyacın miqdarı nəfəqə alanlar və nəfəqə məsulları arasındakı üstünlük sırası, birdən çox şəxs nəfəqə məsulu olması halında nəfəqəyə hansı nisbətlərdə qoşulacaqları və digər mövzular fiqh kitablarından öyrənilə bilər[89].

[89] Mərğinani, əl-Hidayə, II, 45-48; Şəhidi-Sani, ər-Rövzətul-bəhiyyə, V, 353-359; Şirbini, Müğnil-möhtac, III, 452-456; Əbu Zəhra, əl-Əhvaluş-şəxsiyyə, s. 415-425; Aydın, Türk Hukuk Tarihi, s. 319.

## III. İqtisadiyyata dair ayə və hədislər

### A. Ayələr

وَهُوَ الَّذِي أَنشَأَ جَنَّاتٍ مَّعْرُوشَاتٍ وَغَيْرَ مَعْرُوشَاتٍ وَالنَّخْلَ وَالزَّرْعَ مُخْتَلِفاً أُكُلُهُ وَالزَّيْتُونَ وَالرُّمَّانَ مُتَشَابِهاً وَغَيْرَ مُتَشَابِهٍ كُلُواْ مِن ثَمَرِهِ إِذَا أَثْمَرَ وَآتُواْ حَقَّهُ يَوْمَ حَصَادِهِ وَلاَ تُسْرِفُواْ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ

*"Yer üzünə sərilmiş və sərilməmiş bağ-bağatı (bostanları və bağları), dadları müxtəlif xurmanı və taxılı, bir-birinə həm bənzəyən, həm də bənzəməyən zeytunu və narı yaradan Odur. (Onların hər biri) bar verdiyi zaman barından yeyin, yığım günü haqqını (zəkatını, sədəqəsini) ödəyin, lakin israf etməyin. (Allah) israf edənləri sevməz!"* ("əl-Ənam", 6/141).

يَا بَنِي آدَمَ خُذُواْ زِينَتَكُمْ عِندَ كُلِّ مَسْجِدٍ وكُلُواْ وَاشْرَبُوا وَلاَ تُسْرِفُواْ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ

*Ey Adəm oğulları! Hər bir ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyinin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!* ("əl-Əraf", 7/31).

وَلاَ تَجْعَلْ يَدَكَ مَغْلُولَةً إِلَى عُنُقِكَ وَلاَ تَبْسُطْهَا كُلَّ الْبَسْطِ فَتَقْعُدَ مَلُوماً مَّحْسُوراً

*Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan!* ("əl-İsra", 17/29).

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا تَدَايَنتُم بِدَيْنٍ إِلَى أَجَلٍ مُّسَمًّى فَاكْتُبُوهُ وَلْيَكْتُب بَّيْنَكُمْ كَاتِبٌ بِالْعَدْلِ وَلاَ يَأْبَ كَاتِبٌ أَنْ يَكْتُبَ كَمَا عَلَّمَهُ اللّهُ فَلْيَكْتُبْ وَلْيُمْلِلِ الَّذِي عَلَيْهِ الْحَقُّ وَلْيَتَّقِ اللّهَ رَبَّهُ وَلاَ يَبْخَسْ مِنْهُ شَيْئاً فَإن كَانَ الَّذِي عَلَيْهِ الْحَقُّ سَفِيهاً أَوْ ضَعِيفاً أَوْ لاَ يَسْتَطِيعُ أَن يُمِلَّ هُوَ فَلْيُمْلِلْ وَلِيُّهُ بِالْعَدْلِ وَاسْتَشْهِدُواْ شَهِيدَيْنِ من رِّجَالِكُمْ فَإِن لَّمْ يَكُونَا رَجُلَيْنِ فَرَجُلٌ وَامْرَأَتَانِ مِمَّن تَرْضَوْنَ مِنَ الشُّهَدَاء أَن تَضِلَّ إْحْدَاهُمَا فَتُذَكِّرَ إِحْدَاهُمَا

الأُخْرَى وَلاَ يَأْبَ الشُّهَدَاء إِذَا مَا دُعُواْ وَلاَ تَسْأَمُوْاْ أَن تَكْتُبُوْهُ صَغِيراً أَو كَبِيراً إِلَى أَجَلِهِ ذَلِكُمْ أَقْسَطُ عِندَ اللّهِ وَأَقْومُ لِلشَّهَادَةِ وَأَدْنَى أَلاَّ تَرْتَابُواْ إِلاَّ أَن تَكُونَ تِجَارَةً حَاضِرَةً تُدِيرُونَهَا بَيْنَكُمْ فَلَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَلاَّ تَكْتُبُوهَا وَأَشْهِدُوْاْ إِذَا تَبَايَعْتُمْ وَلاَ يُضَآرَّ كَاتِبٌ وَلاَ شَهِيدٌ وَإِن تَفْعَلُواْ فَإِنَّهُ فُسُوقٌ بِكُمْ وَاتَّقُواْ اللّهَ وَيُعَلِّمُكُمُ اللّهُ وَاللّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

*“Ey iman gətirənlər! Müəyyən müddətə bir-birinə borc verib aldıqda, onu yazın! Bunu (bu sənədi) aranızda bir nəfər katib ədalətlə yazsın! Katib gərək Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın, yazsın! Borclu olan şəxs borcunu söyləyərək (deyə-deyə) yazdırsın və Rəbbi olan Allahdan qorxaraq ondan (borcdan) bir şey əskiltməsin. Əgər borclu ağılsız və zəifdirsə (qoca və ya uşaqdırsa), yaxud söyləməyə qadir deyilsə, o zaman gərək onun (əvəzinə) vəkili ədalətlə deyib (borcu) yazdırsın. Öz adamlarınızdan iki kişini də şahid tutun! Əgər iki kişi olmazsa, razı olduğunuz bir kişi ilə iki qadının şəhadəti kifayətdir. Əgər (qadınlardan) biri (şəhadəti) unudarsa, o birisi onun yadına salsın. Şahidlər (bu işə) dəvət olunduqları zaman boyun qaçırmasınlar. Az və ya çox olmasına baxmayaraq, borcu öz vaxtına qədər (nə müddətə verilmiş olduğunu) yazmağa ərinməyin! Sizin bu işiniz Allah yanında daha ədalətli, şahidlik üçün daha səhih və şübhəyə düşməməniz üçün haqqa daha yaxındır. Lakin aranızda həmişə dövr edən aşkar (nağd) ticarət zamanı onu yazmamağınız sizin üçün günah deyildir. (Hər halda) alış-veriş etdiyiniz vaxt şahid tutun! Katibə və şahidə zərər yetirilməsin. Əgər zərər yetirsəniz, əlbəttə, bu sizin üçün pis işdir. Allahdan qorxun! Allah (ehtiyacınız olan şeyləri) sizə öyrədir. Allah bütün işləri biləndir!* (“əl-Bəqərə”, 2/282).

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ أَمْوَالَكُمْ بَيْنَكُمْ بِالْبَاطِلِ إِلاَّ أَن تَكُونَ تِجَارَةً عَن تَرَاضٍ مِّنكُمْ وَلاَ تَقْتُلُواْ أَنفُسَكُمْ إِنَّ اللّهَ كَانَ بِكُمْ رَحِيماً

*“Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə*

*(haqsız yerə) yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!”* (“ən-Nisa”, 4/29).

قُلْ إِن كَانَ آبَاؤُكُمْ وَأَبْنَآؤُكُمْ وَإِخْوَانُكُمْ وَأَزْوَاجُكُمْ وَعَشِيرَتُكُمْ وَأَمْوَالٌ اقْتَرَفْتُمُوهَا وَتِجَارَةٌ تَخْشَوْنَ كَسَادَهَا وَمَسَاكِنُ تَرْضَوْنَهَا أَحَبَّ إِلَيْكُم مِّنَ اللّهِ وَرَسُولِهِ وَجِهَادٍ فِي سَبِيلِهِ فَتَرَبَّصُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ

*“(Ya Rəsulum!) De: “Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, qəbiləniz (qohumlarınız), qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihaddan daha əzizdirsə, Allahın əmri (əzabı) gəlincəyə qədər gözləyin. Allah fasiqləri doğru yola yönəltməz!”* (“ət-Tövbə”, 9/24).

رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ يَخَافُونَ يَوْماً تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

*“O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) bir gündən (qiyamət günüdən) qorxarlar”* (“ən-Nur”, 24/37).

إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللَّهِ وَأَقَامُوا الصَّلَاةَ وَأَنفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرّاً وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَّن تَبُورَ * لِيُوَفِّيَهُمْ أُجُورَهُمْ وَيَزِيدَهُم مِّن فَضْلِهِ إِنَّهُ غَفُورٌ شَكُورٌ

*“Allahın Kitabını oxuyan, namaz qılan, özlərinə verdiyimiz ruzilərdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər kasad olmayacaq bir ticarət (savab) umarlar ki, (Allah) onlara (əməllərinin) mükafatlarını versin və Öz lütfündən (kərəmindən) onlara artırsın! Həqiqətən, (Allah) bağışlayandır, qədirbiləndir! (Bəndələrinə Ona etdikləri şükür müqabilində bol nemət əta edər)”* (“Fatır”, 35/29).

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا هَلْ أَدُلُّكُمْ عَلَى تِجَارَةٍ تُنجِيكُم مِّنْ عَذَابٍ أَلِيمٍ * تُؤْمِنُونَ بِاللَّهِ وَرَسُولِهِ وَتُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ بِأَمْوَالِكُمْ وَأَنفُسِكُمْ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

*"Ey iman gətirənlər! Sizə elə bir ticarət (qazanc yolu) göstərimmi ki, o sizi şiddətli əzabdan xilas etsin? (O qazanc yolu budur:) Allaha və Onun Peyğəmbərinə iman gətirəsiniz. Allah yolunda malınız və canınızla vuruşasınız (cihad edəsiniz). Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!"* ("əs-Saf", 61/10).

وَإِذَا رَأَوْا تِجَارَةً أَوْ لَهْواً انفَضُّوا إِلَيْهَا وَتَرَكُوكَ قَائِماً قُلْ مَا عِندَ اللَّهِ خَيْرٌ مِّنَ اللَّهْوِ وَمِنَ التِّجَارَةِ وَاللَّهُ خَيْرُ الرَّازِقِينَ

*"Onlar (möminlər) bir alış-veriş, yaxud bir əyləncə gördükləri zaman səni ayaq üstə (minbərdə xütbə oxuduğun halda) qoyub ona tərəf cumdular. (Ya Peyğəmbər!) De: "Allah dərgahında olan savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ruzi verənlərin ən yaxşısıdır!"* ("əl-Cümə", 62/11).

## B. Hədislər

1. Miqdam əz-Zübeydi (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "İnsan əlinin əməyi ilə qazandığından daha halal bir qazanc əldə etməmişdir. İnsanın özünə, ailəsinə və xidmətçisinə xərclədiyi sədəqədir".*

2. İbn Ömər (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "Əmin, dürüst, müsəlman tacir Qiyamət günü şəhidlərlə bərabərdir".*

3. Muaz ibn Abdiullah ibn Hüdeybin əmisi (r.ə.) rəvayət edir: *"Biz bir camaat halında durmuşduq. Peyğəmbər başı islanmış halda gəldi. Bir nəfər ona "Bu gün sizi yaxşı və fərah görürük", – dedi. "Bəli! Əlhamdulillah elədir!" – buyurdu. Sonra camaat zənginlik haqqında söhbətə başladı. Rəsulullah "Müttəqi üçün*

*zənginliyin bir zərəri yox!" – buyurdu. Sonra "Ancaq dedilər ki, səhhət müttəqi üçün zənginlikdən daha xeyirlidir. Könül xoşluğu da bir nemətdir".*

4. Əbu Hümeyd əs-Səidi (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "Dünya istəyində münasib olun. Hər kəs özü üçün yaradılmış olana müyəssərdir (qazanmağa hazırlanmışdır)".*

5. Ənəs İbn Malik (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "Çalışqanlıq baxımından insanların ən üstünü həm dünya, həm də axirət üçün çalışan mömindir".*

6. Cabir (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "Ey insanlar, Allaha qarşı müttəqi olun və (dünyəvi) istəkdə münasib olun. Heç bir kimsə yoxdur ki, (Allahın ona təqdir etdiyi) ruzisini əskiksiz əldə etmədən ölmüş olsun. Ruzisi gecikse belə ona mütləq qovuşacaq. Elə isə Allahdan qorxun və istəkdə münasib olun, (qeyri-qanuni yollara sapmayın), halal olanı alın, haram olanı tərk edin".*

7. Ənəs İbn Malik (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "(Qanuni) bir işdən (halal ruzi) qazanan kimsə o işə davam etsin".*

8. Nafi rəvayət edir: *"Mən Şam və Misirə ticarət malı göndərirdim. İraqa da göndərdim və möminlərin anası Həzrət Aişənin yanına gedib ona "Ey möminlərin anası! Mən Şama ticarətə gedirdim, indi İraqa gedirəm" – dedim. Bunun üzərinə "Belə etmə! Sənə və köhnə ticarət yerinə nə oldu? Çünki mən, Rəsulullah əleyhissalatu vəssalamın "Allah-Taala sizdən birinə bir cəhəti ruzisinə səbəb etsə, bu dəyişənə və ya çətinləşənə qədər onu tərk etməsin" buyurduğunu eşitdim", – dedi.*

9. Həzrət Ömər (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Malını satışa çıxaran ruziyə çatar, möhtəkir (bahalanması üçün satmayıb gözləyən) də lənətə uğrayar".*

10. Həzrət Ömər (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalamla birlikdə idim, buyurdu ki:"Müsəlmanlara bir qida maddəsində ehtikar edəni Allah-Taala cüzzam və iflasa məhkum edər".*

11. Übey ibn Kəb (r.ə.) rəvayət edir: "*Bir adama Quran öyrətmişdim. Mənə bir yay hədiyyə etdi. Bunu Rəsulullah əleyhissalatu vəssalama xəbər verdim: "Əgər onu alsan, atəşdən bir yay almış olarsan", – buyurdu. Mən də geri qaytardım".*

12. Həzrət Əli (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam hacamat oldu və mənə əmr etdi, mən də hacamat edən şəxsin pulunu ödədim".*

13. Əbu Səidil-Xudri (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Satış hər iki tərəfin razılığı ilə olar".*

14. Attab ibn Əsədin (r.ə.) rəvayət etdiyinə görə, *"Rəsulullah əleyhissalatu vəssalam onu Məkkəyə göndərdiyi zaman əslini satın alıb hələ təslim alınmamış bir malın karından məhrum etmişdir".*

15. İbn Abbas (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam Beyi-ğərərdən (yəni reallaşması məlum olmayan satışdan) məhrum etdi".*

16. Əbu Səid (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam zamanında qiymətlər artmışdı. Camaat müraciət edərək: "Ey Allahın Elçisi, qiymətləri siz təyil etsəniz!" – dedilər. Əleyhissalatu vəssalam bu cavabı verdi: "Mən özünüzə zülm etməyi sizdən tələb etmədəm aranızdan ayrılmağı diləyirəm".*

17. Osman ibn Affan (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "İstər satıcı, istərsə alıcı olarkən asanlıq göstərən kimsəni Allah cənnətə qoydu".*

18. Ümmü Bəni Əmmar (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalamın ümrələrinin birində ona Mərvədə yaxınlaşdım və "Ey Allahın Elçisi! Mən alıb-satan bir qadınam. Bir şeyi satın almaq istədiyim zaman arzuladığımdan daha aşağı bir qiymət təklif edirəm. Sonra yavaş-yavaş artıraraq arzuladığım qiymətə gəlirəm. Bir şeyi satacağım zaman da,*

*əvvəlcə arzuladığım qiymətdən daha yüksək bir qiymət təklif edir, sonra yavaş-yavaş enərək arzuladığım qiymətə gəlirəm, (buna nə deyirsən?)" – dedim. Bu cavabı verdi: "Belə etmə. Bir şey satın almaq istəyəndə düşündüyün qiyməti de, sənə verilsin və ya verilməsin".*

Aleyhissaltu vəssalam sonra bunu dedi: *"Bir malı satmaq istədiyin zaman da satmaq istədiyin qiyməti de".*

19. Həzrət Əli (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam günəş doğmazdan əvvəl alış-verişi, bazarlıq etməyi və süd verməkdə olan heyvanları kəsməyi qadağan etdi".*

20. Übadə İbnus-Samit (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam müştəri (özünə aid olmasını) şərt qoymamış isə, (satılan) xurma ağaclarının (başında olan) meyvəsinin ağacları peyvənd edənin haqqı olduğuna və həmçinin, müştəri (kölənin malının özünə aid olmasını) şərt qoymadığı təqdirdə, kölənin malının satıcıya aid olduğuna hökm verdi".*

21. Cabir ibn Abdillah (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Çəkdiyiniz zaman tərəzinizi ağır edin".*

22. İbn Abbas (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam Mədinəyə gələndə xalq ölçü-çəki işində insanların ən pisi idi. Bunun üzərinə Allah-Taala "Ölçü və çəkidə hiylə edənlərin vay halına" – deyə başlayan surəni endirdi. Bundan sonra ölçü və çəkiyə diqqət etdilər".*

23. Əbu Həmrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalamı yanında bir qab içində bir miqdar taxıl satan bir adamın yaxınlığından keçdiyini gördüm. Mübarək əlini qabın içinə salıb adama "Sən hiylə edənə bənzəyirsən. Bizə hiylə edən bizdən deyil" – buyurdu".*

24. Cabir (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam biri satıcının, biri də alıcının ölçəkləri olmaqla iki ölçəkdən keçmədikcə bir taxılı satmağı qadağan etdi".*

25. Əbu Üseyd əs-Səidi (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam Nəbit bazarına gedib, "Bura sizə münasib bir bazar deyil", – buyurdu. Sonra bir başqa bazara gedib baxdı. Yenə "Bura da sizə uyğun bir bazar deyil", – buyurdu. Sonra bu bazara qayıtdı, içini gəzib (tədqiq etdi) və "Sizin bazarınız buradır! Əsla bura daraldılmasın və burada (satış və alış) edənlərdən vergi alınmasın", – buyurdu".*

26. Səlman (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam "Kim səhər namazına gedərsə, iman bayrağıyla getmiş olar. Kim də bazara gedərsə, o da iblis bayrağı ilə getmiş olar", – buyurdu.*

27. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam "Allahım, ümmətim üçün cümə axşamı günü ilk vaxtını mübarək et" – deyə dua etdir".*

28. İbn Ömər (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam belə dua buyurdu: "Allahım, ümmətimə günün ilk vaxtlarında (etdikləri işi) bərəkətləndir".*

29. İbn Ömər (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "Ey insanlar! Müştərini aldatmaq üçün südü sağılmayıb məməsində qalan bir heyvanı satın alan kimsə üç gün sərbəstdir. (Heyvanı bu əsnada qaytara bilər.) Əgər qaytararsa, heyvanla birlikdə, sağdığı südün iki mislini və ya sağılan südün (qiymətinin) bir mislini buğda olaraq geri versin".*

30. Abdullah ibn Məsud (r.ə.) rəvayət edir: *"Doğru söyləyən və doğruluğu (möcüzələrlə) təsdiq edilən Əbul-Qasım əleyhissalatu vəssalam üzərinə şahidlik edərəm ki, O bizə belə buyurdu: "Mühəlləb (südü məmədə saxlanmış) heyvanları satmaq aldatmacadır və aldatma işi heç bir möminə halal olmaz".*

31. Vasilə İbnul-Əsqa (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "Kim bir malın ayıbını gizləyərək satarsa, daima Allahın qəzəbinə və mələklərin lənətinə məruz qalar".*

32. Abdullah ibn Məsud (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalama əsirlər gətirildiyi zaman, ailə fərdlərini bir-birindən ayırmaq istəmədiyi üçün hamısını bir adama verərdi".*

33. Ənəsin (r.ə.) rəvayət etdiyinə görə, *"Rəsulullah əleyhissalatu vəssalam möminlərin anası Səfiyyəni (r.ə.) yeddi baş (nökər-kölə) ilə satın aldı".*

34. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Merac gecəsi bir qövmə uğradım ki, qarınları evlər kimi iri idi. Bu qarınların içi ilanlarla dolu idi və ilanlar çöldən görünürdülər. Mən "Ey Cəbrayıl, bunlar kimlərdir?" – deyə soruşdum. "Bunlar faiz yeyənlərdir!" – dedi".*

35. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Faiz yetmiş növ günaha səbəbdir. Ən yüngülü insanın anası ilə zina etməsi kimidir".*

36. Abdullah ibn Məsud (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Faiz yetmiş üç növdür".*

37. Həzrət Ömər (r.ə.) rəvayət edir: *"Ən son enən ayə faizlə əlaqədar olan ayədir. Rəsulullah əleyhissalatu vəssalam onu bizə izah etmədən vəfat etdi. Elə isə faizi də faiz şübhəsi olan işləri də tərk edin".*

38. Abdullah ibn Səlam (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalama bir adam gəlib, "Yəhudilərdən bir ailəni nəzərdə tutaraq, "Filanın oğulları müsəlman oldular, ancaq çox ac idilər, təkrar İslamdan dönmələrindən qorxuram", – dedi. Əleyhissalatu vəssalam "Kimin yanında bir şey var?" – deyə soruşdu. Yəhudilərdən biri "Mənim yanımda bu qədər nağd var, zənnimcə, üç yüz dinar demişdi. Filan ailənin bağçasından (alınacaq meyvə üçün) bu qiymətlə sələm müqaviləsi bağlayaram", – dedi. Əleyhissalatu vəssalam da "Bu qədər vədə ilə bu qiymətə" olar, "filan ailənin bağçasından (əldə ediləcək meyvə" qeydi) olmaz", – buyurdu".*

39. Saleh ibn Süheyb atası Süheyb ibn Sinandan nəql edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Üç şey vardır ki, onlarda bərəkət vardır: "Müəyyən bir vədə ilə olan satış, "müqaraza" (deyilən ortaqlıq növü), satmaq üçün deyil, ev üçün buğda-arpa qarışığı".*

40. Cabir ibn Abdillah (r.ə.) rəvayət edir: *"Bir adam "Ey Allahın Elçisi! Mənim mal və xidmətçim var. Atam da malımı kökündən qurutmaq, tükətmək istəyir (çox istifadə edir)", – dedi. Əleyhissalatu vəssalam "Sən də, malın da atana aidsiniz", – buyurdu".*

41. Əbu Səid (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Bir çobanın (sürüsünün) yanına gəldiyin vaxt ona üç dəfə səslən! (Çoban) cavab versə, yaxşıdı, verməsə, fəsad törətmədən olmadan (sürü sağıb aparmadan) südündən iç. Bir bağçanın kənarına gəldinmi, bağça sahibini üç dəfə çağır. Cavab versə, yaxşıdı, (özündən istəyərək ehtiyacın qədər al), əks təqdirdə, fəsad törətmədən yeyə bilərsən".*

42. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Bir səfər əsnasında biz Rəsulullah əleyhissalatu vəssalamla birlikdə idik. Bu zaman məmələri "ida" deyilən bir bitki ilə bağlanmış dəvə sürüsünə rast gəldik. (Süddən istifadə üçün) sürüyə yaxınlaşdıq. Rəsulullah əleyhissalatu vəssalam bizi çağırdı, dərhal yanına getdik. "Bu dəvələr müsəlman bir ailəyə aid, bu onların zəruri qidalarıdır və Allahdan sonra (möhtac olduqları) bərəkətləri (xeyirli malları)dır. İçində azuqələriniz olan dağarcıqlarınızın yanına çatdığınızda, onların içindəki ərzağınızın oğurlanması sizi sevindirərmi? Bunu ədalətə uyğun görərsinizmi?" buyurdu. Səhabələr "Xeyr!" deyincə, "Məhz bu (sizin etmək istədiyiniz) də elə bir işdir", – buyurdu. Biz "Yeyib-içməyə möhtac olsaq nə deyərsiniz?" – deyə soruşduq. Bu cavabı verdi: "Yeyin lakin daşımayın, için lakin daşımayın!".*

43. Ümmü-Hani (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam mənə "Qoyun və keçi al, çünki onda bərəkət vardır", – buyurdu".*

44. Ürvə əl-Bariqi (r.ə.) *"Rəsulullah əleyhissalatu vəssalamın bu sözünü nəql etmişdir: "Dəvə sahibləri üçün bir izzət vəsiləsidir. Qoyun və keçi də bərəkətdir. Xeyir Qiyamətə qədər atın alnına bağlanmışdır".*

45. İbn Ömər (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Qoyun və keçi cənnət heyvanlarındandır".*

46. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam zənginlərə qoyun-keçi saxlamalarını əmr etdi və buyurdu: "Zənginlərin toyuq saxlamaları halında, Allah kəndlərin həlak olmasına icazə verər".*

47. Əbu Səid əl-Xudri (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam belə buyurdu: "Əmin və dürüst olmaqdan ayrılmayan ticarət əhli peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə bərabərdir".*

48. Tirmizinin Rifaya ibn Rəfidən etdiyi digər bir rəvayətində belə buyurulmuşdur: *"Qiyamət günü tacirlər facirlər (günahkarlar) olaraq dirildiləcəklər. Allahdan qorxanlar, yaxşılıq edənlər və düzgünlükdən ayrılmayanlar müstəsna!".*

49. Qeys İbn Əbi Qərəzə əl-Qiffari (r.ə.) rəvayət edir*: "Biz hicrət etməzdən əvvəl "dəllallar" adlandırılırdıq. Bir gün Mədinədə – Həzrət Peyğəmbər əleyhissalatu vəssalam yanımıza gəldi. Bizə ondan daha yaxşı bir ad verdi. Buyurdu: "Ey tacirlər, ticarətdə and və boş söz olar, elə isə siz ona qarşılıq sədəqə verin".*

50. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Həzrət Peyğəmbər əleyhissalatu vəssalamla birlikdə idim, dedi: "And (tacirin zənnincə) mala rəğbəti artırar. (Halbuki gerçəkdə) qazancı azaldar".*

51. Hakim ibn Hatim (r.ə.) rəvayət edir: *"Həzrət Peyğəmbər əleyhissalatu vəssalam buyurdu: "Alış-verişdə tərəflər bir-birlərindən ayrılmadıqca (imtina etməkdə) sərbəstdirlər. Alış-verişi sədaqət və dürüstlüklə edər (qüsuru) bəyan etsələr, alış-verişləri hər ikisi üçün mübarək olar. Yalan danışsalar*

*(qüsurları) gizləsələr müəyyən bir qazanc əldə etsələr belə, alış-verişlərinin bərəkətini itirərlər".*

52. Cabir (r.ə.) rəvayət edir: *"Həzrət Peyğəmbər əleyhissalatu vəssalam buyurdu: "Satanda, satın alanda, borcunu ödəyəndə comərd və asanlaşdırıcı davranan kimsəyə Allah rəhmətini bol etsin".*

53. Tirmizi: *"Allah sizdən əvvəl yaşamış olan bir kimsəyə rəhməti ilə rəftar etdi. Bu adam satanda asanlıq göstərər, satın alanda asanlıq göstərər, alacağını istəyəndə asanlıq göstərərdi".*

54. Tirmizinin Əbu Hüreyrədən qeyd etdiyi bir rəvayətdə Rəsulullah əleyhissalatu vəssalam belə buyurur: *"Allah satışdakı dözümü, satın almadakı dözümü, ödəmədəki dözümü sevər".*

55. Hüzeyfə və Əbu Məsud əl-Bədri (r.ə.) Rəsulullah əleyhissalatu vəssalamın belə söylədiyini eşitdiklərini rəvayət edir: *"Sizdən əvvəl yaşamış olan birinə, ruhunu almaq üzrə mələk gəlmişdi, soruşdu:*

*– Bir xeyr işlədinmi?*

*Adam:*

*– Bilmirəm, – deyə cavablandırdı.*

*Ona təkrar soruşuldu:*

*– Bir düşün (bəlkə xatırlayarsan).*

*Adam dedi:*

*– Bir şey xatırlamıram, ancaq dünyada olarkən, insanlarla alış-veriş edərdim. Bu işimdə zənginə ödəmə müddətini uzadar, kasıba da asanlıq göstərərdim.*

*Allah onu cənnətinə qoydu".*

56. Amra binti Abdirrahman (r.ə.) rəvayət edir: *"Bir adam meyvə bağçasının meyvələrini topdansatın aldı. Meyvəni yığıb miqdarını təyin edincə, təxmin ediləndən az oldu. Bağ sahibini görərək əskik çıxan qismi hesabdan düşməsini və ya satış müqaviləsini pozmağı istədi. Adam təklif edilənləri qəbul etməməyə and içdi. Bunun üzərinə müştərinin anası, Həzrət Peyğəmbər əleyhissalatu vəssalama müraciət edərək vəziyyəti ona bil-*

*dirdi. Rəsulullah əleyhissalatu vəssalam "O adam xeyir etməməyə and içib", – buyurdu. Bu sözü eşidən bağ sahibi Həzrət Peyğəmbər əleyhissalatu vəssalamın yanına gələrək, "Ey Allahın Elçisi, tələbini qəbul etdim", – dedi".*

57. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Kim bir müsəlmanın iqaləsini (yəni satış müqaviləsini ləğv etməsini) qəbul etsə, Allah da onu çətinliyə düşməkdən qurtarar".*

58. İbn Ömər rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "Vəzndə Məkkə xalqının vəzni əsasdır, keyldə də Mədinə xalqının keyli əsasdır".*

59. Miqdam ibn Mədikərb (r.ə.) Rəsulullah əleyhissalatu vəssalamın bu sözünü nəql etdi: *"Yeməklərinizi gilə ilə ölçün, sizin üçün mübarək qılınsın".*

60. İbn Abbas (r.ə.) rəvayət edir: *"Həzrət Peyğəmbər əleyhissalatu vəssalam mikyal (ölçək) və mizan (tərəzi) istifadə edənlərə belə xitab etdi: "Sizlər bizdən əvvəl gəlib-keçən qövmləri həlak edən iki işi üzərinizə almısınız".*

61. İbn Hərmələ (r.ə.) rəvayət edir: *"Ümmü Həbib binti Züeyb ibn Qeys əl-Müzənniyyə, bizə (ölçüm işlərində istifadə edilən) bir sə bağışladı. Ümmü Həbib bizə rəvayət etdi ki, ona gəldiyinə görə, Rəsulullah əleyhissalatu vəssalamın arvadı Səfiyyə anamız (r.ə.) bağışlanan bu sənın Həzrət Peyğəmbər əleyhissalatu vəssalamın istifadə etdiyi sə olduğunu söyləmişdir. Ravilərdən Ənəs İbn İyaz deyir: "Mən bu səni ölçdüm, gördüm ki bu sə, Əməvi Xəlifəsi Hişam ibn Abdil-Məlikin istifadə etdiyi müddlə iki yarım müdd miqdarında idi".*

62. əs-Saib ibn Yezid (r.ə.) rəvayət edir: *"Həzrət Peyğəmbər əleyhissalatu vəssalam dövründə bir sə, bu gün sizlərin istifadə etdiyiniz müdlə, bir müddən üçdəbir müdd miqdarında çox idi. Bu miqdara Ömər ibn Əbdülaziz mərhum zamanında əlavə olundu".*

63. Həzrət Osman (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Satdığın zaman çək, satın alanda çəkdir".*

64. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Allahın ən çox sevdiyi yerlər məscidlərdir. Allahın ən çox nifrət etdiyi yerlər də bazarlardır".*

65. Salman (r.ə.) rəvayət edir: *"Əlindən gəlirsə, bazara ilk girən olma. Oradan son çıxan da olma. Bazar şeytanın (insanları çaşdırmaq üçün var gücü ilə) döyüşdüyü yerdir, bayrağı da orada dalğalanar".*

66. Həzrət Ömər (r.ə.) *"Bizim bazarımızda dini bilən kəslər satıcılıq etsin",* – buyurmuşdur.

67. Ebud-Dərda (r.ə.) buyurmuşdur: *"Mən Şamdakı Ümeyyə məscidinin nərdivanlarında bir dükan sahibi olub, hər gün əlli dinar qazanıb, Allah yolunda xərcləmək və bu əsnada namazlarımı da həmişə camaatla qılmaq, Allahın halal etdiklərini də haram etməmək şərtlərini arzulamaqdan çox, Allah-Taalanın "O kəslər ki, nə bir ticarət, nə də bir alış-veriş onları Allahı zikr etməkdən saxlamaz" ("Nur", 36) buyurduğu kəslərdən olmamaqdan qorxaram".*

Bu rəvayət Rəzinin əlavəsidir.

68. Əbdürrəhman ibn Vələnin rəvayət etdiyinə görə, İbn Abbasdan (r.ə.) üzüm şirəsi haqqında soruşduqda ondan bu cavabı almışdır: *"Bir nəfər Rəsulullah əleyhissalatu vəssalama bir şərab dağarcığı hədiyyə etmişdi, ona "Allahın bunu haram etdiyini bilmirsənmi?", – dedi. Adam "Xeyr bilmirəm", – cavabını verdi və yanında olan birinə bir şey pıçıldadı. Rəsulullah əleyhissalatu vəssalam adama "Ona nə pıçıldadın?" – deyə soruşduqda adam "Onu satmasını əmr etdim", – dedi. Rəsulullah əleyhissalatu vəssalam "İçilməsi haram olanın satılması da haramdır", – buyurdu və iki şərab dağarcığının ağızlarını açaraq içlərini boşaltdı".*

69. İbn Abbas (r.ə.) rəvayət edir: *"Həzrət Peyğəmbər əleyhissalatu vəssalamı Kəbənin yanında oturarkən gördüm. Bir an başını səmaya qaldıraraq güldü və belə dedi: "Allah yəhudilərə lənət etsin, Allah yəhudilərə lənət etsin, Allah yəhudi-*

*lərə lənət etsin! Allah onlara (ölmüş heyvanların) iç yağını qadağan etmişdi, götürüb bunu satdılar və pulunu yedilər. Halbuki Allah bir millətə bir şeyin yeyilməsini haram etdisə, onun pulunu da haram etdi deməkdir".*

70. əl-Muğirə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Kim içki satırsa, donuz qəssablığı da etsin".*

71. Əbu Təlha (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalamdan "İçkiyə varis olan yetimlər" haqqında soruşmuşdum. Rəsulullah əleyhissalatu vəssalam:"Tök onu!" – deyə əmr etmişdi. Əbu Təlha "Sirkə etsəm olmazmı?" – deyincə də "Xeyr!" deyə cavab vermişdi".*

Əbu Davud, Əşribə 3 (3675); Tirmizi, Buyu 58 (1293).

Tirmizinin rəvayətində *"Şərabı tök, küplərini də qır",* – buyurmuşdur.

72. İbn Ömərdən (r.ə.) rəvayət edildiyinə görə, Həzrət Peyğəmbər əleyhissalatu vəssalam belə demişdir*: "Bir yemək satın alan kimsə, onu əlinə almadan əvvəl sata bilməz".*

Buxari, Buyu 49, 51, 54, 55, "Hüdud" 42; Müslim, Buyu 29, 35, 40, 41, (1525-1526-1528-1529); Nəsai, Buyu 55, (7, 286-287); Əbu Davud, Buyu' 67 (3492); Tirmizi, Buyu 56 (1291); Müvəttə, Buyu 40, (2, 640-641); ibn Macə, Ticarat 37, (2226).

73. Bir başqa rəvayətdə "Malı əlinə alana qədər" qeydi vardır. İbn Ömər deyir: *"Biz heyvanla gələnlərdən çəkmədən göz qərarıyla yemək satın alardıq. Sonra Həzrət Peyğəmbər əleyhissalatu vəssalam satın aldığımız bu şeyləri başqa yerə nəql edərək yerini dəyişdirmədən satmamızı qadağan etdi"* Müslim, (1527).

74. Hakim ibn Hatim (r.ə.) rəvayət edir: *"Ey Allahın Elçisi dedim, mənə gəlib, bir şey almaq istəyənlər olur. Halbuki istədikləri şey məndə yoxdur. Bu halda sonra bazardan satın alaraq təslim etmək şərti ilə istənən şeyi satımmı?". "Xeyr", – dedi, yanında mövcud olmayan şeyi satma".*

Nəsai, Buyu 60, (7, 289), Əbu Davud, Buyu' 70 (3503); Tirmizi, Buyu' 19, (1232); İbn Macə, Ticarat 20, (2187).

74. İbn Ömər (r.ə.) rəvayət edir: *“Həzrət Peyğəmbər əleyhissalatu vəssalam belə əmr etdi: "Ağacların üzərindəki meyvələri saleh olduğu (saralmaq, qızarmaq vs.) zahir olana qədər satmayın. Yaş xurmanı quru xurma qarşılığında da satmayın".*

Yenə Abdullah ibn Ömər Zeyd ibn Sabitin belə dediyini rəvayət etmişdir: *“Rəsulullah əleyhissalatu vəssalam yaş xurmanı qurusu ilə dəyişdirməyi qadağan etdikdən sonra, ariyyənin (müəyyən bir ağacın başındakı yaş xurmanı) yerdəki yaş və ya quru xurma ilə dəyişdirilməsinə icazə buyurdu. Bu növ bir dəyişməyə başqa müvaqavilələrdə icazə buyurmadı". İbn Ömərə meyvənin saleh olaraq ortaya çıxması nədir? – deyə soruşulunca bu cavabı verdi: "Meyvənin fəlakətə uğrayaraq zərər görmə təhlükəsini sovuşmasıdır".*

Buxari, Buyu 82-87, Müsaqat 17, Sələm 4; Müslim, Buyu 51, 59, 79, (1534, 1535, 1539); Əbu Davud, Buyu 20, (3361); Nəsai, Buyu 28 (7, 262-263), 40 (7, 270-271), Eyman 45 (7, 33); ibn Macə, Ticarat 32, (2214-2215); Müvəttə, Buyu 10, (2, 618).

75. Cabir (r.ə.) rəvayət edir: *“Həzrət Peyğəmbər əleyhissalatu vəssalam alacalanmazdan əvvəl meyvənin satılmasını qadağan etdi. "Meyvənin alacalanması nədir?" – deyə soruşulunca, "Qızarması, saralması və yeyilə bilən hala gəlməsidir", – deyə açıqladı.*

Buxari, Buyu 83, Zəkat 58; Müslim, Buyu 53 (1536); Əbu Davud Buyu 23, (3370-3373); Nəsai, Buyu 28, (7, 264).

76. Xaricə ibn Zeyd (r.ə.) rəvayət etdiyinə görə, atası sürəyya ulduzu doğulmadıqca, meyvə satmazdı.

Müvəttə, Buyu 13, (2, 619).

77. İbn Ömər (r.ə.) rəvayət edir: *"Bir adam Rəsulullah əleyhissalatu vəssalamın yanına gələrək, alış-verişdə aldadıldığını söylədi. Rəsulullah əleyhissalatu vəssalam ona "Alış-veriş etdiyin kimsəyə “Aldatmağa yox!” de – buyurdu”.*

Buxari, Buyu 48, İstiqraz 19, Husumat 3, Hiyel 7; Müslim, Buyu' 48, (1533); Əbu Davud, Buyu 68, (3500); Tirmizi, Buyu 28 (1250); Nəsai, Buyu 51; Müvəttə, Buyu 98.

78. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam bazarda bir qida yığınına rast gəlincə əlini yığına salıb çıxardı. Barmaqlarına rütubət bulaşdı. Adamdan "Ey satıcı, nədir bu?" – deyə soruşdu. Adam "Ey Allahın Elçisi, yağmur islatdı", – deyincə, "Bu yaş qismi üstə gətirib, hər kəsin görə bildiyi yerə qoya bilməzdin?! Kim bizi aldatsa, o bizdən deyil", – buyurdu".*

Müslim, İman 164, (102); Tirmizi, Buyu 74, (1315); Əbu Davud, Buyu, 52, (3452); ibn Macə, Ticarat, 36, (2224).

79. Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam əfəndimiz buyurdu ki: "(Alıcı olmadığınız halda, qiymətləri qızışdırmaq üçün) müştəri ilə satıcının arasına girməyin".*

Buxari, Buyu 58; Müslim, Buyu 11, (1515), Nikah 52 (1413); Əbu Davud, Buyu 46, (3438); Tirmizi, Buyu 65, (1304); Nəsai, Buyu 21 (7, 1259); ibn Macə, Ticarat 14, (2174).

80. İbn Ömər (r.ə.) deyir: *"Həzrət Peyğəmbər əleyhissalatu vəssalam müştəri qızışdırmağı qadağan etdi".*

Buxari, Buyu 60; Müslim, Buyu 13, (1216); Müvəttə, Buyu 97, (2, 684); ibn Macə, Ticarat 14 (2173); Nəsai, Buyu 16, 17, 21. (7, 258).

81. İbn Məsudun (r.ə.) rəvayət etdiyinə görə, *"O, xanımından bir nökər satın almışdı. Arvadı bir şərt qoşaraq deyib: "Əgər nökəri satacaq olsan, satın aldığın qiymətlə mən alacağam". Bu barədə Həzrət Ömərdən (r.ə.) soruşdum. Mənə "Nökərə yaxınlaşma. Onda başqa biri üçün şərt var", – dedi.*

Müvəttə, Buyu 5, (2, 616).

82. İmam Malikə (r.ə.) görə, Həzrət Peyğəmbər əleyhissalatu vəssalam satışı və sələfi qadağan etmişdir. İmam Malik bunu belə açıqlayır: *"Bu, bir kimsənin digərinə belə deməsidir: "Sənin malını bu qiymətə alıram, ancaq bir şərtlə, sən də məndən*

*bu malı sələf surətiylə satın alacaqsan". Bu növ bir satış caiz deyil".*

Müvəttə, Buyu 69, (2, 657).

83. Ebu Musa (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Allah-Taala nəzərində bir qulun Allah tərəfindən qadağan edilən kəbirələrdən (böyük günahlardan) sonra, özü ilə gətirə biləcəyi ən böyük günahlardan biri, ödəniləcək qarşılıq buraxmadan üzərində borc olduğu halda ölməsidir".*

Əbu Davud, Buyu 9, (3342).

84. İmran ibn Hüzeyfə (rəhmətullah) rəvayət edir*: "Meymunə (r.ə.) çox borca girərdi. Ailəsi bu məsələyə müdaxilə edib onu ayıbladı. Bu cavabı verdi: "Borc almağı buraxmayacağam. Mən dostum və can yoldaşım əleyhissalatu vəssalamı belə deyərkən dinlədim: "Bir borcla borclanan kimsənin ödəmə niyyətində olduğunu Allah bilərsə, onun borcunu mütləq dünyada ikən ödəyər".*

Nəsai, Buyu 99, (7, 315); ibn Macə, Sədaqət 10, (2408).

85. Həzrət Əbu Hüreyrə (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu ki: "Borcunu ödəyə biləcək vəziyyətdə olan zəngin kimsənin ödəməni geçikdirməsi zülmdür. Biriniz bir zənginə həvalə olunsa (həvaləni qəbul etsin)."*

Buxari, İstiqraz 12, Həvalat 1, 2; Müslim, Müsaqat 33, (1564); Müvəttə, Buyu 84, (2, 674).

86. Büreyde əl-Əsləmi (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Kim bir borcluya möhlət versə, hər gün üçün bir sədəqə savabı qazanar. Kim onun borcunu vədəsi gəldikdən sonra təxir etsə, təxir etdiyi müddətdə, hər keçən gün (alacağı mal qədər) sədəqə yazılar".*

87. Ənəs ibn Malik (r.ə.) rəvayət edir: *"Rəsulullah əleyhissalatu vəssalam buyurdu: "Merac gecəsində cənnətin qapısı üzərində bu yazının yazıldığını gördüm: "Sədəqə on misli ilə mükafatlandırılacaq. Borc pul on səkkiz misli ilə mükafatlandı-*

*rılacaq". Mən "Ey Cəbrayıl! Borc verilən şey nə səbəblə sədəqədən daha üstün olar?" – deyə soruşdum". "Çünki – dedi, – dilənçi (çox vaxt) yanında pul olduğu halda, sədəqə istər. Borc istəyən isə ehtiyacı səbəbi üçün istəyər".*

88. Səid ibn-Ətvalın (r.ə.) rəvayət etdiyinə görə, *"Qardaşı ölmüş və üç yüz dirhəm mal və geridə baxıma möhtac ailə buraxmışdır. Deyir: "Mən bu pulu ailəsinə xərcləməyi düşünürdüm. Əleyhissalatu vəssalam "Qardaşın borcundan ötrü həbs edilmişdir. Borcunu sən ödə", – buyurdu. Səd də "Ya Rəsulullah, mən onun yerinə borcunu ödədim. Tək bir qadının iddia edib şahid gətirə bilmədiyi iki dinarı ödəmədim", – dedi. Bunun üzərinə Rəsulu-Əkrəm əleyhissalatu vəssalam Sədə "Sən qadına iddia etdiyini ver, çünki qadın doğru deyir", – buyurdu".*

## İqtisadi terminlər lüğəti

**A**

**Adət:** Bir cəmiyyətdə təkrar edilən hal və davranış.

**Aqilə:** Qan bahasını ödəyən qohumlar.

**Ariyə:** Əşyadan faydalanma haqqını bağışlamaqla bağlanan müqavilə.

**B**

**Bey:** Malı mal ilə dəyişdirmək həmçinin, satış.

**Beytul-mal:** Dövlət xəzinəsi.

**Beytul-vəfa:** Bir malı satışəvəzi geri ödənildiyində qaytarmaq şərti ilə satmaq.

**C**

**Cəhalət:** Satılan əşya haqqında alıcının yetərli məlumatının olmaması.

**Cizyə:** İslam ölkəsində yaşayan qeyri-müsəlmanların canlarını və mallarını qoruması qarşılığında dövlətə verdiyi vergi.

**Cüalə:** Bir iş qarşılığında verilən əvəz.

**D**

**Deyn:** Borc.

**Diyə:** Bir insanın öldürülməsinə qarşılıq verilən mal, qan bahası.

**E**

**Eyb:** Bir malın dəyərini azaldan hər cür xəta və qüsur.

**Eyn:** Gözlə görünən və hazır olan mal.

**Ə**

**Əcəl:** Təyin olunmuş vaxt.

**Əcr:** İş və ya mənfəət qarşılığında verilən mal.

**Əda:** Borcu ödəmək, işi yerinə yetirmək.

**Ədalət:** Dini cəhətdən xoş olmayan davranışlardan çəkinərək təqvalı olma.

**Əhd:** Qəti olaraq tabe olunan sənəd və ya söz.

**Əhliyyət:** İnsanın şəri ehkamın vücubuna uyğun və əlverişli olması.

**Əqar:** Daşınmaz əmlak mənasındadır.

**əl-Əqdul-münəccəz:** Hər hansı bir şərtə və zamana bağlı olmayan, qəti və mütləq ifadələr istifadə edilərək bağlanan müqavilə.

**əl-Əqdul-müəlləq:** Hazırda mövcud olmayan, yaxud gələcəkdə meydana gələcək bir şərtə bağlı olaraq bağlanan müqavilə.

**əl-Əqdul-müzaf:** Hökmü müəyyən bir zamandan etibarən etibarlı olmaqla, bağlanan müqavilə.

**Əmanət:** Qorunması məqsədi ilə bir əşyanın bir şəxsə verilməsi.

**əl-Əmvalul-amma**: Mülkiyyəti cəmiyyətə aid olan mallar.

**əl-Əmvalul-batinə:** Sahibindən başqasının aşkar olaraq bilmədiyi qızıl, gümüş kimi qiymətli mallar.

**əl-Əmvaluz-zahirə:** Sahibi xaricindəki insanların bildiyi aşkar mallar.

**əl-Ərzul-adiyyə**: Sahibi olmayan ölü ərazi.

**əl-Ərzul-beyza**: Ağac olmayan boş ərazi.

**əl-Ərzul-əmiriyyə**: Xəzinəyə aid dövlət ərazisi.

**Ərzul-hərb:** İslam dövləti ilə müharibə halında olan və ya müharibə edilməsi gözlənən və müsəlman olmayan dövlətlərin ərazisi.

**Ərş:** Ölüm xaricindəki yaralama cinayətlərində ödənməsi vacib olan mal, yaralama təzminatı.

**Əsəbə:** Miras hüququ termini olub, bir kimsənin babası, oğulları və ata tərəfindən kişi qohumları.

**Əvarizul-əhliyyə:** Əhliyyəti aradan qaldıran hallar.

**F**

**Fəraiz:** Hər haqq sahibinin mirasdakı payı.

**Fəsad:** Müqavilə kimi hüquqi təsərrüflərin ünsürlərində deyil, bunların vəsflərində olan nöqsan səbəbindən yaranan səhhət problemi.

**Fəsx:** Müqavilənin ləğv edilməsi.

**Fey:** Döyüşmədən hərb əhlindən sülh yolu ilə alınan mal.

**Fidyə:** Dövlət başçısının kafir əsirləri mal qarşılığında, yaxud müsəlman əsirlərə müqabil olaraq sərbəst buraxması. Bundan başqa, fidyə ibadətlərdə yaranan qüsur səbəbindən verilən mal.

**Füzuli:** Başqasının təsərrüf haqqından icazəsiz istifadə edən kimsə.

**H**

**Haqq:** Bir şəxsə aid olan hər cür maddi-mənəvi imkanlar və mənfəətlər.

**Həcr:** Mal xərcləmə səlahiyyətini məhdudlaşdırmaq, yaxud tamamilə aradan qaldırmaq.

**Hərəc:** Can və malda indi, yaxud gələcəkdə bir çətinliyə səbəb olan hər bir amil.

**Həvalə:** Borcu başqasının zimmətinə nəql etmək.

**Hifz:** Əmanəti qorumaq.

**X**

**Xərac:** Əkin ərazilərindən üşr xaricində alınan vergi.

**Xiyar:** Müqaviləni bağlamaq və ləğv etmək kimi iki yoldan birini seçmək.

**İ**

**İbra:** Bir kimsənin özünə aid olan bir haqdan imtina etməsi, onu bağışlaması.

**İflas:** Bir şəxsin borcunun malından çox olması.

**İkrah:** Bir kimsəni istəmədiyi bir işə məcbur etmək.

**İqalə:** Müqaviləni sonlandırmaq, nəticəsini aradan qaldırmaq.

**İnfisax:** Müqavilənin sona çatması, ləğv olunması.

**İrtifaq:** Bir şəxsin daşınmaz əmlakından başqasının istifadə etməsi üçün qərarlaşdırılan haqq.

**İsqat:** Mülk və ya haqqın haqq sahibindən düşməsi.

**İtq:** Kölənin azad olunması.

**K**

**Kəfalətud-deyn:** Borca kəfil olmaq, başqasının borcunu öz üzərinə götürmək.

**Kənz:** Xəzinə.

**Q**

**Qəbn:** Müqavilədəki iki əvəzdən birindəki nöqsanın gizlədilərək hiylə edilməsi.

**Qəbz:** Mala sahib olmaq, mülkiyyəti ələ keçirmək.

**Qərər:** Müqavilədə qarşı tərəfi aldatmaq.

**Qərim:** Borclu olan və bunu ödəyəcək imkana sahib olmayan kimsə.

**Qərz:** Bir maldan istifadə etdikdən sonra sahibinə qaytarmaq, borc.

**Qənimət:** Müharibə davam etdiyi müddətdə düşməndən alınan mal.

**Qəsb:** Qiymətli və əhəmiyyətli bir malı sahibinin icazəsi olmadan, aşkar və zorla almaq.

**Qəzaul-haqq:** Haqqı sahibinə vermək.

**Qismət:** Haqların ayrılması, bölünməsi.

**Qismətul-qəza:** Məhkəmə qərarı ilə müştərək mülkün şəriklər arasında bölünməsi.

**Qiyəmi:** Bənzəri olmayan, fərdləri müxtəlif olan, qiymətinə görə dəyərləndirilən mal.

**Z**

**Zəman**: Zərərin təzmin edilməsi.

**Zəvil-ərham**: Mirasdan üçdəbir, dörddəbir kimi müəyyən pay alma haqqına sahib olmayan və əsəbədən də olmayan ölənin qohumları.

**Zilyəd:** Bir mala faktik olaraq sahib olan şəxs.

**Zimmət**: Əhd, əman, haqq, borc, kəfalət.

## ƏDƏBİYYAT SİYAHISI

ABDULLAH, Ömər, Ehkamul-məvaris fiş-şəriatil-islamiyyə, İskəndəriyə 1957.

AKTAN, Hamza, Mükayeseli İslam Miras Hukuku, İstanbul 1991.

ARMAĞAN, Servet,"Sigorta Konusu ve İki Belge", Hukuk Fakültesi Halil Arslanlının Anısına Armağan, İÜHFY, İstanbul 1978.

ARSEVEN, Haydar, Sigorta Hukuku, Beta Yayınları, İstanbul 1991.

AYDIN, M. Akif, Türk Hukuk Tarihi, İstanbul 2005.

BARDAKOĞLU, Ali, "Anonim Ortaklıkların Finansmanında Yeni Bir Araç Olarak Kar ve Zarar Ortaklığı Belgesi", İslam Ekonomisinde Finansman Meseleleri, Ensar Yayınları, İstanbul 1992.

BARDAKOĞLU, Ali, "Riba", III, Marmara Üni.İlahiyat Vakfı Yayınları, İstanbul 1997.

BARDAKOĞLU, Ali, "Sigorta", İnanç İbadet İtikat Günlük Yaşayış Ansiklopedisi, IV. M. Ü.İlahiyat Vakfı Yayını, İstanbul 1997.

BERKİ, Ali Himmet, İslam Hukukunda Feraiz və İntikal, sadələşdirən: İrfan Yücel, Ankara 1985.

BEŞER, Faruk, "İslam Şeriatı Açısından Sigorta", Adlı Tebliği, 1. Uluslararası İslam Ticaret Hukukunun Günümüzdeki Meseleleri Kongresi, Şirket ve Yönetimi Finans ve Borsa, Zekat, Faiz Sigorta, Tebliğler, Müzakereler, Sonuç Bildirileri, Kombad Yayınları, Konya 1997

BEŞER, Faruk, İslam'da Sosyal Güvenlik, DİBY, Ankara 1987.

BİLMEN, Ömer Nasuhi, Hukukî İslamiyye ve İstılahatı Fıkhıyye Kamusu, Bilmen Yayınları, I-VIII, İstanbul 1985.

BOZER, Ali, Sigorta Hukuku, BTHAEY, Ankara 1965. 1986.

BÜYÜKDENİZ, Addan,"İslami Açıdan Sigorta" Adlı Makalesi, İzlenim Dergisi, sa. 40, Aralık 1996.

CAMAL, Əhməd Muhamməd, Uqudu't-Tə'min Beynə'l-İtiraz və't-Tə'yid, Məkkə1980.

CEVZİ, İbn Qeyyim, Muhamməd b. Əbu Bəkr, İ'lamul-Müvəqqiin an Rəbbil-Aləmin, II, Beyrut 1993.

CƏZİRİ, Abdurrahman, Kitabu-l Fiqh ələl-Məzahibil-ərbəə, Qahirə, ty.

CÜRCANİ, Əbul-Həsən Əli b. Məhəmməd əs-Seyid əş-Şərif, Şərhul-fəraizis-siraciyyə, Mahmud Bəy mətbəəsi (İstanbul 1322?).

ÇEKER, Orhan, "Bir Sigorta Müessesesi Uygulama Projesi" Adlı Makalesi, İlim ve Sanat Dergisi, sa.43, Mart 1997.

DALGIN, "Kaza, Hayat ve İşsizlik Sigortalarına Yeni Bir Yaklaşım" Adlı Tebliği, s. 978-928; Muhammet Fazlı Yusuf, "Tekafül İşletmesinin Kavramı ve İşleyişi Hakkında Kısa Tanıtma (İslami Sigorta)", 1. Uluslararası İslam Ticaret Hukukunun Günümüzdeki Meseleleri Kongresi, Kombad Yayınları, Konya 1997.

DALGIN, Nihat, İslam'ın Işığında Sigortacılık, Trabzon 1996.

DARƏQUTNİ, Əbul-Həsən Əli b. Ömər, əs-Sünən, Qahirə 1386/ 1966.

DAVRAN, Bülent, Mukayeseli Medeni Hukuk Dersleri, İstanbul 1956.

DİYANET, Din İşleri Yüksek Kurulu, Diyanet Dergisi, sa. 83, Kasım 1997.

DOMANİÇ Hayri, Faizle Karşılanamayan Zararların Giderilmesini Sağlayan BK. 105 ve Diğer Hükümleri, Seçkin Yayınevi, Ankara 1998.

DÖNDÜREN, Hamdi, Delilleriyle Ticaret ve İktisat İlmihali, Erkam Yayınları, İstanbul 1993.

DÖNDÜREN, Hamdi, İslam'da Emek ve İşçi-İşveren Münasebetleri, Ensar Neşriyat Yayınları

EKİNCİ, Ekrem Buğra, İslam Hukuku'nda Sigorta ve Faiz Hakkında bir Risale" adlı Arif Cuveycati'nin risalesini tercümesi, Atatürk Üniversitesi Erzincan Hukuk Fakültesi Dergisi, IV, sa.1-2. 2000.

ESEN, Bülent Nuri, Sigorta Bilgisi, Milli Eğitim Yayınları, Ankara 1945.

EYET, Feteva Hindiyye, Beyrut 1980.

ƏBU ZƏHRA, Məhəmməd, Ahkamtt-tərikat vəl-məvaris, ty., yy. (Darul-fikril-ərəbi).

ƏBU ZƏHRA, Məhəmməd, əl-Miras indəl-Cəfəriyyə, ty., yy. (Darul-fikril-ərəbi).

ƏLİ XƏFİF, əd-Damanu fil-Fiqhi'-İslami, Qahirə trs.

ƏLİ XƏFİF, "ət-Tə'min ve hükmuhu əla hədyiş-şəriati ve usulihəl-amməti", Məkkə 1976.

ƏTTAR Əbdünnasıir Tevfiq, "Hükmü'ş-Şəriəti'l-İslamiyyəti fi't-Tə'min", Məkkə 1976.

GÖZÜBENLİ, “İslam'da Faiz Yasağı ve Paralı Ekonomi”, Adlı Makalesi, İslam Ekonomisinde Finans Meseleleri, Ensar Yayınları, İstanbul 1992

GÖZÜBENLİ, Beşir, "İslam Borçlar Hukukuna Göre Kredi İşlemlerinde Cari Olan Riba" Adlı Tebliği, 1. Uluslararası İslam Ticaret Hukukunun Günümüz Meseleleri Kongresi, Kombad Yayınları, Konya, 1997.

GÖZÜBENLİ, İslam Borçlar Hukukunda Karz Akdi ve Faiz, Erzurum 1988.

GÖZÜBENLİ, İslam’da Faiz Yasağı ve Paralı Ekonomi", Adlı Tebliği,"İslam Ekonomisinde Finansman Meseleleri, Ensar Yayınları, İlmi Tartışmalar Dizisi (III) İstanbul 1992

GÖZÜBENLİ, İslam’da Para ve Fonksiyonları, AÜİF Basılmamış Doktora Tezi, Erzurum 1986.

GÖZÜBENLİ, İslam’da Para ve Fonksiyonları, AÜİF, Basılmamış Doktora Tezi, Erzurum 1986.

GÜN, A.Emrullah, Sigorta Hukuku, Ankara,1947.

HAMİDULLAH, Muhammed, İslama Giriş, Nur Yayınları, Ankara 1961.

HEYET, İlmihal, İslam ve Toplum, İSM Yayınları, I-II, İstanbul 1999.

HEYET, Kararatün fi'l-İktisadi’l İslamî, Cidde 1987.

HEYET, Para Faiz ve İslam, İstanbul 1987.

HEYƏT, El - İktisadü’l-İslamî, Cidde 1985.

HIRŞ E, Türk Ticaret Hukuku Dersleri, İstanbul 1946.

HÜSEYİN, H. Həsən, Hükmü’ş-Şəriəti’l İslamiyyə fi uqudi’t-tə’min, Daru’l-İtisam, Qahirə trs.

İBN ABİDİN, Mecmuatür Resail, II, İstanbul 1325.

İBN ABİDİN, Məhəmməd Əmin b. Ömər Dəməşqi (ö. 1252/1836), Rəddul-muxtar, İstanbul 1984.

İBN ABİDİN, Muhammed b. Emin, Reddü-l Muhtar, I-VIII, İstanbul 1984.

İBN BABƏVEYH, Şeyx Səduq Əbu Cəfər Məhəmməd b. Əli b. əl-Hüseyn əl-Qummi, Mən la yəhduruhul-fəqih, Beyrut, 1405/1985.

İBN QÜDAMƏ, Əbu Məhəmməd Abdullah b. Əhməd, əl-Muğni, Beyrut 1403/1983.

İBN QÜDAMƏ, Əbu Muhamməd Müvəffəquddin Abdullah, əl-Muğni, IV, Beyrut 1992.

İBN MACE, Ebu Abdullah Muhammed b. Yezid b. Mace, Sünen, Çağrı Yayınları, İstanbul 1981.

İBN RÜŞD, Ebu'l-Velid Muhammed b. Ahmet, Bidayetü'l-Müctehid ve Nihayetü'l-Muktesid, Karaman Yayınları, I-II, İstanbul 1985.

İMAM MALİK, b. Enes, el-Müvəttə, Çağrı Yayınları, I-II, İstanbul 1981.

İMAM ŞAFİÎ, Ebû Abdillah Muhammed b. İdrîs b.el-Abbas , Kitab el-Ümm, C. 1-5, Bulak 1321.

İSLAM ANSİKLOPEDİSİ, MEBY, 1977.

İSLAM FIKIH AKADEMİSİ MECMUALARI, II, sa.2, s.544-1211.

İSLAM FIKIH AKADEMİSİ, Kararlar ve Tavsiyeler, 1985-1989, Cidde'de 1-2-3-4.dönem toplantı Tebliğler ve Kararlar.

İSLAM FIKIH AKADEMİSİNİN (Rabıtaya bağlı) 1397 h, 5 Nolu Kararı.

İSLAM FIKIH KURULU, Mecelletü'l-Buhusi'l-İslamiyye, sa.19-20, Riyad 1407.

İSLAM MEDENİYETİ, Üç Aylık Dini, İlmi Edebi Araştırmalar Dergisi, IV.sa.4, Ağustos 1980.

İŞCAN Yaşar, (Din İşleri Yüksek Kurulu Üyesi), Bkz. Güncel Dini Konular, DİBY, Ankara 1998.

KARAMAN, Hayreddin, Mukayeseli İslam Hukuku, İstanbul 2001.

KARAMAN, Hayrettin, Laik Düzende Dini Yaşamak, İz yayıncılık, İstanbul 1997.

KARAMAN, İslam'a Göre Banka ve Sigorta, Nesil Yayınları, İstanbul 1992.

KASANİ, Bədaius-sənai' fi tərtibiş-şərai, I-VII, Qahirə 1910.

QƏRƏDAVİ Yusuf, Fiqhu'z-Zəkat, I-II, Beyrut 1991.

QƏRƏDAVİ, İslam'da Helal ve Haram, (Ter: Ramazan Nazlı), Hilal Yayınları, İstanbul trs.

LƏNKƏRANİ, Ayətullahil-uzma Məhəmməd Fazil, Tövzihul-məsail risaləsi, tərc.: M. Əlizadə, 2006.

MƏĞNİYYƏ, Məhəmməd Cavad, əl-Fiqh ələl-məzahibil-xəmsə, Beyrut 1404/1984.

MƏĞNİYYƏ, Məhəmməd Cavad, Fiqhul-İmam Cəfər əs-Sadiq, 1402/1982.

MƏRĞİNANİ, Əbul-Həsən Burhanuddin Əli b. Əbi Bəkr əl-Fərğani, əl-Hidayə, (əl-Məktəbətul-islamiyyə), ts.

MƏRĞİNANİ, əl-Hidayə şərhu bidayətil-mübtədi, I-IV, İstanbul 1986.

MÜSLİM, Camiu's-Sahih, (Sahihu Müslim), Çağrı Yayınları, İstanbul 1981.

OĞUZMAN, Kemal-ÖZ Turgut, Borçlar Hukuku, Filiz Yayınları, İstanbul 1995.

OMAĞ, M. Kemal, Banka ve Sigorta Hukuku, AÜAÖF Yayınları, Eskişehir 1995.

ÖZEL, "İslam hukukunda Ülke Kavramı ve Düşman Ülkelerinde Ticari İlişkiler' Adlı Tebliği, 1. Uluslararası İslam Ticaret Hukukunun Günümüz Meseleleri, Kongresi, Kombad Yay, Konya 1997.

ÖZEL, "Darul-İslam ve Darul-Harp ", D.V.İ.A, VIII, Marmara Üni.İlahiyat Vakfı Yayınları, İstanbul 1997.

ÖZEL, Ahmet, İslam Hukuku'nda Ülke Kavramı:Dar'ul-islam Dar'ul-harb, 4. Baskı, İstanbul 1991.

ÖZSOY, İsmail, Faiz ve Problemleri, Nil Yayınları, İzmir 1993.

ÖZSOY, İsmail," Faiz" DVİA, XII, s. 110-26;

ÖZTÜRK, Osman, Osmanlı Hukuk Tarihinde Mecelle, İstanbul 1937, 50.

RASHİD, S. K." Insurance in İslamic Law", K. Laws, I.I.U, (n.d. and unpublished) Malaysia 1980.

SCHACHT, J., İslam Hukukuna Giriş, (Ter: M. Dağ, A. Şener), Ankara 1986.

SƏRASXİ, Şəmsuddin Muhamməd b. Əhməd, əl-Məbsut, I-XXX, Beyrut 1978.

YAZIR, Elmalı M. Hamdi, Hak Dini Kur'an Dili, I-X, Feza Yayınları, İstanbul trs.

YÖRÜK, K. Abdülhak, Hukukun Umumi Prensipleri, İÜHFY, İstanbul 1949.

ZEYTİNOĞLU, Erol, Para Faiz ve İslam, İslam'da ve Diğer Sistemlerde Faiz, İİAVY, İstanbul 1987.

ZƏRQA, M. Əhməd, Nizamut-tə'min həqiqətuhu vər-rəyuş-şər'iyyi fihi, Beyrut 1984-1404 h.

**Mübariz Camalov**

# İSLAM İQTİSADİYYATI

*Dərslik*

Texniki redaktor: Hüseyn Kərimov

Tərtibatçı dizayner: Sədaqət Kərimova

Çapa imzalanmışdır: 19.12.2019.
Ölçü: 60x84 1/16. Çap vərəqi: 10. Sifariş: 050/19. Say: 1000 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, H.Zərdabi 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

9789952837032